Xalqın qəzeti!

# Xalq qəzeti

№ 205 (30899) 25 sentyabr 2025-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycan Dünya birliyində nüfuzlu söz sahibidir

## *Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva rəsmi qəbulda iştirak ediblər*





**Sentyabrın 23-də Nyu-Yorkda Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın və birinci xanım Melaniya Trampın adından BMT Baş Assambleyasının 80-ci sessiyası ilə əlaqədar rəsmi qəbul təşkil olunub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

**Rəsmi qəbulda çıxış edən Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp dedi:** Ermənistan və Azərbaycan. Mən Sizə təşəkkür etmək istəyirəm, dostum. Oradakı münaqişənin iyirmi iki il davam etdiyini dediniz, düzdür, 22 il? Bu 22 il ərzində Siz müharibə şəraitində idiniz.

**Prezident İlham Əliyev:** Daha da çox.

**Prezident Donald Tramp:** Bundan da çox?

**Prezident İlham Əliyev:** 30 ildən artıq. Siz möcüzə yaratdınız, cənab Prezident. Təşəkkür edirəm.

**Prezident Donald Tramp:** Mən bir neçə dost qazandım. Təşəkkür edirəm. Çox gözəl oldu. Bu gün Yaxın Şərq ölkələrinin liderləri ilə gözəl bir görüş keçirdik. Onlar möhtəşəm insanlardır və mənim dostlarımdır. Biz onları bir araya gətirməli və həmin müharibəyə tez bir zamanda son qoymalıyıq. Bunu tez etmək istəyirik və məncə, biz həqiqətən yaxşı bir plan hazırlamışıq. Məncə, o, tez həyata keçirilə bilər.

Bilmirəm, bunu Sizin planınız qədər tez həyata keçirə biləcəyik ya yox. Bütün bu illər ərzində buna cəsarət lazım idi. Bu, həqiqətən Sizin və yeni dostunuzun sayəsindədir. Həqiqətən yaxşıdır. Necə gedir işlər? Yaxşıdır? Atışma yoxdur? Heç nə yoxdur?

**Prezident İlham Əliyev:** Xeyr, xeyr. Hər şey tamamilə bitib. Avqustun 8-də buna son qoyuldu.

**Prezident Donald Tramp:** Mən Sizinlə həqiqətən fəxr edirəm. Siz çox gözəl insansınız.

Mən bu zalda olan bəziləriniz ilə görüşmüşəm, bir çoxunuzu yaxşı tanıyıram. Siz möhtəşəm insanlarsınız. Siz ən yüksək səviyyəli liderlərsiniz. Sizin gördüyünüz işlər möhtəşəmdir. Düşünün, ölkələrinizin milyonlarla əhalisi var və siz bu ölkələrə uğurla rəhbərlik edirsiniz, dünya miqyasında liderlik edirsiniz. Məhz buna görə də buradasınız. Sadəcə demək istəyirəm ki, sizinlə bir yerdə olmaq mənim üçün şərəfdir. Sizinlə əl sıxmağı səbirsizliklə gözləyirəm. Birlikdə bu işlərdən zövq alacağıq. Biz dinc dünyada yaşayacağıq.

**Birinci xanım Melaniya Tramp:** Mən bu gün günorta "Gələcəyi birlikdə qurmaq" adlı möhtəşəm təşəbbüsə ev sahibliyi etdim. Ümid edirəm ki, bütün birinci xanımlar və həyat yoldaşları gələn il birinci rübdə Ağ Evdə mənə qoşulacaqlar və dünyadakı uşaqlar üçün uğur qazanacağıq. Təşəkkür edirəm.

## "Konstitusiya və Suverenlik İli": qalibiyyətin təntənəsi



Səhifə ⇨ 8

## Zəngəzur dəhlizi: Reallıqlar hansı perspektivi vəd edir?




Səhifə ⇨ 7

## Nyu-Yorkda Orta Dəhliz müzakirələri



Səhifə ⇨ 11

## BMT-də islahat zərurəti etiraf olunur



Səhifə ⇨ 9

## Tomas de Vaal: Azərbaycan Cənubi Qafqazda dominant oyunçudur




Səhifə ⇨ 5

## Azərbaycan–İran: qonşuluqdan güc alan əməkdaşlıq



Səhifə ⇨ 6

## TRIPP marşrutu və Orta Dəhlizin qlobal əhəmiyyəti

### *Avrasiya məkanında yeni tranzit fəlsəfəsi, enerji inteqrasiyası və geosiyasi çağırışlar*

**2025-ci ilin 8 avqustunda Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Azərbaycan və Ermənistan arasında imzalanmış birgə bəyannamə regionun geoiqtisadi mənzərəsini dəyişə biləcək strateji yeniliyi gündəmə gətirdi. "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) adlanan bu yeni layihə Naxçıvanla Azərbaycanın əsas hissəsini birləşdirməklə yanaşı, Orta Dəhlizin mühüm seqmentinə çevrilmək potensialına malikdir. Prezident İlham Əliyevin VI Xəzər Biznes Forumuna müraciətində vurğulandığı kimi, TRIPP enerji, rəqəmsal infrastruktur və regional inteqrasiyanı irəli aparacaq çoxşaxəli strateji platformadır.**

Orta Dəhliz artıq on ildən çoxdur ki, Avrasiya məkanında Şərqlə Qərbi birləşdirən ən real alternativ nəqliyyat xətti kimi nəzərdən keçirilir. Lakin onun tam potensialı yalnız ayrı-ayrı seqmentlərin tamamlanması və strateji siyasi iradənin göstərilməsi nəticəsində ortaya çıxır. TRIPP-in ortaya çıxması məhz bu məntiqlə Orta Dəhlizin funksional dəyərini yüksəldən mühüm mərhələ kimi qəbul olunmalıdır. Əgər indiyədək dəhliz əsasən Çin–Mərkəzi Asiya–Xəzər–Cənubi Qafqaz–Türkiyə–Avropa marşrutu çərçivəsində nəzərdə tutulurdusa, Naxçıvan xəttinin əlavə edilməsi həm simvolik, həm də praktiki baxımdan tamamilə yeni geosiyasi məna kəsb edir. Simvolik məna ondan ibarətdir ki, Azərbaycan uzun illər blokadada qalmış Naxçıvanı Orta Dəhlizin ayrılmaz parçasına çevirir. Bu addım yalnız milli təhlükəsizlik baxımından vacib deyil, həm də siyasi mesaj xarakteri daşıyır. Azərbaycan faktiki olaraq göstərir ki, regiondakı yeni nəqliyyat reallığı onun təşəbbüsləri əsasında formalaşır və




bu prosesdə siyasi diqtə yox, qarşılıqlı fayda prinsipinə əsaslanan əməkdaşlıq üstün tutulur. Praktiki baxımdan isə TRIPP marşrutu Orta Dəhlizin logistikasına çeviklik gətirir. Əlavə yol seqmenti yüklərin alternativ istiqamət üzrə daşınmasına imkan yaradır, bu isə həm tranzit vaxtını qısaldır, həm də marşrutun dayanıqlığını gücləndirir. Qlobal təchizat zəncirlərində etibarlılıq və sabitlik amili əsas meyar hesab olunduğundan, TRIPP-in açılması Orta Dəhlizin beynəlxalq reytinqini yüksəldir və onu digər tranzit alternativləri, o cümlədən, Rusiya üzərindən keçən Şimal marşrutu ilə rəqabətdə üstün mövqeyə çıxarır.

*(ardı 5-ci səhifədə)*

# İlham Əliyev ABŞ Ticarət Palatasının baş vitse-prezidentini qəbul edib



**Sentyabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Nyu-Yorkda ABŞ Ticarət Palatasının baş vitse-prezidenti Kuş Çoksi ilə görüşü olub.**

Söhbət zamanı Azərbaycanla ABŞ arasında münasibətlərin strateji tərəfdaşlıq müstəvisinə qalxması, hazırda iqtisadi-ticari əlaqələrimizin genişləndirilməsi üçün böyük imkanların olduğu bildirildi.

Azərbaycanla Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında imzalanmış Anlaşma Memorandumundan irəli gələn enerji, bağlantılar, süni intellekt və digər sahələrdə əməkdaşlığa dair müzakirələr aparıldı.

Azərbaycanın və ABŞ-ın biznes dairələri arasında birbaşa əlaqələrin yaradılmasının və biznes nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin təşkilinin vacibliyinə toxunuldu, turizm sahəsində əməkdaşlığın inkişafı üçün böyük potensialın olduğu qeyd edildi.

Kuş Çoksi biznes imkanlarının dəyərləndirilməsi üçün geniştərkibli heyətlə tezliklə Azərbaycana səfər etmək niyyətində olduğunu bildirdi.

# Azərbaycan liderinin Bolqarıstan Baş naziri ilə dialoqu



**Sentyabrın 24-də Nyu-Yorkda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasının Baş naziri Rosen Jelyazkov ilə görüşü olub.**

Baş nazir Rosen Jelyazkov Azərbaycanla Bolqarıstan arasında siyasi əlaqələrin mükəmməl səviyyədə olduğunu dedi.

Prezident İlham Əliyev də öz növbəsində münasibətlərimizin ənənəvi dostluq və tərəfdaşlıq xarakteri daşıdığını qeyd etdi.

Söhbət zamanı enerji sahəsində hazırkı uğurlu əməkdaşlığımızdan məmnunluq ifadə edildi, bu sahədə əlaqələrin inkişafı üçün yeni perspektivlərin olduğu bildirildi.

Görüşdə Azərbaycanla Bolqarıstan arasında müxtəlif sahələrdə əlaqələrin inkişafına dair fikir mübadiləsi aparıldı.

# Prezident İlham Əliyevin "Franklin Templeton" şirkətinin baş icraçı direktoru və prezidenti ilə görüşü



**Sentyabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nyu-Yorkda dünyanın ən iri və nüfuzlu qlobal investisiya menecerlərindən biri olan "Franklin Templeton" şirkətinin baş icraçı direktoru və prezidenti Cenni Conson ilə görüşüb.**

Görüşdə qlobal investisiya mühiti, inkişaf etməkdə olan ölkələrin kapital bazarlarına çıxış imkanları və beynəlxalq tərəfdaşlıqların iqtisadi transformasiyada rolu ətrafında fikir mübadiləsi aparılıb.

Söhbət zamanı Azərbaycanla bu şirkət arasında əməkdaşlığın gələcək istiqamətləri müzakirə olunub.

Cenni Conson ölkəmizin son illərdə həyata keçirdiyi iqtisadi layihələrin və inkişaf istiqamətində gördüyü tədbirlərin beynəlxalq kapital üçün mühüm imkanlar yaratdığını bildirdi. O, həmçinin Azərbaycanda investorlar üçün formalaşmış sabit və əlverişli mühiti yüksək qiymətləndirərək, bunun uzunmüddətli tərəfdaşlığa möhkəm zəmin yaratdığını qeyd etdi.

Görüşdə "Franklin Templeton"un kapital bazarları, infrastruktur, daşınmaz əmlak və bərpaolunan enerji sahələrində çoxillik və uğurlu təcrübəsinin Azərbaycanın iqtisadi və maliyyə, həmçinin yaşıl gündəliyinin icrasına töhfə verə biləcəyi vurğulandı.

Prezident İlham Əliyev şirkətin Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə sıx əməkdaşlığına toxunaraq, mövcud tərəfdaşlığın ölkəmizin kapital bazarlarının dərinləşdirilməsi, regionun investisiya potensialının gücləndirilməsi və dayanıqlı inkişafı baxımından da mühüm əhəmiyyət daşıdığını dedi. Dövlətimizin başçısı bu şirkətin alternativ investisiya sahəsindəki təcrübəsinin və xüsusilə region ölkələrində həyata keçirdiyi uğurlu layihələrin əhəmiyyətinə toxunaraq, bu xüsusda geniş qarşılıqlı əməkdaşlıq imkanlarının olduğunu vurğuladı.

Qeyd edək ki, 1947-ci ildə ABŞ-da təsis edilən "Franklin Templeton" hazırda təxminən 1,6 trilyon ABŞ dolları həcmində aktivləri idarə edir. Şirkətin 30-dan çox ölkədə 70-ə yaxın ofisi var və 170-dən çox ölkədə 1000-dən artıq müştərək fond və genişçeşidli investisiya məhsullarını idarə edir.

# Azərbaycan və Portuqaliya prezidentlərinin görüşü



**Sentyabrın 24-də Nyu-Yorkda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Portuqaliya Respublikasının Prezidenti Marselo Rebelo de Souza ilə görüşüb.**

Portuqaliya Prezidenti, ilk növbədə, dövlətimizin başçısına Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması və sülh gündəliyinin irəli aparılması ilə bağlı Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın şahidliyi ilə əldə olunmuş nailiyyətlər münasibətilə təbriklərini çatdırdı.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirdi. Vaşinqtonda keçirilmiş Zirvə toplantısının tarixi əhəmiyyət kəsb etdiyini deyən dövlətimizin başçısı Azərbaycanın regionda sülh gündəliyinin təşəbbüskarı olduğunu bildirərək, ölkəmizin bundan sonra da bölgədə sülhün gücləndirilməsi üçün səylərini davam etdirəcəyini vurğuladı.

Görüşdə Azərbaycanla Portuqaliya arasında müxtəlif sahələrdə əlaqələrin inkişafının, siyasi məsləhətləşmələrin davam etdirilməsinin və nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin əhəmiyyəti qeyd olundu, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə toxunuldu.

# "Ares Management" şirkəti Azərbaycanla əməkdaşlığı yüksək qiymətləndirir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Nyu-Yorkda "Ares Management" qlobal investisiya şirkətinin həmtəsisçisi və baş icraçı direktoru Maykl Aruqeti ilə görüşüb.**

Söhbət zamanı Azərbaycanın maliyyə bazarının dayanıqlı inkişafı və ölkəyə xarici investisiya axınının təşviqi baxımından "Ares Management" şirkəti ilə əməkdaşlığın əhəmiyyətinə toxunuldu.

Prezident İlham Əliyev bu istiqamətdə qurulmuş tərəfdaşlıqların, xüsusilə də alternativ investisiya sahəsində birgə təşəbbüslərin ölkəmizin iqtisadi hədəflərinə töhfə verə biləcəyini qeyd etdi.

Görüşdə Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə "Ares Management" arasında 2017-ci ildən mövcud olan uğurlu əməkdaşlığın genişləndirilməsi imkanları, həmçinin dayanıqlı infrastruktur, logistika, daşınmaz əmlak, təhsil və yaşıl enerji sahələrində gələcək investisiya layihələrinin həyata keçirilməsi ilə bağlı potensial müzakirə olundu.

Maykl Aruqeti Azərbaycanın davamlı inkişaf siyasətini və ölkəmizdə institusional investorlara yaradılmış əlverişli mühiti yüksək qiymətləndirərək, bunun beynəlxalq tərəfdaşlıqlar üçün geniş imkanlar açdığını bildirdi. O, rəhbərlik etdiyi şirkətin xüsusilə yaşıl enerji, logistika və sosial infrastruktur sahələrində Azərbaycanla əməkdaşlığı genişləndirməkdə maraqlı olduğunu diqqətə çatdırdı.

Qeyd edək ki, "Ares Management" kredit, daşınmaz əmlak, özəl səhm və infrastruktur sahələrində fəaliyyət göstərir. Maykl Aruqeti və tərəfdaşlarının 1997-ci ildə təsis etdiyi şirkət hazırda 600 milyard ABŞ dollarına yaxın aktivləri idarə edir. "Ares Management" portfelindəki anbar və logistika investisiya aktivlərinin toplam sahəsinə görə dünyanın ən böyük 3 şirkətindən biridir.

# Prezident İlham Əliyevin "Global Infrastructure Partners" şirkətinin təsisçisi, sədri və baş icraçı direktoru ilə görüşü



**Sentyabrın 24-də Nyu-Yorkda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qlobal infrastruktur investisiya idarəetmə şirkəti "Global Infrastructure Partners"in təsisçisi, sədri və baş icraçı direktoru Adebayo Oqunlesi ilə görüşü olub.**

Görüşdə infrastruktur sahəsində beynəlxalq tərəfdaşlıq imkanları və bu sahəyə yönələn birgə investisiyaların regional iqtisadi əlaqələrin genişləndirilməsində rolu müzakirə edilib.

Prezident İlham Əliyev 2024-cü ildən Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə bu şirkət arasında qurulan uğurlu tərəfdaşlığı vurğulayaraq, xüsusilə İtaliyanın aparıcı sürətli dəmir yolu operatoru "Italo"-ya yatırılan birgə sərmayəni səmərəli əməkdaşlığın nümunəsi kimi qiymətləndirdi. Dövlətimizin başçısı, həmçinin şirkətin hava limanlarının idarə olunması, enerji keçidi və süni intellekt infrastrukturu kimi sahələrdə təcrübəsinin gələcək əməkdaşlıq üçün böyük imkanlar açdığını dedi.

Adebayo Oqunlesi Azərbaycanın strateji coğrafi mövqeyinin və dayanıqlı inkişaf prioritetlərinin infrastruktur sahəsində uzunmüddətli investisiyalar üçün mühüm imkanlar yaratdığını vurğuladı. O, rəhbərlik etdiyi şirkətin enerji keçidi, nəqliyyat və rəqəmsal infrastruktur sahələrində Azərbaycanla əməkdaşlığı dərinləşdirməkdə maraqlı olduğunu bildirdi.

Qeyd edək ki, "Global Infrastructure Partners" şirkəti 2006-cı ildə ABŞ-da təsis edilib. Hazırda təxminən 170 milyard ABŞ dolları məbləğində aktivləri idarə edən şirkətin Nyu-York, London, Sinqapur, Sidney və digər qlobal maliyyə mərkəzlərində ofisləri fəaliyyət göstərir. "Global Infrastructure Partners"in nəzarət etdiyi bərpaolunan enerji sahəsindəki şirkət ABŞ-da bu sahədə aparıcı şirkətlərdən biridir.

***AZƏRTAC***

# “Statistikanın inkişaf perspektivləri: beynəlxalq layihələrin rolu” mövzusunda Beynəlxalq Statistika Forumunun iştirakçılarına

**Hörmətli Forum iştirakçıları!**

Sizi Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində keçirilən “Statistikanın inkişaf perspektivləri: beynəlxalq layihələrin rolu” mövzusunda Beynəlxalq Statistika Forumunun öz işinə başlaması münasibətilə salamlayır, hər birinizə ən xoş arzularımı çatdırıram.

Məmnuniyyətlə vurğulamaq istəyirəm ki, bu mötəbər tədbir milli statistika sistemlərinin inkişafı, qlobal statistik təşəbbüslərə inteqrasiya və beynəlxalq əməkdaşlığın dərinləşdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Hesab edirəm ki, Forum çərçivəsində müxtəlif ölkələrin statistika qurumlarının, beynəlxalq təşkilatların, elmi dairələrin nümayəndələrinin bir araya gəlməsi statistika sahəsində qabaqcıl bilik və təcrübələrin bölüşülməsi, eləcə də birgə layihələrin təşviqi üçün əlverişli mühit yaradacaqdır.

Müasir dövrdə statistika cəmiyyətin tərəqqisini, dövlət siyasətinin effektivliyini və qlobal çağırışlara cavabvermə qabiliyyətini qiymətləndirmək üçün öz əhəmiyyətini daha da artıraraq mühüm vasitələrdən birinə çevrilmişdir. Etibarlı statistik məlumatlar dayanıqlı inkişafın təmin olunmasında, əsaslandırılmış qərarların qəbulunda və şəffaf idarəetmənin qurulmasında böyük rol oynayır. Bu səbəbdən, Beynəlxalq Statistika Forumu metodoloji yeniliklərin təqdim edilməsi və çoxtərəfli əməkdaşlıq imkanlarının genişləndirilməsi baxımından universal bir platforma kimi çıxış edir.

Bu gün Azərbaycanda milli statistika sistemi ardıcıl şəkildə inkişaf etdirilir, rəsmi statistik məlumatların beynəlxalq standartlara uyğun, innovativ yanaşmalar əsasında istehsalı daim diqqət mərkəzində saxlanılır. Eyni zamanda, süni intellekt kimi müasir çağırışlar statistika sahəsində yeni metodologiyaların, alət və yanaşmaların işlənib hazırlanmasını, gələcək hədəflərin düzgün müəyyənləşdirilməsini zəruri edir. Bu hədəflərin reallaşdırılması üçün isə effektiv beynəlxalq əməkdaşlıq və onun imkanlarının düzgün dəyərləndirilməsi vacibdir. Biz rəsmi statistika sahəsində müasir texnologiyalara, süni intellektə və rəqəmsal transformasiyaya əsaslanan islahatlara xüsusi önəm veririk. Ölkəmiz bu istiqamətdə aparıcı dövlətlərlə və beynəlxalq təşkilatlarla fəal əməkdaşlıq edərək qlobal inkişaf gündəliyinə töhfə verməyə səy göstərir.

Bildiyiniz kimi, BMT-nin Statistika Komissiyasının qərarı ilə bu il oktyabrın 20-də “Hər kəs üçün keyfiyyətli statistika ilə inkişafa təkan verək” şüarı altında Ümumdünya Statistika Günü qeyd ediləcəkdir. Əminəm ki, həmin əlamətdar gün ərəfəsində baş tutan Forum statistika cəmiyyətinin bir araya gələrək gələcəyə yönələn önəmli təşəbbüslər irəli sürəcəyi, qarşılıqlı bilik və təcrübə mübadiləsi aparacağı məhsuldar müzakirələrlə yadda qalacaqdır.

Hər birinizi qarşıdan gələn Ümumdünya Statistika Günü münasibətilə təbrik edir, Forumun işinə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 sentyabr 2025-ci il**

# Birinci xanım Mehriban Əliyeva BMT Baş Assambleyası çərçivəsində xüsusi sessiyada iştirak edib

**Sentyabrın 24-də Nyu-Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyası çərçivəsində “Xərçəngdən və digər ağır xəstəliklərdən əziyyət çəkən uşaqların həyatda qalması və əzablarının azaldılması üzrə qlobal hərəkat” (Global Movement to Improve Survival and Reduce Suffering for Children with Cancer and Other Catastrophic Diseases) adlı xüsusi sessiya təşkil olunub.**

Özbəkistan Respublikası və Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən təşkil olunan tədbirdə Azərbaycanın birinci xanımı Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva iştirak ediblər.

Əvvəlcə birgə foto çəkdirildi.








Tədbirin təşkilatçılarından olan Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva və Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesus xüsusi sessiyada gündəliyə çıxarılan mövzunun bu gün bütün dünyadakı aktuallığından danışdılar.

Türkiyənin birinci xanımı Əminə Ərdoğan və digər çıxışçılar da mövzu ilə bağlı fikirlərini bölüşdülər.

Qeyd edildi ki, sessiyanın təşkilindən əsas məqsəd dünya ictimaiyyətinin diqqətini bu qlobal problemə yönəltmək, onun nə dərəcədə təhlükəli olduğunu xatırlatmaqdır. Problemin aktuallığı ildən-ilə artır. Statistikaya əsasən, hər il dünyada təxminən 200 min uşaq xərçəng xəstəliyinə tutulur və onların yarısı dünyasını dəyişir.

Tədbir panel iclaslarla davam edib.

# Nyu-Yorkda Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə tədbir keçirilib



**ABŞ-ın Nyu-York şəhərində BMT Baş Assambleyasının 80-ci sessiyası çərçivəsində Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə “Çoxtərəflilik yolayrıcında: Çağırışlar və sülhə gedən yol” adlı yan tədbir keçirilib.**



Açılış öncəsi tədbir iştirakçılarının qrup fotosu çəkilib. Daha sonra mərkəzin həmsədri Vayra Vike-Frayberqa çıxış edib. O bildirib ki, BMT Baş Assambleyasının sessiyası dünyada çoxsaylı münaqişələrin baş verdiyi bir dövrdə keçirilir və çoxtərəflilik həqiqətən yolayrıcındadır. O, təşkilatın xüsusilə son dövrlərdə Ukrayna və Qəzza məsələsi ilə bağlı sərt tənqidlərlə üzləşdiyini deyib. Daha sonra çıxış edən Albaniya Prezidenti Bayram Beqay bildirib ki, çoxtərəflilik böyük və kiçik, varlı və kasıb dövlətlərə bir masa arxasında əyləşməyə imkan verib, sülhyaratma, humanitar yardım, iqlim dəyişikliyi və ataşkəs kimi qlobal çağırışlara keyfiyyətli cavab üçün çərçivə yaradıb. Albaniya Prezidenti ABŞ-da Ermənistanla əldə olunmuş razılaşmaya görə Azərbaycana təşəkkür edib.

COP29-un Prezidenti Muxtar Babayev çıxışında ötən il Azərbaycanda keçirilən COP29-un çoxtərəfliliyin real və tarixi nəticələr verməyə qadir olduğunu nümayiş etdirdiyini bildirib. O deyib ki, COP29-da danışıqçıların üzərində təxminən on ildir müzakirələr apardığı məsələlər üzrə sövdələşmələr əldə olunub.

Tədbirdə çıxış edən Bosniya və Herseqovina Prezidentliyinin sədri Jelko Komçiş, Monteneqro Prezidenti Yakob Milatoviç, ÜST-nin Baş direktoru Tedros Adhanom Qebreyesus, Birləşmiş Krallığın keçmiş Baş naziri Qordon Braun, Bolqarıstanın Baş naziri Rosen Jelyazkov, Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım və digər qonaqlar çoxtərəfliliyin qarşılaşdığı çətinliklər, BMT-də islahatların zəruriliyi, dünyada sülhün və sabitliyin təmin olunması istiqamətində atılmalı addımlar, birgə fəaliyyət, iqlim böhranı ilə mübarizə barədə danışıblar. O cümlədən tədbirdə Avropa ilə Asiya arasında bağlantı, region ölkələrinin bu istiqamətdə rolu və layihələrin insanların rifahına təsirinə toxunulub.

Tədbir çərçivəsində qlobal liderlərin, siyasətçi və ekspertlərin iştirakı ilə “Çoxtərəfliliyin bu günü: çağırışlar və imkanlar”, “Fərqin aradan qaldırılması: Çoxtərəfli səylərdə qlobal bərabərsizliklə mübarizə”, “İqlim dəyişiklikləri və qlobal mübarizə”, “Geosiyasi gərginliklər və onların çoxtərəfliliyə təsirləri” mövzusunda panel müzakirələri keçirilib.

# Serbiya Milli Assambleyasının sədri Milli Məclisdə



**Sentyabrın 24-də Milli Məclisin sədri Sahibə Qafarova və ölkəmizdə səfərdə olan Serbiya Milli Assambleyasının sədri Ana Brnabiç arasında geniş tərkibdə görüş olub.**

Milli Məclisin sədri dost və strateji tərəfdaş olan ölkələrimiz arasında ali və yüksəksəviyyəli qarşılıqlı səfərlərin mühüm rolunu qeyd edib. O, bu kontekstdə Prezident İlham Əliyevin və Prezident Aleksandar Vuçiçin qarşılıqlı səfərlərinin, görüşlərinin və bu səfərlər zamanı imzalanmış sənədlərin önəmini diqqətə çatdırıb.

Sahibə Qafarova parlamentlərarası əlaqələrin inkişafında qarşılıqlı dostluq qruplarının rolunu vurğulayıb, beynəlxalq parlament təşkilatları çərçivəsində əməkdaşlıqdan məmnunluğunu bildirib və parlament komitələri arasında əməkdaşlığın yaradılması imkanlarından danışıb.

Ana Brnabiç ölkəmizdə şahidi olduğu inkişaf və qazanılan nailiyyətlərlə əlaqədar təbriklərini çatdırıb. O qeyd edib ki, Azərbaycan Serbiya üçün dost və müttəfiq ölkədir və biz bir-birimizi dəstəkləməkdən qürur duyuruq. O, ərazi bütövlüyü məsələsində Azərbaycanın göstərdiyi dəstəyə görə təşəkkürünü ifadə edib.

Milli Assambleya sədri ölkələrimiz arasında iqtisadi sahədə mövcud olan münasibətlərin, o cümlədən enerji sektorunda əməkdaşlığın önəmini qeyd edib. O, enerji təhlükəsizliyinin hər bir ölkənin milli təhlükəsizliyinin tərkib hissəsi olduğunu vurğulayaraq, bu istiqamətdə Azərbaycanın dəstəyinə görə təşəkkürünü bildirib.

*

Milli Məclisin sədri Sahibə Qafarova və Serbiya Milli Assambleyasının sədri Ana Brnabiç ikitərəfli görüşdən sonra mətbuata bəyanatla çıxış ediblər.

S.Qafarova Milli Assambleya sədrinin səfərini ölkələrimiz və parlamentlərimiz arasındakı əlaqələrin yüksək səviyyədə olmasının göstəricisi adlandırıb. O qeyd edib ki, Prezident İlham Əliyevin və Prezident Aleksandar Vuçiçin qarşılıqlı səfərləri, müntəzəm görüşləri, dostluq münasibətləri ikitərəfli və çoxtərəfli əlaqələrimizin inkişafında xüsusi rola malikdir. Bu gün ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq etdiklərini, qarşılıqlı dəstək və həmrəylik nümayiş etdirdiklərini qeyd edib.

Ana Brnabiç ölkələrimiz arasında münasibətlərin inkişafına uyğun olaraq, parlamentlərimiz arasında da əlaqələrin genişlənməsindən məmnunluğunu bildirib. O, Azərbaycan-Serbiya parlamentlərarası münasibətlərin mükəmməl səviyyədə olduğunu, bu səfərin münasibətlərin daha da dərinləşməsinə töhfə verəcəyinə inamını ifadə edib.

Ana Brnabiç, həmçinin Azərbaycanın dünyada ən etibarlı enerji təchizatçılarından biri olduğunu vurğulayaraq, deyib ki, Serbiya enerji sahəsində Azərbaycanla əməkdaşlığın genişləndirilməsində maraqlıdır. Onun sözlərinə görə, son 5 ildə Azərbaycan-Serbiya münasibətləri intensivləşib.

# Serbiya Milli Assambleyasının sədri Ulu öndərin məzarını və Şəhidlər xiyabanını ziyarət edib

**Azərbaycanda rəsmi səfərdə olan Serbiya Respublikası Milli Assambleyasının sədri Ana Brnabiçin rəhbərlik etdiyi nümayəndə heyəti sentyabrın 24-də Fəxri xiyabanda xalqımızın Ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.**

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı önünə gül dəstələri düzülüb.

Sonra qonaqlar Şəhidlər xiyabanına gələrək ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Azərbaycan övladlarının xatirəsinə hörmət və ehtiramlarını bildirib, “Əbədi məşəl” abidəsinin önünə əklil qoyublar.



# Baş nazirin Serbiya Milli Assambleyasının sədri ilə görüşü



Sentyabrın 24-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ölkəmizdə rəsmi səfərdə olan Serbiya Respublikası Milli Assambleyasının sədri Ana Brnabiç ilə görüşüb.

Görüşdə Azərbaycan-Serbiya strateji tərəfdaşlıq münasibətlərinin inkişafından məmnunluq ifadə olunub.

Azərbaycan ilə Serbiya arasında fəal siyasi dialoqun qurulduğu qeyd edilib, hər iki ölkənin beynəlxalq təşkilatlar çərçivəsində, xüsusən də ərazi bütövlüyü və suverenlik məsələlərində hər zaman bir-birini dəstəklədiyi bildirilib.

Parlamentlərarası əməkdaşlığın dövlətlərarası münasibətlərin inkişafında rolu təqdir edilib. İki ölkə arasında həm ikitərəfli əsasda, həm də beynəlxalq parlament platformaları çərçivəsində səmərəli əməkdaşlığın həyata keçirildiyi vurğulanıb.

Görüş zamanı Azərbaycan ilə Serbiya arasında ticarət-iqtisadi, investisiya, neft-qaz, yaşıl enerji, nəqliyyat, humanitar və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olunub.

*XQ*

# Baş nazirin müavini Təbriz və Culfada

**Azərbaycan Respublikası Baş nazirinin müavini, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının Azərbaycan tərəfindən sədri Şahin Mustafayev İrana səfəri çərçivəsində Şərqi Azərbaycan vilayətinin mərkəzi Təbriz və Culfa şəhərlərində olub, vilayətin valisi Bəhram Sərmətslə görüşüb.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən bildirilib ki, görüşdə vilayətin Azərbaycan-İran əlaqələrində mühüm rolu vurğulanıb və Azərbaycanın regionları ilə iqtisadi-ticari əməkdaşlığının genişləndirilməsinin əhəmiyyəti qeyd olunub.

Baş nazirin müavini Şahin Mustafayev vilayətə səfəri çərçivəsində İran İslam Respublikasının yol və şəhərsalma naziri, Dövlət Komissiyasının İran tərəfindən sədri Fərzanə Sadeqlə birgə Araz dəhlizi üzrə həyata keçirilən Ağbənd–Kələlə körpüsünə, Culfa–Kələlə yoluna da baş çəkərək, körpünün tikintisi və yolun genişləndirilməsinin icra vəziyyəti ilə yerində tanış olub. Səfər çərçivəsində, həmçinin tikilməsi nəzərdə tutulan Ordubad-Siyahrud körpüsünün yerləşmə nöqtəsi üzrə mövcud imkanlar müzakirə edilib və yerləşmə ərazisinə baxış keçirilib.

*XQ*

# Azərbaycan Afrikaya iqlim dəstəyi göstərəcək




**BMT-nin Baş Qərargahında COP29 Sədrliyi və Beynəlxalq Miqrasiya Təşkilatının təşəbbüsü ilə "Bakı Mərkəzi Tərəfdaşlığı: Münaqişələrdən zərər çəkən və həssas ölkələr üçün innovativ həllər" mövzusunda yüksəksəviyyəli görüş keçirilib.**

Toplantıda onlarla hökumət üzvü, BMT qurumlarının rəhbərləri və beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər.

Açılış mərasimində COP29-un Prezidenti Muxtar Babayev, İtaliya Beynəlxalq İnkişaf Agentliyinin icraçı direktoru Marko Ruskoni, BMT Baş katibinin Afrika üzrə nümayəndəsi Parfayt Onyanga və Beynəlxalq Miqrasiya Təşkilatının icraçı direktorunun müavini Uqoçi Daniels çıxış edərək bildiriblər ki, Azərbaycanın təşəbbüsü ilə təsis olunan Bakı Mərkəzi artıq qlobal iqlim diplomatiyasında yeni bir istiqamət açır.

Çad, Qvineya-Bisau, Somali və Uqandanın ətraf mühit nazirləri ölkələrində təxirəsalınmaz layihələrin həyata keçirilməsi üçün Bakı Mərkəzinin qurduğu tərəfdaşlıqdan söz açaraq, iqlim diplomatiyası sahəsində bölüşdüyü təcrübə üçün Azərbaycana təşəkkürlərini bildiriblər.

Bakı Mərkəzinin növbəti planları haqqında danışan Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Elşad İskəndərov diqqətə çatdırıb ki, Mərkəz qeyd olunan ölkələrdə layihələrin həyata keçirilməsinin praktiki mərhələsinə başlayır. Bu məqsədlə tədbirdə Çad və Qvineya-Bisau ilə Bakı Mərkəzi arasında Birgə İşçi Qruplarının yaradılmasına dair Memorandum təsdiqlənib.

Daha bir neçə ölkə Bakı Mərkəzi tərəfdaşlığına qatılmaq niyyətlərini elan ediblər.

*XQ*

# Azərbaycanın Beynəlxalq Nəqliyyat Forumuna sədrliyinin prioritetləri





**Sentyabrın 23-də Beynəlxalq Nəqliyyat Forumunun (BNF) Parisdə illik səfirlər toplantısı keçirilib.**

Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva ölkəmizin 2025-2026-cı illər üzrə təşkilata prezidentliyinin nümayəndəsi qismində tədbirdə iştirak edib. Diplomat çıxışında əsas diqqəti ölkəmizin bu önəmli beynəlxalq nəqliyyat platformasındakı sədrliyinin prioritet istiqamətlərinə yönəldib.

Diqqətə çatdırılıb ki, Azərbaycan hazırda qlobal nəqliyyat ictimaiyyətinin önəmli tərəfdaşı qismində həm regional, həm də beynəlxalq miqyasda nəqliyyat şərtlərinin daha da yaxşılaşdırılması, bu sahədə mövcud çağırışların qarşısının alınması üçün bütün imkanları dəyərləndirir.

Ölkəmizin Beynəlxalq Nəqliyyat Forumuna prezidentliyi dövründə strateji nəqliyyat dəhlizlərinin inteqrasiyası vasitəsilə beynəlxalq nəqliyyat bağlantılarının daha da gücləndirilməsi istiqamətində çalışacağı qeyd edilib. Bu xüsusda tədbir iştirakçılarına Şərqlə Qərbi birləşdirən, önəmli və etibarlı multimodal yol olan Orta Dəhlizin inkişafı üçün ölkəmiz tərəfindən görülən işlər barədə məlumat verilib. Vurğulanıb ki, Orta Dəhlizin potensialından tam istifadə yalnız qlobal nəqliyyatı deyil, ölkələr arasında ticarəti də asanlaşdıracaq. Bununla əlaqədar olaraq, Zəngəzur dəhlizinin (TRIPP) fəaliyyəti Çin ilə Avropa arasında mal mübadiləsinin inkişafına təkan verəcək.

Azərbaycanın BNF-yə prezidentliyi dövründə prioritetləri sırasında təşkilatın coğrafiyasının genişləndirilməsi, yeni üzvlərin foruma qoşulmasının təşviq edilməsi, həmçinin inklüziv ictimai nəqliyyat sisteminə malik şəhərlərə ağıllı keçid siyasətinin tətbiqi qeyd olunub. Bildirilib ki, Azərbaycanın Beynəlxalq Nəqliyyat Forumundakı prezidentliyi 2026-cı ilin may ayında keçiriləcək nazirlər görüşü ilə yekunlaşacaq. Bu yüksəksəviyyəli tədbirin nəticəsi olaraq beynəlxalq nəqliyyat bağlılığının rəqəmsallaşdırılması, eləcə də şəhər nəqliyyatının inkişafı istiqamətində sənədlərin qəbulu gözlənilir.

Qeyd edək ki, tədbirdə Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat nazirinin "Azərbaycanın BNF sədrliyinin ilk 100 günü" adlı məktubu iştirakçıların diqqətinə çatdırılıb.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ ADMİNİSTRASİYASININ VƏTƏNDAŞ QƏBULU MƏRKƏZİNDƏ

### 2025-ci ilin oktyabr ayında vətəndaşların qəbulu

**C Ə D V Ə L İ**

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | 1 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | 2 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | 9 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | 3 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | 6 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri** Seyidov Fərid Mirmufid oğlu | 7 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | 8 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | 9 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | 0 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | 3 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | 4 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | 5 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi** | 6 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 0 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 2 |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hüseynov Emin Zamin oğlu | 2 |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Yusubov Elçin Mustafa oğlu | 3 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | 4 |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Məmmədov Məsim Əhməd oğlu | 7 |
| **Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Kərimov Aydın Zöhrab oğlu | 8 |
| **Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Bəşir Qüdrət oğlu | 9 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | 3 |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Vahid Rasim oğlu | 3 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | 0 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev,79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi – 1111.**

# Bahar Muradova BMT-də serbiyalı həmkarı ilə görüşüb

**Nyu-Yorkda səfərdə olan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Serbiyanın Gender Bərabərliyi, Qadınlara qarşı Zorakılığın Qarşısının Alınması və Qadınların Gücləndirilməsi naziri Tatyana Makura ilə görüşüb.**



Bahar Muradova BMT-də gedən müzakirələrə toxunaraq bütün ölkələri birləşdirən dəyərin insanların həyatının yaxşılaşdırılması və xüsusilə sosial ölçüdə siyasət və təcrübələrin bölüşülməsi baxımından əhəmiyyətli olduğunu qeyd edib.

Tatyana Makura bu il paytaxt Belqradda qadınlar forumu keçirdiklərini deyərək gələn il tədbirin daha geniş miqyasda təşkil olunacağını vurğulayıb və Bahar Muradovanı tədbirə dəvət edib. Tatyana Makura, həmçinin qadınların iqtisadi gücləndirilməsinin ölkəsinin prioritet istiqamətlərindən olduğunu deyərək bu sahədə Azərbaycanın uğuru təcrübəsindən yararlanmaqda maraqlı olduqlarını dilə gətirib, bu baxımdan qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd edib.

*XQ*

# TRIPP marşrutu və Orta Dəhlizin qlobal əhəmiyyəti




(əvvəli 1-ci səhifədə)

Maraqlıdır: TRIPP marşrutu yalnız Azərbaycan üçün əhəmiyyətlidir, yoxsa bütün Orta Dəhlizin beynəlxalq dəyərini artırır? Əlbəttə, bu marşrut Azərbaycan üçün ilk növbədə daxili logistik maneəni aradan qaldırır və Naxçıvanla birbaşa əlaqəni təmin edir. Lakin məsələ bununla məhdudlaşmır. Gürcüstan və Türkiyə TRIPP vasitəsilə regiondaxili inteqrasiyanı gücləndirir, Mərkəzi Asiya dövlətləri isə yük axınını şaxələndirməklə geosiyasi riskləri minimuma endirmək imkanı əldə edirlər. Bütün bunlar həm də Avropa bazarlarının daha etibarlı enerji və logistika təminatı deməkdir. Deməli, TRIPP həm region ölkələri, həm də qlobal oyunçular üçün strateji dəyər daşıyır.

* * *

TRIPP marşrutu həm də geoiqtisadi mənada yeni mərhələni ifadə edir. Onun maliyyə və iqtisadi ölçüləri bir neçə paralel istiqamətdə nəzərdən keçirilə bilər. Əvvəla, yükdaşımaların həcminin artması nəticəsində tranzit gəlirləri həm Azərbaycanın, həm də region dövlətlərinin büdcəsinə əlavə dividendlər gətirəcək. Əgər indiyə qədər Orta Dəhlizin rəqabət qabiliyyətini əsasən Şimal və Cənub marşrutları ilə müqayisə etmək lazım gəlirdisə, TRIPP-in əlavə olunması həmin müqayisədə üstünlükləri açıq şəkildə artırır. Çünki əlavə yol şəbəkəsi logistik riskləri minimuma endirir, daşınma müddətini qısaldır və tranzit ölkələrin büdcə sabitliyinə töhfə verir.

Digər tərəfdən, TRIPP yalnız maliyyə gəlirləri ilə məhdudlaşmır, həm də regiona investisiya axınının gücləndirməsini stimullaşdırır. İnfrastruktur layihələri, avtomobil və dəmir yollarının modernləşdirilməsi, yeni körpü və tunellərin inşası beynəlxalq maliyyə institutları üçün konkret və perspektivli sərmayə obyektidir. Dünya Bankı, Asiya İnkişaf Bankı, Avropa İttifaqının müxtəlif fondları bu istiqamətdə strateji maraq göstərirlər. Çünki dəhliz həm də Avrasiya bazarlarının birləşməsi üçün mühüm geosiyasi arteriya kimi qəbul olunur.

Üçüncü mühüm aspekt isə biznes ekosisteminin formalaşması ilə bağlıdır. TRIPP boyunca sənaye parklarının, logistika mərkəzlərinin və xidmət sektorunun inkişafı gözlənilir. Beləliklə, TRIPP-in təsiri yalnız tranzit gəlirləri ilə ölçülməyəcək, həm də regional iqtisadiyyatların struktur dəyişikliklərinə səbəb olacaq.

Bəs, TRIPP maliyyə baxımından Orta Dəhlizi daha cazibədar edəcəkmi? Şübhəsiz ki, edəcək. Çünki əlavə marşrut dəhlizin risklərini azaldaraq yüklərin fasiləsiz keçidini təmin edir. Beynəlxalq investorlar risklərin daha az olduğu məkana üstünlük verdiklərindən, TRIPP Orta Dəhlizi həm maliyyə, həm də iqtisadi baxımdan daha etibarlı və perspektivli platformaya çevirir.

* * *

Prezident İlham Əliyevin VI Xəzər Biznes Forumunun iştirakçılarına müraciətində xüsusi vurğuladığı məqamlardan biri TRIPP-in təkcə nəqliyyat arteriyası kimi deyil, həm də enerji və rəqəmsal infrastruktur layihəsi kimi strateji əhəmiyyət daşımasıdır. Marşrutun enerji ölçüsü, ilk növbədə, bərpaolunan resursların ixracını hədəfləyir. Azərbaycan artıq günəş və külək enerjisi üzrə irimiqyaslı layihələr həyata keçirir, Xəzər dənizində külək potensialı Avropanın "yaşıl keçid" strategiyaları ilə uyğun gələn dəyərlər yaradır. TRIPP bu enerjinin regional bazarlarla yanaşı, Avropa istiqamətinə daşınması üçün yeni texniki imkanlar açır.

Layihənin digər mühüm tərəfi isə qaz və neft nəqli üçün alternativ kanal funksiyasıdır. Qlobal enerji bazarlarında qeyri-müəyyənliklərin artdığı bir dövrdə TRIPP enerji təhlükəsizliyini təmin etmək üçün əlavə zəmanət mexanizmi rolunu oynaya bilər. Bununla yanaşı, TRIPP yalnız enerji resurslarının daşınması ilə məhdudlaşmır. Rəqəmsal komponentin əlavə edilməsi TRIPP-i XXI əsrin yeni nəqliyyat fəlsəfəsinə uyğunlaşdırır, həm də məlumat və xidmətlərin qlobal mübadiləsinin bir hissəsinə çevirir.

TRIPP enerji marşrutu kimi hansı qlobal əhəmiyyətə sahib ola bilər? Aİ hazırda enerji təchizatında Rusiyadan asılılığı minimuma endirmək və yaşıl enerji keçidini sürətləndirmək üçün alternativ mənbələr axtarır. TRIPP bu mənada Xəzər dənizindəki bərpaolunan enerji layihələrinin Avropaya çıxışı üçün əlavə kanal rolunu oynaya bilər. Bu amil yalnız enerji təhlükəsizliyi deyil, həm də ekoloji dayanıqlıq baxımından Avropa üçün strateji dəyər kəsb edir. Rəqəmsal infrastrukturun inkişafı isə regionu "enerji və data habı" kimi mövqeləndirərək, həm fiziki, həm də virtual mübadilə məkanında əhəmiyyətli strateji körpü yaradır.

* * *

TRIPP layihəsinin reallaşması regionda siyasi dinamikanı dəyişmək gücünə malikdir. Bir tərəfdən bu marşrut əməkdaşlıq üçün yeni platforma yaradır, dövlətlərin qarşılıqlı maraqlar əsasında bir araya gəlməsini təşviq edir, digər tərəfdən isə geosiyasi balansın dəyişməsi mövcud rəqabətlərin kəskinləşməsinə səbəb ola bilər. Regional rəqabət kontekstində İran və Rusiya faktoru xüsusi yer tutur. Hər iki dövlət uzun illərdir ki, öz nəqliyyat dəhlizlərini – İran "Şimal–Cənub" xəttini, Rusiya isə "Transsibir" və Şimal marşrutlarını önə çıxarmağa çalışır. TRIPP-in ABŞ kimi Qərb gücünün dəstəyi ilə gündəmə gəlməsi bu ölkələrin maraqlarına meydan oxuya bilər. Rusiya üçün bu, Avrasiya məkanında təsir imkanlarının zəifləməsi deməkdirsə, İran üçün regional təcridin daha da dərinləşməsi ehtimalı yaranır.

Təhlükəsizlik aspekti də diqqətdən kənarda qalmır. TRIPP-in uğurlu və davamlı fəaliyyəti həm də siyasi sabitliklə bağlıdır. Ermənistan–Azərbaycan münasibətlərində real sülhün bərqərar olması marşrutun dayanıqlı istifadəsi üçün vacib şərtdir. Əgər bölgədə hərbi eskalasiyalar təkrarlansa, bu, TRIPP-in beynəlxalq yükdaşımalarında etibarlılıq amilini zəiflədə bilər.

Qlobal güc balansı baxımından isə TRIPP-in əhəmiyyəti daha geniş miqyasda ölçülür. ABŞ-ın layihəyə birbaşa şahidlik etməsi Qərbin Orta Dəhlizə marağını təsdiqləyir. Nəticədə, bu amil Avrasiya məkanında ABŞ–Çin rəqabətinə yeni çalar qatır. Çin "Bir kəmər, bir yol" təşəbbüsünün əsas hissəsi kimi Orta Dəhlizə strateji əhəmiyyət verir, lakin TRIPP-in Qərbin dəstəyi ilə formalaşması Pekinin bölgədəki təsirinə alternativ hesab oluna bilər. Paralel olaraq, ABŞ–Rusiya münasibətlərində də TRIPP-in strateji çəkisi artır, çünki bu marşrut Moskvanın dominant tranzit imkanlarını zəiflədə bilər.

Burada sual yaranır ki, TRIPP bölgədə sabitləşdirici, yoxsa yeni rəqabət mənbəyi ola bilər? Hər iki ehtimal mövcuddur. Əgər region ölkələri qarşılıqlı fayda prinsipinə üstünlük verərək layihəni ümumi inkişaf və inteqrasiya üçün istifadə etsələr, TRIPP sabitləşdirici faktor kimi çıxış edər. Bu halda o, əməkdaşlıq və iqtisadi qarşılıqlı asılılıq üzərindən sülhə xidmət edər. Lakin əks ssenaridə, yəni geosiyasi güclərin marşrutu öz ma-



raqları üçün instrumentalizasiyaya cəhd etməsi fonunda TRIPP bölgədə yeni rəqabət dalğalarının başlanğıc nöqtəsinə çevrilər.

Son olaraq qeyd edək ki, VI Xəzər Biznes Forumunun əsas mövzusu kimi "Orta Dəhliz boyunca: bağlantı, maliyyə və enerji" məhz TRIPP-in gündəmə gətirilməsi ilə yeni strateji kontekstə yüksəldi. Azərbaycan inteqrasiyanın təşəbbüskarı və qlobal təchizat zəncirlərinin mühüm aktoruna çevrilir. TRIPP Orta Dəhlizin sadəcə xəritə üzərindəki bir yol olmadığını, əslində isə Avrasiya məkanında sabitlik, enerji təhlükəsizliyi və rəqəmsal inteqrasiyanın mərkəzi dayağına çevrilə biləcəyini göstərir.

*✍ **Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Tomas de Vaal: Azərbaycan Cənubi Qafqazda dominant oyunçudur

## *İngilis ekspert Ağ Evin Qafqazda diplomatik təşəbbüsləri tam vaxtında göstərdiyini söyləyir*

**Amerika Karnegi Fondunun əməkdaşı, Cənubi Qafqaz məsələləri üzrə britaniyalı ekspert Tomas de Vaal Azərbaycanın media təmsilçilərinə yaxşı tanışdır. Ermənistan–Azərbaycan münaqişəsindən yazdığı "Qara bağ" kitabının müəllifi bu dəfə "Foreign Affairs" jurnalında geniş analitik məqalə ilə çıxış edib. Məqalənin ictimai maraq doğuran tərəflərini nəzərə alaraq, onun icmalını qısa ixtisarla oxuculara təqdim edirik.**

Tomas de Vaal məqalədə avqustun 8-də Ağ Evdə Azərbaycan və Ermənistan liderləri arasında imzalanmış Bəyannamənin region üçün həqiqətən tarixi əhəmiyyət kəsb etdiyini yazır və Vaşinqtondakı "dəyirmi kabinet"də ABŞ Prezidenti Donald Trampın iştirakı ilə baş tutan tədbiri "tarixi sülh sammiti" kimi səciyyələndirir: "Bəziləri bunu həddən artıq şişirdilmiş hesab edə bilər. Amma konkret bu halda Tramp doğrudan da öz bacarığı və siyasi cəsarəti sayəsində olduqca mühüm uğura imza atdı. Bir neçə ay davam edən ikitərəfli danışıqlardan sonra onun iştirakı ilə iki ölkə arasında sülh sazişi paraflandı". Müəllif qeyd edir ki, hər iki tərəf ənənəvi regional hegemon olan Rusiyanın sülh razılaşmasının təminatçısı rolunda çıxış etməsini istəməyib və bu, Trampın sülh sammiti təklifini xüsusilə cəlbedici edib. "Əgər siz Rusiya Prezidenti Vladimir Putinə verdiyiniz vədləri pozacaqsınızsa, "dairəvi kabinet" bunu etməyin ən optimal yerdir" kimi siyasi istehzaya da yol verən qafqazşünas Ağ Evdə imzalanmış sənədlərin mahiyyətini xatırladır və xüsusilə vurğulayır ki, "Tramp marşrutu" – Zəngəzur dəhlizi haqqında saziş onun Rusiyanın nəzarəti altında fəaliyyət göstərməsini nəzərdə tutan 10 noyabr 2020-ci il tarixli Bəyanatı əvəzləyir.

Tomas de Valın qənaətinə görə, Ağ Ev administrasiyası təkcə ABŞ üçün potensial kommersiya faydalarına görə deyil, həm də davamlı sülhün Trampın qlobal sülhməramlı imicini gücləndirəcəyinə görə bu sazişi dəstəkləməkdə maraqlıdır.

"Müxtəlif səbəblərdən" istər Azərbaycan, istərsə də İrəvanın Moskvanın təsirindən qurtulmağa çalışdıqları versiyasını irəli sürən ekspert avqustda Ağ Evdə əldə olunmuş razılaşmanın hələlik kövrək qaldığına diqqət çəkir: "Bu razılaşma yalnız ABŞ-ın Transsərhəd Beynəlxalq Tərəfdaşlıq Sazişini (TRIPP) həyata keçirməyə davam edəcəyi və münaqişə nəticəsində bağlanan marşrutların yenidən açılmasına kömək edəcəyi təqdirdə uğurlu olacaq. Buna nail olmaq üçün hər üç ölkədən keçən Şərq–Qərb nəqliyyat zəncirinin maliyyələşdirilməsi və yeni əlaqələrin qurulmasında Ermənistan, Azərbaycan və Türkiyə ilə əməkdaşlıq lazımdır. Bu, "Tramp yolu"nu təkcə yerli layihəyə deyil, beynəlxalq magistral marşruta çevirəcək".

Qafqazşünas alim hesab edir ki, Avropanın dəstəyi Ermənistan və Azərbaycan arasında sülh sazişinin qorunub saxlanması üçün həlledici olacaq.

"Moskva təbii ki, ABŞ-ın vasitəçiliyi ilə Bakı ilə İrəvan arasında yaxınlaşmanın uğursuzluğunu görmək istərdi. Lakin Vaşinqton və onun avropalı tərəfdaşları mürəkkəb tranzit sazişinin həyata keçirilməsində iştiraka davam edərsə və daxili və xarici oyunçuların qaçılmaz olaraq yaratdığı maneələri aradan qaldırarsa, bu, Rusiyada birmənalı qarşılanmayacaq. Çünki bu zaman Cənubi Qafqaz, nəhayət, onilliklər ərzində onu geridə qoymuş münaqişələr silsiləsindən qurtula biləcək", - de Vaal yazır. Ekspert qeyd edir ki, Ağ Evdə imzalanan Bəyannamə Azərbaycanın Cənubi Qafqazda dominant oyunçu kimi meydana çıxmasını əks etdirir. Bu yeni reallıq 2020-ci ildə Ermənistanla Azərbaycan arasında 44 gün davam edən İkinci Qarabağ müharibəsindən sonra üzə çıxmağa başladı. İllərlə diplomatik dalana dirəndikdən sonra Azərbaycan həmin il Ermənistanla yenidən döyüşə başladı və işğal olunmuş bütün ərazilərini geri almağa nail oldu.

* * *



Müəllif daha sonra məqaləsində Azərbaycan–Rusiya münasibətlərinin tarixinə müraciət edir. Ekspert yazır ki, İlham Əliyev prezidentliyi dövründə Ermənistanın çoxdankı müttəfiqi Rusiya ilə münasibətləri məharətlə idarə edib. 2022-ci ildə, Kremlin Ukraynanı işğal etməsindən iki gün əvvəl Əliyev Putinlə dövlətlərarası çox mühüm sənəd – "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında" Bəyannamə imzalayıb. 2024-cü ilin avqustunda Putin hətta Azərbaycana dövlət səfərinə gəlib. Məhz ondan sonra Bakı–Moskva münasibətləri kəskin şəkildə pisləşməyə başlayıb. T.de Vaal İlham Əliyevin xüsusən son 9 ayda Rusiya ilə ehtiyatlı davrandığını və Ermənistanla sülhə daha çox meylləndiyini xüsusi olaraq vurğulayır.

De Vaal məqaləsində iki ölkənin münasibətlərində soyumanın səbəbi kimi 2024-cü ilin dekabr ayında Rusiya ərazisində zenit-raket kompleksindən səhvən Azərbaycanın sərnişin təyyarəsini vurulmasını və 38 dinc sakinin həlak olmasını göstərir. İngilis ekspertin analitik məqaləsində maraq doğuran məqamlardan biri də onun bu yay rəsmi Kremlin əvvəllər işğal olunmuş Ukrayna ərazilərinin inteqrasiyasına nəzarət edən Sergey Kiriyenkonu Cənubi Qafqaz dövlətləri ilə münasibətlərə cavabdeh səlahiyyətli təyin etməsi, iyun ayında Rusiyanın Yekaterinburq şəhərində polisin yerli azərbaycanlıları iyirmi il əvvəl törədilmiş cinayətə görə saxlayan zaman zorakılığa yol verməsi, bu zaman iki soydaşımızın həlak olması barədə bitərəf və obyektiv şəkildə söz açmasıdır. Ekspert qeyd edir ki, Azərbaycan Prezidenti İlham Əliyev rəsmi Moskvanın bu hərəkətlərinə sərt reaksiya və qəti cavab verib. Onun sözlərinə görə, Azərbaycan lideri məhz bu səbəbdən Rusiyanın yeni nizamlanmada iştirakına qarşıdır.

Tomas de Vaal məqaləsində daha sonra vurğulayır ki, hazırda regionda tamamilə yeni reallıq yaranıb: "İndi həm Azərbaycan, həm də Ermənistan – çar imperiyası dövründən ənənəvi olaraq Rusiyanın himayəsində yaşamış iki ölkə – onun təsirindən tamamilə qurtulmağa çalışırlar". Ekspert Rusiyanın Ermənistanın baş naziri Nikol Paşinyanı devirmək cəhdlərini də xatırladır və yazır ki, Ermənistan hakimiyyəti bu cəhdlərin qarşısını qətiyyətlə almağa çalışır. O, bu sıraya silahlı çevrilişə cəhddə ittiham olunan rusiyalı milyarder Samvel Karapetyanın və kilsə rəsmilərinin daxil olduğunu qeyd edir: "Paşinyanın ənənəvi olaraq Moskvaya yaxın olan Erməni Apostol Kilsəsi ilə kəskin qarşıdurmaya getməsi onun Ermənistanın Rusiyadan tarixi asılılığını qırmaq üçün nə qədər irəliləməyə hazır olduğunu nümayiş etdirir. Beləliklə, Moskvanın itaətsizliyi "cəzalandırmaq" səyləri və Rusiyanın Qafqazdakı imkanlarının Ukraynadakı müharibə ilə məhdudlaşdığı bir vaxtda iki lideri yaxınlaşmağa sövq edir. Ona görə də Vaşinqtonun diplomatik təşəbbüsləri tam vaxtında özünü göstərdi".

Müəllif yazır ki, Rusiya və İran Vaşinqtonda imzalanmış sazişlərin həyata keçirilməsinə mane ola biləcək aktorlar




olaraq qalmaqdadır. O xatırladır ki, Moskvanın Vaşinqtonda Zəngəzur dəhlizi ilə bağlı əldə edilmiş razılaşmaya reaksiyası Tehrandan daha soyuq və biganə olub. Lakin onun sözlərinə görə, bu, o demək deyil ki, Rusiya sazişdən razıdır və ona müdaxilə etməyə çalışmayacaq. T.de Vaalın fikrincə, Azərbaycan və Ermənistan sülhün əsas detalları üzrə razılığa gələ bilməsələr və proses uzansa, Tehran və Moskva Donald Trampın prezidentlik müddəti başa çatdıqdan sonra sazişi nüfuzdan salmaq yollarını axtarmağa başlayacaq və ya fəal şəkildə onu pozmağa çalışacaqlar.

Məqalə müəllifi – Karnegi Fondunun əməkdaşı, Qafqaz məsələləri üzrə ekspert Tomas de Vaal sonda yazır ki, Vaşinqtonun Moskvanın regionun hakimi olmaq iddialarına son qoymaq şansı var. O hesab edir ki, Trampın dəstəyi Bakı və İrəvana Moskvaya qarşı durmaq üçün cəsarət verir: "Bakı ilə İrəvan arasında ilkin sülh razılaşmasına vasitəçilik edən, öz adını mühüm yeni tranzit dəhlizinə verən ABŞ Prezidenti başa düşməlidir ki, o, bunu təkbaşına edə bilməz. Bunun əvəzinə regionda davamlı sülhün bərqərar olmasına kömək etmək üçün daha ənənəvi diplomatik üsullara sərmayə qoymalıdır".

***Hazırladı:***
***✍ İ.HƏSƏNQALA***
***XQ***

# Türk Dövlətləri Təşkilatı: yeni çağırışlar



## II MƏQALƏ

### Türk ədaləti

Türk ədaləti hüquqla qanunun ontoloji anlamından qaynaqlanır. Qədim türklərdə hüququn təməli qanun, sonuncunun real həyatda ifadəsi isə hüquq olmuşdur. Yəni türklər üçün hüquq insanın sonradan müəyyən etdiyi fenomen deyildir – o, həyatın mahiyyəti və quruluşunun bir aspektidir. Buna görədir ki, türkün sadə insanından tutmuş, hökmdarına qədər hər bir sosial kəsim üçün ədalət uğrunda mübarizə birbaşa həyat, qanun və "üzüağ" yasamın təbii normasıdır. Bunlar türklərin, ümumiyyətlə, kökdən ədalətli olmalarını şərtləndirən universal anlamlardır. Tarixin bütün dönəmlərində türk xalqlarının həyatı bunu təsdiq etmişdir. Hətta türk imperatorlar bir-biri ilə hünər və daha ədalətlilik uğrunda savaşmışlar.

Bəşər tarixi üçün bu tezis çox önəmlidir. Çünki hansı etnosun hansı dəyərlər uğrunda savaşdığının qurulan dövlətin identikliyinə birbaşa aidiyyatı vardır. Eyni zamanda, bu faktor türk dövlətlərinin inteqrasiya oluna bilmək fəlsəfəsinin mərkəzində dayanır. Əlbəttə, onun meydana çıxardığı ziddiyyətlər az deyildir. Lakin böhranlı dönəmlərdə türk dövlətinin nələrdən keçə biləcəyi və hansı dəyərlərdən vaz keçməyəcəyi məsələsi çox vacibdir. Əgər dövlət başçısı hünər və ədaləti ön sıraya qoyursa, onun başqa dəyərlər üzrə qardaş türk hökmdarla anlaşması asandır.

Burada əsas şərt doğrudan hünərli və ədalətli olmaqdan ibarətdir. Bunun da başlıca əlaməti müstəqil addımlar atmağı bacarmaqdadır. Müstəqil türk lider ədaləti üzərində digər türk liderlər anlaşa bilir. Müasir dünya təcrübəsi göstərir ki, başlanğıcda çox vədlər verən güclü regional və beynəlxalq təşkilatların belə, praktiki fəaliyyətində uğurlu ola bilməməsinin başlıca səbəbi liderlərin ədalətsizliyi ilə bağlıdır. Müəyyən prinsipial məqamda lider ədalət hissini itirir, eqoizmə qapılır və bununla tarazlıq pozulur.

Müasir mərhələdə Azərbaycan Prezidenti İlham Əliyev həmişə hünərli və ədalətli olduğunu sübut etmişdir. Buna görədir ki, Türk Dövlətləri Təşkilatında aparıcı güc Azərbaycandır. İlham Əliyev 44 günlük ağır müharibədə qəvi düşməni tam yenəndən sonra atdığı addımlar, irəli sürdüyü təşəbbüslərlə sülhsevər və barışcıl hünərini, tarixi ədalətə müasir beynəlxalq hüquq normaları kontekstində yanaşmaq qabiliyyətini göstərmişdir. Bu cür özəlliklər tarix boyu əsl türk liderlərin fəaliyyətlərinin mahiyyətində olmuşdur.

### Türkün dövlətçilik missiyası

Ədalətli olmaq konkret hədəfi müəyyən etməyi tələb edir. Etnoslar dövlət quranda mütləq surətdə onun strateji məqsədini dəqiq təyin etməlidirlər. Əgər dövlət başqa xalqlar üzərində hökmranlıq etmək üçün qurulursa, identifikasiyası fərqli olur. Dövlət onu quran xalqın suverenliyini təmin etmək üçündürsə, tamam fərqli identifikasiyaya sahib olur. Deməli, burada başlıca faktor suverenliyin xalq tərəfindən necə qavranması məsələsindən çox asılıdır. Heç bir xalq isə elmi səviyyədə suverenliyə qiymət vermir. Onun toplum üçün başlıca qaynaq mənbəyi kollektiv birgəyaşamın ənənədən gələn dəyərlərinin təhlükəsiz mövcudolmanı təmin edən şərtləridir. Türk xalqları üçün bu hünər, ədalət, kökə bağlılıq olduğundan suveren olmaq vurğulanan şərtlərin ödənməsi deməkdir. Buna görədir ki, türkdən kölə olmaz, o, azad olmalıdır, hünərli və ədalət uğrunda daim savaşa hazır olmalıdır. Türkləri hiyləgərlikdə yenirlər, lakin onun əvəzini də mütləq görürlər. Çünki türklər ədaləti mütləq bərpa etməlidirlər. Dövlət səviyyəsində buradan çox maraqlı bir özəllik yaranır.

Türk qövmünə dövlətçilik missiyasında xalq suverenliyini təmin etmək üçün uyğun diplomatiya gərəkdir. Elə bir diplomatiya ki, hünər, ədalət, intizam əsasında dövlətin suverenliyini təmin etmək mümkün olsun. Türk diplomatiyasının bu kontekstdə ağır bir vəzifəsi də vardır. Onun fəlsəfəsi dərindir.

### Dünya niyə birləşməlidir?

Türk siyasi və fəlsəfi baxışına görə, dünyanın əsas məqsədi birləşməkdən ibarətdir. Bu tezisin kökündə türk mifindən gələn "İlahi ədalət və nizam bütün dünyaya yayılmalıdır" müddəası dayanır. İlahi ədalət dünyanı vahid və bölünməz görür (fəlsəfədə "holizm" deyirlər). XX əsrin ikinci yarısı XXI əsrin ilk onilliklərinin elmi idrakında bu təsəvvür (holizm) aparıcıdır. Türklər isə qədimdən dünyanın vahid ilahi ədalətli nizam üzərində yaşaması üçün savaşmaqdadırlar. İlahi ədaləti dünyaya yaymaqdan ötrü güclü dövlət qurmaq gərəkdir. Öz növbəsində onun əsas məqsədi ədalətli dünya qurmaqdan ibarət olmalıdır.

Türk dövlətinin suverenliyinin mərkəzində bu anlam dayanır. Xalq suverenliyindən dövlət suverenliyinə keçidin əsas məntiqi mahiyyəti bundan ibarətdir. Yəni türk dövlətinin suverenliyinin mühüm aspekti onun dünya miqyasında qəbul edilməsi ilə sıx bağlıdır. Bu da təbii olaraq türk dövlətlərinin bir araya gəlməsinin fundamental motivəedici faktorlarından birinin suverenlik olduğunu göstərir. Suverenliyin belə anlamının təməlində isə İlahi ədalət və nizamın dünyaya yayılması inancı dayanır.

### Dünyanı ədalətli və nizamlı etmək mexanizmi

Praktikada məsələnin əsas tərəfi bununla bağlıdır. Bəşər tarixində dünyanı birləşdirmək cəhdləri çox olmuşdur. Qılıncla, hətta onun böyük qismini bir dövlət altında birləşdirənlər olmuşdur. Uzun illər qanlar tökənlər də yox deyillər. Lakin onların hər birində çatışmayan əsas cəhət İlahi ədalət və nizamlılıq anlayışının siyasətdə yoxluğu ilə bağlıdır. Hələ də bəşəriyyət dünyaya holistik baxa bilmir. Onun bütöv olması üçün ədalət və nizamlılığa əsaslanan mexanizm tapa bilmir. Bunun əsas əlamətləri isə türk dövlətçiliyinin tarixi ənənəsində ifadə edilmişdir. O ənənənin obyektiv öyrənilməsi bütün dünya üçün vacibdir. Əlbəttə, indiki dönəmdə özünü çox güclü sayan dövlətlər belə bir addım atmaqdan uzaqdırlar. Nə Qərb, nə də Şərqdə bu barədə düşünən dövlət yoxdur. Heç müsəlman dövlətləri içərisində vurğulanan həqiqəti hansının tam və səmimi qəbul etdiyini bilmirik.

Qalır türk dövlətlərinin və xalqlarının özləri. Burada da fərqləndirmə aparmaq lazım gəlir. Çünki türk xalqlarının bir çoxu başqa etnosun qurduğu dövlətdə yarıtürk kimi mövcud olmaqda davam edir. Onların məhdud bir hissəsini çıxmaq şərti ilə deyə bilərik ki, türk etnosu kimi "həm mövcuddurlar, həm də mövcud deyillər".

O türk xalqları dili saxlayırlar, məişətlərində türk elementləri vardır, lakin siyasi düşüncəyə gəldikdə ənənədən çox uzaqlaşdıqları aydın görünür. Deməli, onlara türklüklərini dərk etməyi motivə edən güclü mexanizm olmalıdır. Necə? Bu suala cavab tapılmalıdır. Çünki dünyanı İlahi ədalət və nizam üzrə birləşdirmək missiyası olan bir qövmün özünün daxilində fraqmentləşmə yaranmışsa, bu ziddiyyət aşılmadan qalıcı nailiyyət əldə etmək imkansızdır.

Vurğuladığımız kontekstdə türk dövlətlərinin birliyi məsələsi daha aktual görünür. Qədim ədalətlilik və nizamlılıq ənənəsi olan dövlətlərin birliyi dünya üçün də faydalı ola bilər. Bu barədə təhlil aparmaq üçün I məqalədə qeyd edilən bir xüsusiyyəti xatırlamaq yerinə düşər. Orada türk xalqlarının bu və ya digər səbəblərdən fərqli siyasi, geosiyasi, mədəni, iqtisadi, sosial və digər mühitə düşmələri məsələsinin birlik üçün əngəl ola biləcəyi sualı qoyulmuşdu. Həmin məqam üzərində geniş dayanaq.

### Türk dövlətlərinin geosiyasi təsnifi

Tarixi gedişat elə gətirmişdir ki, son 200 ildə türk dövlətləri fərqli geosiyasi mühitə düşmüşlər. Osmanlı parçalanandan sonra Türkiyə Qərbin təsiri altında qalmaqla mövcud olmuşdur. Bu statusda Türkiyə türk ölkələrinə heç bir təsir göstərə bilməmişdir. Həm də ona görə ki, digərləri o zaman güclü olan SSRİ-nin tərkibində idilər.

Daha çox təzyiq görən və mənfi təsirə məruz qalan türk dövləti isə Azərbaycan olmuşdur. Azərbaycanı parçalamış və sonra sovetlərə qatmışlar. 70 il SSRİ tərkibində Azərbaycan müxtəlif təsirlərə və təzyiqlərə məruz qalmışdır. Müstəqilliyi isə ərazisinin bir qisminin işğal edilməsi faktı fonunda əldə etmişdir.

Mərkəzi Asiya türk dövlətləri ciddi təsir altında mövcud olmuşlar. Belə bir fikir vardı ki, onlar Rusiyanın tam nəzarətindədirlər və Moskvanın sözündən çıxa bilməzlər.

Deməli, keçən əsrin 90-cı illərinə qədər geosiyasi və siyasi anlamda vahid türk dünyasından danışmaq çətindir. Yalnız müstəqillik əldə edildikdən sonra türk dövlətlərinin öz geosiyasi yeri və roluna bütöv halında baxmaq imkanı yaranmışdır.

Ümumi mənzərə belə idi ki, Türkiyə reallıqda ABŞ-nin təsiri altında olan müstəqil dövlət idi, Azərbaycan ərazisinin bir hissəsi işğal edilmiş və hər tərəfdən təzyiq görən müstəqil dövlət idi, Mərkəzi Asiya isə çox passiv durumda olan dövlətlərdən ibarət idi. Bu cür geosiyasi rəngarənglik fonunda türk dövlətlərinin hansı mexanizmlə birləşə biləcəyi qeyri-müəyyən bir məsələ olaraq qalırdı. Onların hamısını bir araya gətirə biləcək ideya gərəkdi. Elə bir ideya ki, sonrakı mərhələlərdə türk dövlətlərinin birliyinə təkan verə bilsin, onu geosiyasi təlatümlərdən xilas etsin.

Beləliklə, keçən əsrin 90-cı illərində türk dövlətlərinin bir-birindən fərqli geosiyasi obraza malik olmaları bütövlükdə türk dünyasında münasibətlərin nizamlanmasına ciddi əngəllər törədirdi. Üstəlik, türk dövlətlərinə müxtəlif istiqamətlərdən mənfi təsirlər mövcud idi və onların səngiməsi gözlənilən deyildi. Belə təəssürat yaranırdı ki, türk dövlətlərinin "geosiyasi şansı" çox az idi. Yaranmış mürəkkəb vəziyyətdən strateji perspektivi müsbət olan çıxış yolu tapmaq gərəkdi.

TDT-nin indiki təşkilatlanma xüsusiyyəti, onun strateji məqsədi və fəaliyyət mexanizmlərini düzgün anlamaq üçün keçən əsrin 90-cı illərində türk dövlətlərinin geosiyasi özəlliklərini mütləq nəzərə almaq lazımdır. Təsəvvür edək ki, sözdə türk birliyindən danışanlar çox idi, praktikada isə bunu reallaşdıra biləcək ideya, siyasi və geosiyasi sistem mövcud deyildi. Türk dünyasının gələcək taleyi birbaşa bu vəzifənin öhdəsindən gəlməkdən asılı idi.

Başqa tərəfdən, türk xalqlarının dövlət səviyyəsində birləşməsi üçün başlanğıc modelin ideya aspekti son dərəcə önəmli idi. Bu ideya real, inandırıcı və hər bir türk xalqının maraqlarını nəzərə alan məzmuna malik olmalı idi. Bütün gözlər həmin dönəmdə Türkiyəyə dikilsə də, Ankaradan gerçək ideya çıxmırdı.

Burada tarix meydanına türk birliyi ideyasını daşıyan, onu müasir şərtlərə tam uyğunlaşdırmaqla dövlətçilik ənənəsini də diqqətlə nəzərə alan yanaşma zərurətə çevrilmişdi. Çox maraqlıdır ki, özü son dərəcə mürəkkəb vəziyyətdə olan və parçalanma riskini tam neytrallaşdırmamış türk dövləti – Azərbaycan həmin ideyanı türk xalqlarına anlatdı. İdeya belə idi – "Bir millət, iki dövlət"! Onun banisi isə Ulu öndər Heydər Əliyev idi! Bu fundamental, çoxmənalı və birləşdirici tezis hazırkı TDT-nin formalaşmasında əsas rol oynamışdır. İndi türk dövlətlərinin vahid mövqedən çıxış etməsinin siyasi, ideoloji, tarixi, mədəni və geosiyasi sərhədlərini məşhur "bir millət, iki dövlət" tezisi müəyyən etmişdir! Bu müasir mərhələ üçün çox aktual və əhəmiyyətli hadisədir və onun üzərində geniş dayanmaq gərəkdir!

*(ardı var)*

***✍ Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Azərbaycan–İran: qonşuluqdan güc alan əməkdaşlıq



**İki ölkə arasında dostluq və mehriban qonşuluq prinsiplərinə əsaslanan münasibətlər yeni inkişaf mərhələsinə qədəm qoyub. Ölkə rəhbərlərinin qarşılıqlı siyasi iradəsi nəticəsində əməkdaşlıq təkcə ikitərəfli əlaqələrlə məhdudlaşmır, eyni zamanda, Cənubi Qafqazda sabitlik, təhlükəsizlik və davamlı iqtisadi inkişaf üçün strateji əməkdaşlıq modelinə çevrilir. Xüsusilə nəqliyyat, logistika, energetika və ticarət sahələrində həyata keçirilən birgə layihələr bu əlaqələrin praktik və real nəticələr doğurduğunu sübut edir.**

İkitərəfli əməkdaşlığın nəticələrindən biri Araz çayı üzərində inşa edilən Ağbənd–Kəlalə körpüsüdür. İranın Azərbaycandakı səfiri Möctəba Dəmirçilunun bildirdiyinə görə, tikinti işlərinin 63 faizi tamamlanıb və körpünün cari ilin sonunadək istifadəyə verilməsi nəzərdə tutulur. Dəmir yolu sektorunda 52 kilometrlik marşrutun İran ərazisində yerləşməsi ilə bağlı məsləhətləşmələr isə davam edir.

Bu, Naxçıvanla Azərbaycanın materik hissəsi arasında birbaşa və təhlükəsiz quru əlaqəsinin qurulmasına imkan verəcək. Həm də o, Avropa, Şərqi və Orta Asiya, eləcə də Qara dəniz istiqamətlərində ən təhlükəsiz və qısa tranzit yollarından birinə çevriləcək. Nəticədə, Naxçıvanın uzun illər davam edən blokadadan çıxışı asanlaşacaq, yük və sərnişin daşımalarının həcmi artacaq və regionda iqtisadi fəallığı ciddi şəkildə stimullaşacaq. İran tərəfi bu təşəbbüsə paralel olaraq Culfaya doğru avtomobil yolunun genişləndirilməsi istiqamətində işlər aparır. Sözügedən yolun inşası, o cümlədən planlaşdırılan bir neçə tunelin tikintisi İranın daxili vəsaiti hesabına həyata keçirilir. Bu da regionun inkişafına göstərilən diqqətin və Azərbaycana olan etimadın göstəricisidir. Körpü və yol infrastrukturu layihələri yalnız texniki əhəmiyyət kəsb etmir, eyni zamanda, Azərbaycan–İran dostluğunun, qarşılıqlı etimad və strateji tərəfdaşlığın simvolu hesab olunur.

Əlaqələrin genişlənməsi kontekstində sərhəd-buraxılış məntəqələrinin fəaliyyətinin bərpası və nəqliyyat axınının yenidən təşkili də önəmli addımlardandır. Qeyd edək ki, 2025-ci il sentyabrın 18-də səfir Möctəba Dəmirçilunun Ərdəbilə səfəri çərçivəsində bu mövzular əsas müzakirə predmeti olub. Ərdəbil əyalətinin rəsmiləri ilə aparılan danışıqlarda sərhədlərin yenidən açılması, sərhəd bazarlarının yaradılması, dəmiryolu xətlərinin inkişafı və müştərək iqtisadi zonaların təsisi məsələləri ön plana çıxıb. Səfirin açıqlamasına görə, bu təşəbbüslər prezidentlər səviyyəsində əldə olunmuş razılaşmalara əsaslanır və Ərdəbilin bu əməkdaşlıqda daha fəal rol alması gözlənilir.

Onu da qeyd edək ki, sərhəd daşımalarının bərpası və sərhəddən keçid üçün əlverişli şəraitin yaradılması təkcə texniki məsələ deyil, həm də siyasi, iqtisadi və humanitar sahələrə birbaşa təsir göstərən amildir. Bu istiqamətdə atılan addımlar iki ölkə vətəndaşlarının rifahına xidmət edir və münasibətlərin normallaşmasına şərait yaradır. Göründüyü kimi, körpünün və yolun tikintisi ilə birlikdə sərhəd bazarlarının yaradılması da müzakirə mövzusudur. Belə bazarlar sərhədyanı bölgələrdə yaşayan əhali üçün yeni ticarət imkanları yaradacaq, kiçik və orta sahibkarlığın inkişafına təkan verəcək və məşğulluğun artmasına səbəb olacaq. Həmçinin yerli istehsalçılar öz məhsullarını qonşu ölkənin bazarına çıxarmaqla kənd təsərrüfatı və sənətkarlıq sahələrinin inkişafını stimullaşdıracaqlar. Eyni zamanda, sərhəd bazarlarının fəaliyyəti və sərhəd keçidlərinin yenidən açılması xalqlar arasında qarşılıqlı etimadın və birbaşa təmasların sayının artmasına səbəb olacaq, regionda uzunmüddətli sabitliyə və humanitar əlaqələrin inkişafına zəmin yaradacaq. Bu mənada sərhəd əməkdaşlığının canlandırılması yalnız Azərbaycan və İran üçün deyil, bütövlükdə Cənubi Qafqazın təhlükəsizliyi və rifahı baxımından strateji əhəmiyyət kəsb edir.

*

Ümumiyyətlə, İran və Azərbaycanın sərhədyanı bölgələrində həyata keçirilən infrastruktur layihələri Cənubi Qafqazda davamlı əməkdaşlığın formalaşmasına xidmət edir. Bu təşəbbüslər çərçivəsində İran öz tranzit imkanlarını genişləndirərək Azərbaycan vasitəsilə beynəlxalq bazarlara daha asan çıxış əldə edir, Azərbaycan isə regionda nəqliyyat-logistika mərkəzi kimi mövqeyini möhkəmləndirir. Bu məqsədlə tərəflər ticarət dövriyyəsinin artırılması üçün konkret niyyət ortaya qoyublar və hazırda iki əsas nəqliyyat xətti – Zəngəzur dəhlizi və Şimal–Cənub marşrutu üzrə əməkdaşlıq həyata keçirilir. Ticarət, sənaye, kənd təsərrüfatı, energetika və digər sahələrdə icra olunan birgə layihələr diplomatik münasibətləri daha da gücləndirir. Bu marşrutlar həm yük daşımalarının təşkilində, həm də tranzit imkanlarının genişləndirilməsində mühüm rol oynayır. Eyni zamanda, əməkdaşlıq nəqliyyat koridorlarının effektivliyini artırmaqla yanaşı, bölgədə daha geniş iqtisadi inteqrasiyaya şərait yaradır.

Səfir Möctəba Dəmirçilu, həmçinin bildirib ki, İran–Azərbaycan münasibətləri təkcə nəqliyyat və infrastruktur sahələri ilə məhdudlaşmır. Bu əlaqələr daha geniş spektri əhatə edir və iqtisadi əməkdaşlıq istiqamətində yeni imkanlar yaradır. Xüsusilə körpünün tikildiyi həmin ərazinin yaxınlığında yerləşən "Qız Qalası" və "Xudafərin" su elektrik stansiyalarının hər iki ölkə üçün strateji əhəmiyyəti var. Onların istismara verilməsi kənd təsərrüfatı və sənaye üçün xüsusilə vacibdir. Bundan başqa, hər iki layihə Bakı və Tehran arasında enerji əməkdaşlığının gücləndirilməsi istiqamətində mühüm addımdır. Bu layihələr təkcə su ehtiyatı deyil, həm də enerji istehsalı baxımından strateji xarakter daşıyır. İran və Azərbaycan ənənəvi olaraq elektrik enerjisi mübadiləsində əməkdaşlıq edirlər ki, bu da mövsümi tələbat dalğalanmalarını effektiv idarə etməyə imkan verir. Belə mübadilələr enerji şəbəkələrinin sabit işləməsini, xüsusən də pik istehlak dövrlərində fasiləsiz elektrik təchizatını təmin edir. Məsələn, 2024-cü ilin ilk doqquz ayında İran Azərbaycanın Naxçıvan Muxtar Respublikasına 26,8 milyon, Azərbaycan isə İrana 27,9 milyon kVt-saat elektrik enerjisi ötürüb. Səfirin sözlərinə görə, hər iki ölkə qarşılıqlı ticarət əlaqələrini genişləndirmək, mövcud potensialdan tam istifadə etmək niyyətindədir. Bu barədə baş nazirin müavini Şahin Mustafayev qeyd edib ki, mövcud razılaşmalar nəticəsində ticarət dövriyyəsinin illik həcmi 650 milyon dollardan 1 milyard dollara çatdırıla bilər. Bank sektorundakı məhdudiyyətlərin aradan qaldırılması, Bakı–Tehran və Bakı–Təbriz aviareyslərinin artırılması, həmçinin neft-qaz, neft-kimya və ticarət sahələrində əməkdaşlıq uğurlu perspektivdən xəbər verir.

**Mövzu ilə bağlı XQ-yə danışan politoloq İlqar Hüseynli** bildirdi ki, İran–Azərbaycan əlaqələrinin bugünkü inkişaf



mərhələsi konkret layihələr və real nəticələr əsasında formalaşan çoxşaxəli əməkdaşlıq modelinə çevrilib: "Sərhəd-buraxılış məntəqələrinin fəaliyyətinin bərpası, nəqliyyat dəhlizlərinin yaradılması, sərhəd bazarlarının açılması və ticarət dövriyyəsinin artırılması bu münasibətlərin strateji gələcəyini müəyyənləşdirən əsas istiqamətlərdəndir. Xüsusilə Naxçıvanla Azərbaycanın materik hissəsinin birləşdirilməsi istiqamətində atılan addımlar bölgədə yaşayan əhalinin sosial rifahına, iqtisadi fəallığın artmasına və ümumilikdə regionun dayanıqlı inkişafına əhəmiyyətli töhfə verir. Bu əməkdaşlıq formatı, gələcəkdə daha geniş regional inteqrasiya və çoxtərəfli əməkdaşlıq təşəbbüsləri üçün etibarlı zəmin yaradır.

Bütün bu faktlar bir daha göstərir ki, Azərbaycan və İran arasında həyata keçirilən layihələr və aparılan danışıqlar təkcə ikitərəfli münasibətlərin inkişafına deyil, həm də Cənubi Qafqazda davamlı əməkdaşlıq, təhlükəsizlik və rifahın təmin olunmasına yönəlib. Konkret iqtisadi və sosial nəticələr doğuran əməkdaşlıq modelinə çevrilib".

***✍ Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Zəngəzur dəhlizi: Reallıqlar hansı perspektivi vəd edir?

**Son zamanlar ən müxtəlif səviyyələrdə ciddi müzakirələrə səbəb olan Beynəlxalq Sülh və Rifah üçün Tramp marşrutu (TRIPP) layihəsi iştirakçı ölkələr üçün Avrasiya logistikasının transformasiyası prosesinin başlanması və Yeni İpək Yolunda əsas oyunçular olan ölkələrin rolunun əsaslı şəkildə yeni müstəviyə çıxmaları ilə səciyyələndirilir. Layihənin ikinci hissəsi Qərbdən Tramp marşrutuna qoşularaq, onun Anadolu istiqamətində fəaliyyətini təmin etməli olan Qars-Dilucu dəmir yolu layihəsidir ki, bunun tikintisinə də artıq Türkiyə hakimiyyəti tərəfindən rəsmən start verilib.**




Bu meqalayihənin Avrasiya regionunun geosiyasi arxitekturasına verəcəyi töhfələrlə yanaşı, sülh və əmin-amanlığın təminatına xidmət edəcəyi də bəllidir. Lakin buna baxmayaraq, layihənin həyata keçirilməsinin hansı geoiqtisadi və geosiyasi risklərlə üzləşə biləcəyi hələ də ciddi mübahisələr doğurmaqdadır. Məhz bu səbəbdən istər region ölkələrinin, istərsə də dünyanın bir sıra mühüm aktorlarının siyasi şərhçiləri və iqtisadi, siyasi ekspertləri müntəzəm olaraq media müstəvisində bu mövzuda müzakirələr açırlar.

Layihənin tezliklə həyata vəsiqə almasında daha çox maraqlı olan Azərbaycan Zəngəzur dəhlizinə "şərq"dən istiqamət alan hissəni, demək olar ki, başa çatdırıb. Ermənistan isə əldə edəcəyi potensial iqtisadi faydalara baxmayaraq, dəhlizi işə salmaqda hələ də qeyri-müəyyənlik nümayiş etməkdədir. Bəzi beynəlxalq ekspertlər tez-tez belə bir ehtimalla çıxış edirlər ki, "Ermənistan Azərbaycanın irredentizmindən və təkcə Sünik (Zəngəzur) bölgəsində deyil, digər strateji ərazilər üzərində nəzarəti də itirməkdən qorxduğu üçün" riskə getmək istəmir. Buna əsas səbəblərdən biri kimi "Azərbaycanın ictimai xadimləri tərəfindən 2022-ci ildə təqdim edilən Ermənistanın Sünik və Sevan rayonları ərazisində (Azərbaycan tarixşünaslığında müvafiq olaraq Zəngəzur və Göyçə) "Göyçə-Zəngəzur Respublikası"nın yaradılması layihəsi"ni göstərir və erməni siyasi isteblişmentinin




bundan ciddi narahat olduğunu bildirirlər.

Türkiyə və Azərbaycan Zəngəzur dəhlizinə təkcə öz aralarında deyil, bütövlükdə Asiya və Avropa arasında maneəsiz nəqliyyat əlaqələrinin yaradılmasında əsas element kimi baxır. Məhz buna görə də, İkinci Qarabağ müharibəsi başa çatandan bəri Bakı israrla İrəvandan Sünik üzərindən Zəngəzur dəhlizinin yaradılmasını tələb edir. Bakının bu tələbdə tam haqlı olduğunu göstərən arqumentlərdən biri 2020-ci ildə İkinci Qarabağ müharibəsindən sonra Rusiya, Azərbaycan və Ermənistan arasında imzalanan, Prezident İlham Əliyevin bəyan etdiyi kimi desək, "kapitulyasiya aktı"dır. Üçtərəfli saziş adlandırılan bu sənəd Moskvanın təhlükəsizlik zəmanəti ilə nəqliyyat kommunikasiyalarının açılmasını nəzərdə tutur. Amma 5 ilə yaxın vaxt keçməsinə baxmayaraq, Ermənistan bu addımı atmaqdan imtina edir.

Bakının bu məsələdə təkid etməsinin səbəbləri heç də gizli deyil. Əvvəla, 1992-ci ildən bəri Azərbaycan Türkiyə və İranla həmsərhəd olan eksklavı Naxçıvan Muxtar Respublikası (MR) ilə əlaqəni bərpa etmək istəyir. Çünki Naxçıvanla birbaşa quru əlaqəsinin olmaması Bakı üçün ekzistensial problem olaraq qalır. Digər tərəfdən Bakı öz logistik imkanlarını, hər ikisi 2016-cı ildə tamamlanan Türkiyənin Avrasiya Tuneli və Sultan Səlim Yavuz körpüsü kimi meqalayihələri ilə birləşdirməyə çalışır. Bu, təkcə Türkiyənin Yeni İpək Yolunda əsas rolunu mütləq şəkildə gücləndirməyəcək, eyni zamanda region ölkələrinə çox böyük iqtisadi fayda verəcək.

Azərbaycana gəldikdə isə, Bakı artıq şərq tərəfdən gələcək Zəngəzur dəhlizinə bitişik olan Horadiz-Ağbənd dəmir yolunu sürətlə inşa edir. "Azərbaycan Dəmir Yolları" QSC-dən (ADY) verilən məlumata görə, layihə üzrə işlərin 84 faizi, tikinti işlərinin isə 67 faizi artıq yerinə yetirilib. 75-106 kilometrlik hissədə aktiv qazıntı işləri və mühəndis qurğularının tikintisi davam etdirilir. Layihəyə 9 stansiyanın, 40 körpünün, 26 yol keçidinin və 4 tunelin tikintisi daxildir. Diqqət çəkən məqamlardan biri budur ki, Azərbaycan ilkin mərhələdə tikintini tamamilə öz hesabına maliyyələşdirməklə Zəngəzur dəhlizi layihəsinin uğuruna tam əminliyini nümayiş etdirir. Bundan başqa, türk şirkətləri tərəfindən tikilən, Horadiz və Ağbəndi birləşdirən yüksək sürətli avtomobil yolunun da demək olar ki, 95 faizi tamamlanıb. Bu yolun təməlini şəxsən Rəcəb Tayyib Ərdoğan Azərbaycana dövlət səfəri zamanı qoyub.

Beləliklə, Azərbaycan Zəngəzur dəhlizinə şərq "yaxınlaşmasını", Türkiyə isə qərb dəhlizini qurur. Gələcək Qars-Dilucu dəmir yolunun qısa - 224 kilometr olmasına baxmayaraq, bu, Ankara və Bakının iddialı planlarının ən mühüm halqası kimi görünür. Yeni dəmir yolunun əhəmiyyəti təkcə kəmiyyət göstəriciləri ilə məhdudlaşmır - o, Türkiyəni Naxçıvan eksklavı vasitəsilə birbaşa Bakı ilə birləşdirəcək.

Qars-Dilucu dəmir yolu xəttinin 2029-cu ildə tamamlanmasından sonra Qarsdan Azərbaycan sərhədinə gediş müddəti cəmi 1 saat 25 dəqiqə olacaq. Layihəyə Subatan, Digör, Tuzluca, İğdır, Qaraqoyunlu, Aralıq və Dilucu daxil olmaqla yeddi stansiya, eləcə də irimiqyaslı infrastruktur daxildir: 27 yol ötürücü, 10 körpü, 3 viyadük və 19 tunel. Bu xətt sərnişin qatarlarının saatda 160 kilometr sürətlə hərəkətini dəstəkləyəcək. Layihənin həyata keçirilməsi regionun logistik rolunu kökündən dəyişəcək: Qars əsas yük qapısına, İğdır ticarət mərkəzinə çevriləcək, Aralıq və Dilucu isə strateji əhəmiyyətli keçid məntəqələri kimi xidmət göstərəcək. Xəttin illik yük dövriyyəsi 15 milyon tona, sərnişin axını isə 5,5 milyon nəfərə çatacaq.

Prezident Rəcəb Tayyib Ərdoğan və nəqliyyat naziri Aydın Uraloğlu da daxil olmaqla Türkiyə liderləri layihəyə böyük simvolik əhəmiyyət verib, onu ölkənin geostrateji liderliyini gücləndirəcək, regional rifahı təşviq edəcək və qlobal ticarət şəbəkələrinə inteqrasiya edəcək "Asiya ilə Avropa arasında körpü" adlandırırlar. İqtisadi baxımdan yeni xəttin mövcud "Bakı-Tbilisi-Qars" avtomobil yolu ilə inteqrasiyası zamanı dəmir yolu nəqliyyatının Türkiyənin xarici ticarətindəki payının 1 faizdən 4 faizə qaldıracağı və 30 il ərzində 150 milyard lirəyə yaxın gəlir gətirəcəyi gözlənilir. Dəmir yolu xətti ilə yanaşı, marşrutun neft və qaz kəmərləri, eləcə də fiber optik xətləri də əhatə edəcəyi nəzərdə tutulur. Layihənin reallaşması 10 minə yaxın yeni iş yeri yaradılmasına imkan verəcək ki, bu da xüsusilə Şərqi və Cənub-Şərqi Anadolunun inkişafı üçün xüsusilə vacibdir.

Yolun təməlqoyma mərasimində jurnalistlərə açıqlama verən A.Uraloğlu onun əhəmiyyətini 2025-ci il avqustun 24-də rəsmi istifadəyə verilmiş "İzmir-İstanbul" avtomobil yolu ilə müqayisə edib. Magistral yol onun marşrutu üzrə 12 mütəşəkkil sənaye zonasının inkişafına təkan verib ki, bu da artıq xeyli yeni iş yerlərinin açılmasına səbəb olub. "Qars-Dilucu" xəttində də oxşar dəyişikliklər gözlənilə bilərmi sualına cavab verən nazir bildirib ki, ən azı indi bütün yeni sənaye obyektlərinin İstanbulda cəmləşməsinin qarşısını almaq üçün siyasi iradə var.

Yeni yolun dəyəri 110 milyard lirə (indiki məzənnə ilə təxminən 2,8 milyard dollar) olacaq. Müqayisə üçün qeyd edək ki, Rizə-Artvin hava limanı cəmi 275 milyon dollara, İzmir avtovağzalına yeni metro xətti 535 milyon dollara, İstanbulun yeni hava limanı isə 12 milyard dollara başa gəlib.

Maraqlıdır ki, "Qars-Dilucu" xəttinin maliyyələşdirilməsini beynəlxalq kreditorlar konsorsiumu, o cümlədən Yaponiyanın "Mitsubishi UFJ", İsveç (SEK) və Avstriyanın (OeKB) ixrac kredit agentlikləri, həmçinin İslam İnkişaf Bankı həyata keçirir. Ümumiyyətlə, Türkiyədə bir çox dəmir yolu layihələri bu cür konsorsiumlar tərəfindən maliyyələşdirilir, məsələn, "Ankara-İzmir" və "Mersin-Qaziantep" sürətli dəmir yollarının tikintisi avropalı kreditorlar tərəfindən maliyyələşdirilib.

Sual oluna bilər ki, bəs Zəngəzur dəhlizinin işə salınması iqtisadi baxımdan nə üçün faydalı sayılır?

Türkiyə hesab edir ki, Zəngəzur dəhlizi makroregionda logistika axınlarını tamamilə dəyişdirmək və yükdaşıma müddətini 18 gündən 12 günə azaltmaq potensialına malikdir ki, bu da ənənəvi dəniz marşrutları ilə müqayisədə marşrutun rəqabət qabiliyyətini artıracaq. Türkiyəli siyasətçilərin cəsarətli bəyanatları göstərir ki, rəsmi Ankara Zəngəzur dəhlizinin işə salınacağına tam əmindir. Bu dəhliz olmasa, həm Azərbaycan tərəfdə "Horadiz-Ağbənd" layihəsi, həm də Türkiyə tərəfində "Qars-Dilucu" layihəsi faydasız və mənasız olacaq.

Bununla belə, bir çox politoloqlar Zəngəzur dəhlizinin açılmasını (və mahiyyətcə bərpasını) mürəkkəb və birmənalı olmayan məsələ kimi görürlər. Ermənistan, xüsusən də Zəngilan-Naxçıvan dəmir yolu xəttinin əvəzinə, tamamilə başqa, daha şimalda yerləşən İcevan-Qazax dəmir yolu xəttinin bərpa olunmasında təkid edir. Bu xətt Zəngəzurdan keçən yoldan çox-çox sonralar çəkilmişdir və Azərbaycanın "materik" hissəsi ilə Naxçıvan arasında əlaqəni Ermənistanın Sünik rayonundan deyil, İrəvandan keçməklə təmin edirdi. Ermənistan Azərbaycan ərazisindən Rusiya Dəmir Yolları ilə əlaqəni təmin etmək üçün 1992-1994-cü illər müharibəsindən sonra dağıdılan bu hissənin bərpasında maraqlıdır. Lakin konkret bu xətt bərpa olunarsa, təbii ki, tikilməkdə olan Horadiz-Ağbənd və Qars-Dilucu yollarına ehtiyac aradan qalxar. Amma Bakı buna razılıq verəcəkmi? Əsla yox, çünki bu Azərbaycana heç bir cəhətdən sərfəli deyil.

Digər məsələlərlə yanaşı, Ankara və Bakının "nəqliyyat və logistika ambisiyaları" təkcə Ermənistanın deyil, İranın da ciddi müqaviməti ilə üzləşir. Tehran öz ərazisindən yan keçməklə Zəngəzur dəhlizinin yaradılması ideyasına son dərəcə həssas yanaşır. Üstəlik, transsərhəd yükdaşımaları ilə bağlı artıq ziddiyyətlər yaranıb və üstəlik, eskalasiyaya gətirib çıxarıb. 2021-ci ildə 21 kilometrlik hissəsi İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın nəzarətinə keçən və İran yük maşınlarının Ermənistanın Sünik bölgəsi ilə gediş-gəlişinə məhdudiyyətlərlə üzləşdiyi "Gorus-Qafan" avtomobil yolunda Azərbaycanın keçid məntəqələri yaradılıb və onlardan beynəlxalq normalara uyğun rüsum tələb edilib. Eyni zamanda, Ermənistan Azərbaycanın qismən nəzarətində olan "Gorus-Qafan" hissəsinə alternativ yaratmaq üçün İran sərhədinə qədər "Aqarak-Sisyan" avtomobil yolunun tikintisini sürətləndirib.

Bunlarla paralel olaraq, İran da Ermənistan kimi ilk növbədə milli maraqlara cavab verən özünün nəqliyyat layihəsini - sovet dövründə Azərbaycanla Naxçıvan arasında qısaldılmış marşrut kimi mövcud olan Araz tranzit dəhlizinin yenidən işə salınması ideyasını irəli sürür. Tramp marşrutuna əks olan qüvvələr bu layihənin Zəngəzur dəhlizinə alternativ ola biləcəyi iddiaları ilə çıxış edirlər. Onların şərhlərinə görə, "Araz dəhlizi İrana Culfa stansiyası vasitəsilə Naxçıvan eksklavındakı dəmir yolu şəbəkəsinə inteqrasiya etməyə və beləliklə, Ermənistanın maraqlarından asılı olmayaraq, "Orta Dəhliz"lə inteqrasiya etməyə və yüklərini daşımağa imkan verəcək".

Doğrudur, hələ 2022-ci ildə Azərbaycanın İranın Şərqi Azərbaycan əyalətindən keçməklə alternativ dəhlizin tikintisinə dair İranla razılaşdığı bəyan edilmişdi, lakin sonra geosiyasi çətinliklər və infrastruktur həllərinin həddən artıq baha olması fonunda layihəyə maraq azaldı və Azərbaycan bütün diqqətini tamamilə Zəngəzur dəhlizinə yönəltdi.

* * *

Bu ilin avqust ayına qədər təklif olunan üç nəqliyyat variantından - Ermənistan ("İcevan-Qazax" yolu), İran ("Araz dəhlizi") və ya Türkiyə-Azərbaycan (Zəngəzur dəhlizi) - hansının həyata keçiriləcəyi ilə bağlı yekun sözü kimin deyəcəyi regionda intizarla gözlənilirdi. Bu sözü son dövrlərə qədər Cənubi Qafqazda kommunikasiyaya aktiv maraq göstərməyən ABŞ bəyan etdi. Prezident İlham Əliyev və Baş nazir Nikol Paşinyan Vaşinqtona səfər zamanı ölkələr arasında sülh sazişini parafladıqdan sonra Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu (TRIPP) layihəsi rəsmən təqdim olundu. Plana əsasən, Amerikanın özəl konsorsiumu Ermənistanın Sünik rayonu ərazisindən keçən Zəngəzur dəhlizini, infrastrukturun idarə edilməsi və ona bitişik ərazilərin inkişafı üçün 99 illik icarəyə götürəcək. Vaşinqton təhlükəsizlik funksiyalarını öz üzərinə götürməsə də, ABŞ-ın bu strateji regionda mümkün uzunmüddətli mövcudluğu faktı Rusiya və İranın kəskin etirazına səbəb olub. Tehran bu layihəni Vaşinqtonun İranın Qafqazla əlaqələrini kəsmək və quru blokadası yaratmaq cəhdi adlandırıb. Amma aydın məsələdir ki, Tehranın narahatlığı həm də Zəngəzur dəhlizinin son nəticədə Araz dəhlizinin ziyanına olaraq seçilməsi olub. İranın fikrincə, ABŞ-ın Cənubi Qafqazda maraqlarının ortaya çıxması anti-İran sanksiyalarını gücləndirmək üçün Tehranı iqtisadi cəhətdən bloklamaq üçün daha geniş strategiyaya uyğun gəlir. Bundan əlavə, Tehran Vaşinqtonun Zəngəzur dəhlizinin idarə edilməsində iştirakının ABŞ üçün əvvəllər bağlanmış Xəzər dənizinə birbaşa marşrut açmasından ciddi şəkildə ehtiyat edir.

İran Prezidenti M.Pezeşkianın Ermənistana səfəri zamanı N.Paşinyan onu əmin edib ki, gələcək Zəngəzur dəhlizi Ermənistan qanunvericiliyinə uyğun fəaliyyət göstərəcək. Lakin bu, nəinki mövcud ziddiyyətləri aradan qaldırmadı, həm də onların ciddiliyini ortaya çıxardı. Bakı və İrəvanın yanaşmalarında fundamental fərq qalmaqdadır: Ermənistan dəhlizin hər iki ucunda gömrük və sərhəd nəzarəti ilə tam hüquqlu keçid məntəqələrinin yaradılmasında israrlıdır, Azərbaycan isə buna Naxçıvana gedən malların məcburi yoxlanılması olmadan sərbəst nəqliyyat arteriyası kimi baxır. Ermənipərəst politoloqlar iddia edirlər ki, Yeni İpək Yolu daxilində "yük axınının potensial həcmlərini nəzərə alsaq, yalnız Azərbaycanın Ermənistana tranzit haqqı ödəməyə hazır olması İrəvan üçün iqtisadi maraq doğura bilər".

* * *

Təhlillər aydın göstərir ki, indi ABŞ kimi supergücün maraqlarına uyğun Zəngəzur dəhlizinin işə salınması birbaşa Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanmasından daha çox asılıdır. Doğrudur, müqavilə Vaşinqtonda keçirilən görüşdə ölkələrin rəsmiləri tərəfindən paraflanıb, lakin onun imzalanması yolunda hələ çoxlu maneələr var. Onlardan biri Ermənistan Konstitusiyasından Azərbaycanın Dağlıq Qarabağla bağlı hər hansı qeydi çıxararaq bu aktın müddəalarında mətnin dəyişdirilməsini tələb etməsidir.

Bundan başqa, Ermənistan cəmiyyətinin əhəmiyyətli bir hissəsi üçün ağrılı olan və elitanın qorxduğu Azərbaycanın irredentizmindən ehtiyat edən N.Paşinyanın rəsmi Bakı ilə sülh məsələsini ən azı 2026-cı il parlament seçkilərinə qədər təxirə salmaq istəyi var. Lakin bu seçkidə müxalifət qalib gəlsə, çox yəqin hazırkı formada saziş imzalanmayacaq, demək Zəngəzur dəhlizi məsələsi də açıq qalacaq. ABŞ prezidenti buna necə reaksiya verəcək, bunu zaman göstərəcək.

✍ *İcmalı hazırladı:*
***İlqar RÜSTƏMOV***
***XQ***

# Azərbaycandakı dini konfessiyaların rəhbərləri Vaşinqton Bəyannaməsinə dəstəklə bağlı birgə bəyanat qəbul ediblər

Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri Vaşinqton Bəyannaməsinə dəstəklə bağlı birgə bəyanat qəbul ediblər.

Bəyanatda deyilir:

"Biz, Azərbaycandakı dini konfessiyaların rəhbərləri Azərbaycan Prezidenti İlham Əliyevin "Konstitusiya və Suverenlik ili" elan etdiyi 2025-ci ildə - Böyük Qarabağ Zəfərinin 5-ci ildönümü ərəfəsində Azərbaycan xalqına yaşatdığı misilsiz qürur və sevincə görə Azərbaycan din xadimlərinin və dindarlarının dərin minnətdarlığını ifadə etməkdən böyük şərəf duyuruq.

Müdrik dövlətçilik təfəkkürü və dəmir siyasi iradə ilə Azərbaycanın ərazi bütövlüyünü və əzəli torpaqları üzərində suverenliyini tam bərpa etmiş Prezident İlham Əliyev beynəlxalq müstəvidə qələbəmizi bütün dünya ictimaiyyətinə nümayiş etdirdi. 2025-ci il avqustun 8-də ABŞ-ın Vaşinqton şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan arasında keçirilmiş Zirvə görüşünün nəticələrini tarixi əhəmiyyətli nailiyyət kimi qəbul edir, müzəffər öndərimizin uğurlu dövlətçilik siyasətinin məntiqi nəticəsi olaraq dəyərləndiririk.

Azərbaycan Prezidentinin dünyanın lider ölkəsində yüksək səviyyədə qəbulu zamanı imzalanmış sənədlərin dəyər və mahiyyəti onların tarixi əhəmiyyətini müəyyən edir.

Ölkəmizə qarşı uzun illər ərzində qərəz nümunəsi olan 907-ci düzəlişin ABŞ Prezidenti Donald Tramp tərəfindən nümayişkaranə şəkildə ləğv edilməsi Azərbaycanın dövlət rəhbərinə olan ehtiram və etimadın təcəssümü, Prezidentin şəxsində Azərbaycan dövlətinə edilən mühüm dəstək aktı oldu.

Bölgəmizdə yeni bir dövrün başlanğıcını qoyan Birgə Bəyannamə təkcə dövlətlərarası münasibətlərin normallaşmasının deyil, həm də sülhün, sabitliyin və firavanlığın bərqərar olunmasının rəsmi təsdiqidir. ATƏT-in Minsk qrupu və onunla bağlı strukturların fəaliyyətinə son qoyulması münaqişə səhifəsinin qapandığını və beynəlxalq hüquqa əsaslanan yeni reallıqların qəbul edildiyini göstərir. Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsi arasında maneəsiz bağlantının təmin olunması və Ermənistan ərazisindən keçəcək Zəngəzur dəhlizi – "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" layihəsinin reallaşdırılması, heç şübhəsiz, regionun iqtisadi inkişafı və xalqların rifahı üçün yeni imkanlar açır. Cənubi Qafqazda sülhün, sabitliyin və mehriban qonşuluq münasibətlərinin bərpa edilməsi üçün dönüş nöqtəsi olan bu tarixi sənəd münaqişə səhifəsinin qapanmasını, revanşizm meyillərinin istisna olunmasını və sülh yolunu təmin etməklə gələcək nəsillər üçün parlaq imkanlar açır. Beləliklə, Azərbaycanın dövlət başçısı Azərbaycan xalqına dünya miqyaslı daha bir Zəfər bəxş etdi, qlobal siyasi-diplomatik müstəvidə tarixi ədalətin bərpasına, suverenliyimizin ali məqamda təsdiqinə, ölkəmiz və bölgəmiz üçün yeni perspektivlərin açılmasına nail oldu.

Azərbaycandakı dini konfessiyaların rəhbərləri və dindarlar Vaşinqton razılaşmalarını sülh diplomatiyasının və müdrik liderliyin təntənəsi kimi yüksək dəyərləndirir, bu yola öz dəstək və xeyir-dualarını verirlər. Milli-mənəvi və ümumbəşəri dəyərlərə ehtiramı ilə seçilən öndərimiz, dünya müstəvisində ölkəmizə fəxarət yaşadan müzəffər liderimizin sülh və tərəqqi yönündə səy və əməllərinə, Azərbaycan xalqı və dövləti naminə fədakar fəaliyyətinə Ulu Rəbbimizdən rəvac diləyirik. Uca Yaradan xalqımızı, Vətənimizi, dövlətimizi və qalib dövlət rəhbərimizi qorusun! Amin!".

Bəyanat Azərbaycandakı dini konfessiyaların Məşvərət Şurasının sentyabrın 24-də keçirilən iclasında qəbul edilib.

# “Konstitusiya və Suverenlik İli”: qalibiyyətin təntənəsi

**Müstəqil Azərbaycan bu il dövlətçilik tarixində əlahiddə əhəmiyyətli bir sıra hadisələrin ildönümünü qeyd etməyə hazırlaşır. Noyabrda İkinci Qarabağ müharibəsində əldə etdiyimiz tarixi Zəfərin beşinci, müstəqil dövlətimizin ilk müstəqil Konstitusiyasının ümumxalq referendumu ilə qəbulunun isə 30-cu ildönümləri tamam olacaq.**



Hər iki tarixin xalqımız və dövlətimiz üçün xüsusi əhəmiyyəti var: Azərbaycan İkinci Qarabağ müharibəsindəki tarixi qələbəsi, eləcə də 2023-cü ilin sentyabr ayında keçirdiyi uğurlu lokal antiterror tədbirləri ilə təkcə ərazi bütövlüyünü və suverenliyini deyil, həm də 30 il əvvəl ümumxalq referendumu ilə qəbul olunmuş ilk milli Konstitusiyanın bütün inzibati-ərazi vahidləri üzrə hüquqi təsir gücünü, işləkliyini təmin edib. Azərbaycanın tarixi zəfərlərinin parlaq nəticələrindən biri də ondan ibarətdir ki, işğal faktına son qoyan respublikamız regionda ikinci erməni dövlətinin yaradılması cəhdlərinin qarşısını birdəfəlik alıb, separatizmin kökünü kəsib. Təkcə ərazi bütövlüyünü, beynəlxalq hüququ deyil, eyni zamanda, özünə güvənini, milli qürur və ləyaqət hissini bərpa edib. Qazanılan zəfərlər xalqımıza qalib kimi yaşamaq və qarşıya qoyduğu bütün hədəflərə doğru inamla addımlamaq imkanı verib.

Prezident İlham Əliyevin “Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi haqqında” 28 dekabr 2024-cü il tarixli Sərəncamı, bu mənada, dövlət müstəqilliyimizin hüquqi əsaslarının, suverenliyimizin möhkəmlənməsinin və milli dövlətçiliyin təməl prinsiplərinin təsdiqi baxımından xüsusi siyasi əhəmiyyətə malikdir. Məhz son beş ildə qazanılan qələbələr ölkə Konstitusiyasında ərazi bütövlüyü və suverenliklə bağlı əksini tapmış bir sıra vacib müddəaların praktik təsir imkanlarını təmin edib.

Konstitusiya hüququnun fundamental anlayışlarından biri suverenlikdir. Dövlət hakimiyyətinin ali, bölünməz və müstəqil olması kimi izah edilən bu anlayış siyasi-fəlsəfi və hüquqi səciyyə daşıyır. Konstitusiya isə suverenliyin hüquqi çərçivəsini müəyyənləşdirən, onun əsaslarını normativ şəkildə təsbit edən ali hüquqi sənəddir. Suverenlik dövlətin varlığını şərtləndirirsə, Konstitusiya hüquqi əsaslarını təsbit edir. Bu mənada, konstitusiya və suverenlik anlayışları arasında ayrılmaz bağlılıq, vəhdət mövcuddur. Konstitusiya dövlətin suveren iradəsinin hüquqi ifadəsi, suverenlik Konstitusiyanın işləkliyini təmin edən siyasi reallıqdır. Bu vəhdət Azərbaycanın milli dövlətçiliyini qoruyur, cəmiyyətin inkişafını təmin edir və beynəlxalq münasibətlərdə müstəqil mövqeyini möhkəmləndirir. Konstitusiya dövlət suverenliyinin etibarlı hüquqi təminatçısı olaraq qalır.

Ötən 30 ildə Konstitusiyamız yalnız hüquqi normalar toplusu deyil, həm də Azərbaycan xalqının dövlətçilik idealının təcəssümü kimi çıxış edib. Onun müddəaları dövlətin suverenliyi, ərazi bütövlüyü, insan hüquq və azadlıqları ilə yanaşı, məhkəmə hakimiyyətinin müstəqilliyinin təmini kimi mühüm funksiyalar daşıyıb. Təəssüflə vurğulamaq lazımdır ki, Ermənistanın işğalı, dövlət suverenliyimizin pozulması səbəbindən Konstitusiyada təsbit olunmuş müddəaların bir qisminin uzun illər ərzində tam mahiyyəti ilə reallaşdırılması mümkün olmayıb. Məsələn, məcburi köçün vəziyyətinə düşmüş bir milyondan çox azərbaycanlının mülkiyyət, təhlükəsiz, dinc şəraitdə yaşamaq və digər hüquqları pozulub.

Konstitusiya normalarının bütün ərazilərdə tam şəkildə bərqərar olması isə yalnız 2023-cü ilin sentyabrın 20-də, suverenliyimizin bərpasından sonra reallaşıb. Bununla da Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev təkcə torpaqlarımızın işğaldan azad edilməsində, suverenliyimizin bərpasında misilsiz rol oynayan sərkərdə kimi deyil, həm də Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsini de-yure bütün ərazilərimizdə təmin edən lider kimi tariximizə öz möhürünü vurub. Qazanılan qələbələrimiz həm də Konstitusiyamızın ali prinsiplərinin reallıqda təmin olunmasına imkan verib.

Azərbaycan tarixinin son iki əsrinə nəzər yetirdikdə, son beş ildə qazanılan zəfərlərin miqyası və əhəmiyyəti daha qabarıq görünür. Müstəqil Azərbaycan dünya xəritəsində kiçik əraziyə malik olmasına baxmayaraq, Prezident İlham Əliyevin liderliyi ölkəmizi beynəlxalq miqyasda nüfuzlu dövlətə çevirib. Müasir dünyada geosiyasi proseslər sürətlə dəyişir, yeni çağırışlar ortaya çıxır. Belə mürəkkəb şəraitdə Prezident İlham Əliyev qlobal siyasət ustadı kimi çıxış edir, Azərbaycanın maraqlarını bütün beynəlxalq platformalarda qətiyyətlə qoruyur.

Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan özünün mütərəqqi sülh gündəliyini son beş ildə Ermənistana və onun havadarlarına qəbul etdirməyə nail olub. Prezident İlham Əliyev birmənalı şəkildə bəyan edib ki, Ermənistanın hazırkı konstitusiyası dəyişməz qaldığı halda, bu ölkə ilə sülh sazişinin imzalanması mümkün deyildir. Hazırda iki ölkə arasında intensivləşən sülh danışıqlarına, etimad quruculuğu prosesinə xələl gətirən yeganə problem Ermənistanın konstitusiyasında, eləcə də dövlət atributlarında qonşu ölkələrin ərazi bütövlüyünü, suverenliyini təhdid edən müddəa və rəmzlərin yer almasıdır. Rəsmi Bakı hesab edir ki, sülhün əldə olunması, regionda sabit və təhlükəsiz əməkdaşlıq mühitinin formalaşdırılması üçün keçmişə qayıdış olmamalı, Ermənistandakı müəyyən qüvvələr əsassız revanşist düşüncələrindən əl çəkməlidirlər. Regionda sülhün ən yaxşı təminatı isə münasibətlərin normallaşdırılmasıdır. Ölkəmizin Ermənistan konstitusiyasının ərazi iddialarına yol açan müddəalarının dəyişdirilməsi ilə bağlı haqlı tələbinin gələn il ərzində Ermənistan tərəfindən icra ediləcəyi artıq heç bir şübhə doğurmur.

2025-ci il avqustun 8-də Vaşinqtonda ABŞ, Azərbaycan və Ermənistan liderlərinin imzaladıqları Birgə Bəyannamə Cənubi Qafqazda münaqişə səhifəsinin qapadılması, dayanıqlı sülhün reallığa çevrilməsi istiqamətində atılmış qətiyyətli addım olub. Bu sənəd təkcə iki ölkə arasında uzun illər davam edən gərginliyə son qoyulması deyil, həm də Ermənistanda ictimai düşüncəni zəhərləyən köhnə ideoloji qəliblərin, revanşist mövqelərin iflası deməkdir. Artıq Ermənistan cəmiyyəti də sülh istiqamətində atılan addımları müsbət qarşılayır, uzunmüddətli qarşıdurmanın ölkə üçün iqtisadi gerilik, siyasi təcrid və regional əlaqələrdən kənarda qalmaq kimi nəticələr verdiyini etiraf edir.

Bütün bunlar bir daha təsdiq edir ki, suverenlik hər bir ölkədə dövlətin hərbi-siyasi resursları, iqtisadi gücü ilə yanaşı, həm də konstitusion hüquqi əsaslarla təmin olunmalıdır. Bu kontekstdə onu da xatırlatmaq lazımdır ki, 1995-ci ildə xalqımızın Ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq noyabrın 12-də ümumxalq referendumu yolu ilə qəbul edilən Azərbaycan Konstitusiyasının bir sıra mühüm müddəaları dövlətin ərazi bütövlüyünə və suverenliyinə hüquqi təminatlar yaradıb.

Konstitusiya dövlətin suverenliyi ilə bağlı bir sıra fundamental müddəaları özündə cəmləşdirən ali hüquqi sənəddir. Bu müddəalar yalnız normativ çərçivə yaratmır, həm də dövlətin siyasi müstəqilliyini, xalqın iradəsini və milli dövlətçiliyin dayanıqlılığını təmin edən konseptual prinsiplər qismində çıxış edir. Məsələn, əsas Qanunun 2-ci maddəsində Azərbaycan Respublikasının suveren dövlət olduğu təsbit edilir. 7-ci maddədə dövlətin müstəqilliyi, demokratik, hüquqi, dünyəvi və unitar xarakteri hüquqi norma kimi ifadə olunur.

Konstitusiyanın 11-ci maddəsi də bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Həmin maddədə Azərbaycan Respublikasının ərazisi vahid, toxunulmaz və bölünməz olduğu birmənalı təsbit olunub. Bu müddəa separatizmə, yaxud ərazi iddialarına qarşı konstitusion sipər rolunu oynayır. Dövlətin vahidliyi və unitar xarakteri ilə bağlı konstitusion müddəalar həm də milli təhlükəsizliyin fundamental təminatıdır. Bu və digər müddəaların hüquqi şərhi fonunda deyə bilərik ki, Azərbaycan Respublikasının Konstitusiyası ərazi bütövlüyünü və suverenliyi konkret hüquqi təminatlar vasitəsilə qoruyur.

Xüsusi vurğulamaq istərdik ki, müstəqil Azərbaycanın ilk Konstitusiyasının müddəalarının üçdəbirinin sırf insan hüquq və azadlıqları ilə bağlı olması Ümummilli lider Heydər Əliyevin haqqa, ədalətə tapınan lider olduğunu təsdiqləyir. Ulu öndərin rəhbərliyi ilə hazırlanmış Konstitusiyada dövlətin unitar quruluşunun birmənalı təsbit edilməsi torpaqları işğal altında olan ölkənin dünyaya və Ermənistana verdiyi sərt mesaj olub. Başqa sözlə, Azərbaycan Konstitusiyasına dövlətin unitar quruluşu ilə bağlı müddəa daxil etməklə, ərazisində separatizmin hansısa formada legitimləşdirilməsinə yol verməyəcəyini göstərib.

Azərbaycan Konstitusiyasında hakimiyyət bölgüsü prinsipləri dəqiq əksini tapıb, zamanın tələbi ilə səsləşən məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə fundamental hüquqi zəmin yaradılıb. 1998-ci il 1 dekabr tarixli “Məhkəmələr və hakimlər haqqında” qanunla ölkədə üçpilləli məhkəmə hakimiyyəti formalaşdırılıb. Aparılan məhkəmə-hüquq islahatı nəticəsində keçmiş sovetlər birliyindən miras qalmış ölkənin hüquq sistemi demokratik prinsiplər əsasında tamamilə yenidən qurulub, Konstitusiya Məhkəməsi təsis olunub, 2000-ci ildən yeni, əvvəlki məhkəmə sistemindən köklü surətdə fərqlənən və insan haqlarının müdafiəsinə daha etibarlı təminat verən üçpilləli müstəqil məhkəmə sistemi fəaliyyətə başlayıb. Həmin vaxtdan etibarən keçmiş sovet respublikaları arasında demək olar ki, ilk dəfə Azərbaycanda həbs və insan hüquqlarını məhdudlaşdıran digər prosessual məcburiyyət tədbirlərinin tətbiqi məhkəmələrin müstəsna səlahiyyətinə aid edilib. Həmçinin məhkəmələr üzərində hər hansı, o cümlədən prokuror nəzarəti ləğv olunub, demokratik məhkəmə nəzarəti institutu formalaşdırılıb.

Azərbaycan Konstitusiyası son 30 ildə ölkəmizdə insan hüquqlarının qorunmasına, qanunun aliliyinə xidmət edən məhkəmə-hüquq islahatlarının davamlılığını və ardıcıllığını da təmin edib. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş mütərəqqi məhkəmə-hüquq islahatlarını 2003-cü ilin oktyabrından inamla davam etdirən və yeni dövrün tələblərinə uyğun təkmilləşdirən Azərbaycan Prezidenti İlham Əliyev hüquqi dövlət quruculuğu prosesinin mühüm tərkib hissəsi olaraq məhkəmə hakimiyyətinin yeniləşdirilməsini mühüm vəzifələrdən biri kimi müəyyənləşdirib. Hüquqi dövlət quruculuğuna xidmət edən bu strategiyanın nəticəsidir ki, məhkəmələrin müstəqilliyinin möhkəmləndirilməsinə, obyektiv və şəffaf şəraitdə hakim korpusunun formalaşdırılmasına, bu sahədə şəffaflığın təmin edilməsinə, elektron xidmətlərin genişləndirilməsinə xidmət edən islahatlar son illər daha böyük vüsət alıb.

Azərbaycan Prezidenti İlham Əliyev məhkəmələrə olan ictimai inamın möhkəmləndirilməsi baxımından, ilk növbədə, hakim korpusunun sağlamlaşdırılmasını və yeniləşdirilməsini, seçim prosesinin tamamilə şəffaf və ədalətli meyarlar əsasında həyata keçirilməsini ilk gündən mühüm vəzifələrdən biri hesab edib. Ölkəmizdə 2004-cü ildən geniş vüsət almış islahatların əsas hədəfi məhkəmə-hüquq sistemini müasirləşdirmək, məhkəmə orqanlarının özünüidarə imkanlarını genişləndirmək və ədalət mühakiməsinin səmərəliliyini artırmaqdır.

Bu istiqamətdə mühüm addımlardan biri də 2004-cü ildə “Məhkəmə-Hüquq Şurası haqqında” qanunun qəbulu və həmin qanun əsasında 2005-ci ildə Məhkəmə-Hüquq Şurasının yaradılması olub. Bu il 20 illik yubileyini qeyd edən Məhkəmə-Hüquq Şurasının əsas məqsədləri məhkəmə sisteminin müstəqilliyini, məhkəmələrin özünüidarə funksiyalarını gücləndirmək, hakimlərin sosial vəziyyətini, iş şəraitini yaxşılaşdırmaq, ədalət mühakiməsinin səmərəliliyini, vətəndaş məmnunluğunu təmin etməkdir.

Azərbaycan Respublikasında müstəqil məhkəmə sisteminin təmin edilməsi, vakant hakim vəzifələrinə hakim olmayan namizədlərin seçilməsinin təşkili, hakimlərin fəaliyyətinin qiymətləndirilməsi, onların iş yerinin dəyişdirilməsi, vəzifədə irəli çəkilməsi, intizam məsuliyyətinə cəlb edilməsi və digər məsələlərin həlli ötən 20 ildə Şuranın xüsusi diqqət mərkəzində olub. Son 20 il ərzində hakimlərin sayı iki dəfədən çox artırılıb, məhkəmə aparatı işçilərinin sayı isə 75 faiz genişləndirilib. 20-dək yeni regional məhkəmə – o cümlədən apellyasiya, ağır cinayətlər, kommersiya və hərbi məhkəmələr – yaradılmış, məhkəmə infrastrukturunun təkmilləşdirilməsi məqsədilə mühüm tədbirlər həyata keçirilib. Məhkəmə hakimiyyətinin ali statusuna uyğun olaraq yeni məhkəmə binaları tikilib və istifadəyə verilib, müasir texnologiyalarla təchiz edilib. Məhkəmə sistemində innovativ yanaşmaların və elektron xidmətlərin tətbiqi, genişləndirilməsi diqqət mərkəzində saxlanılıb. Xüsusi vurğulamaq istərdik ki, azad edilmiş ərazilərdə aidiyyəti üzrə yeni regional apellyasiya və ixtisaslaşmış kommersiya, inzibati, ağır cinayətlər və hərbi məhkəmələrin yaradılması, onların müasir binalarla təmin olunması da hazırda xüsusi diqqət mərkəzindədir.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2019-cu il 3 aprel tarixində imzalanmış “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” Fərman ədliyyə və məhkəmə sistemində yeni mərhələni müəyyən edib, islahatların müasir çağırışlara uyğun davam etdirilməsinə təkan verib. Məhkəmə-Hüquq Şurasının təşkilatçılığı ilə həmin fərmandan irəli gələn vəzifələrin icrası, eləcə də ölkəmizin məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi istiqamətində ardıcıl və sistemli tədbirlər həyata keçirilir.

Sonda xüsusi qeyd etmək istərdik ki, 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan olunması həm də gələcək nəsillərə ünvanlanmış siyasi mesajdır. Bu addım hər bir vətəndaşa dövlətin ali hüquqi sənədinə hörmətlə yanaşmaq, onun müddəalarını qorumaq və həyata keçirmək, ərazi bütövlüyü və suverenliyinə töhfə vermək məsuliyyətini xatırladır. Bu sənədin aliliyinin qorunması hər bir vətəndaşın borcu, suverenliyin möhkəmləndirilməsi isə dövlətimizin gələcək inkişafının başlıca şərtidir.

*✍ Abs RZAYEV,*
*Bakı Şəhər Xəzər Rayon Məhkəməsinin sədri*

# Ailə məsuliyyəti – qadın səlahiyyəti

**“Dünya mürəkkəb və çoxşaxəli böhranlarla üz-üzədir. Silahlı münaqişələr, iqlim dəyişiklikləri, sürətli urbanizasiya və rəqəmsal təhlükələr cəmiyyətlərin sabitliyini sarsıdır”. Bu sözləri Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Qadınlara dair Dördüncü Dünya Konfransının 30-cu ildönümünə həsr olunmuş BMT Baş Assambleyasının Yüksək Səviyyəli İclası çərçivəsində Türkiyənin təşkil etdiyi və Azərbaycanın bir sıra ölkələrlə birgə həmtəşkilatçı olduğu “Birlikdə daha güclüyük: Ailədən qaynaqlanan qlobal həmrəylik” mövzusunda yan tədbirdə çıxışı zamanı deyib.**




Bahar Muradova bildirib ki, müasir dövrdə ən etibarlı dayaq ailədir və Azərbaycan üçün ailə hər zaman yalnız şəxsi həyatın deyil, həm də sosial münasibətlərin, milli həmrəyliyin və ictimai sabitliyin əsası olub. “Hazırda ölkəmizdə ailə siyasəti dövlətin inkişaf strategiyasının prioritet istiqamətlərindəndir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi bu sahədə uşaq hüquqlarının müdafiəsi, ailə dəyərlərinin gənclər arasında təbliği, sosial rifahın yüksəldilməsi, məişət zorakılığı ilə mübarizə və zərərli rəqəmsal məzmunlara qarşı tədbirlər kimi məsələləri diqqət mərkəzində saxlayır”, – deyə komitə sədri əlavə edib.

O, Azərbaycanın son illərdə həyata keçirdiyi hüquqi islahatlar barədə danışaraq bu baxımdan nikah yaşının yalnız 18-dən başlamasını, yaxın qan qohumları arasında nikaha məhdudiyyətlərin tətbiq edilməsini, erkən evlilik və yetkinlik yaşına çatmayanlarla dini nikah bağlanmasına şərait yaradanlara qarşı inzibati və cinayət məsuliyyətinin sərtləşməsini vurğulayıb. Bildirib ki, Azərbaycan ailə siyasətinə həm milli dəyərlərin qorunması, həm də müasir beynəlxalq standartların tətbiqi prizmasından yanaşır.

O əlavə edib ki, Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğanın və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın dəstəklədiyi “Sıfır tullantı” təşəbbüsü yalnız ekoloji layihə deyil, həm də ailə institutunun həmrəylik platforması kimi dəyərlidir. “Üç əsas istiqamətdə beynəlxalq əməkdaşlığı vacib hesab edirik. Bu, ilk növbədə, sosial həmrəyliyin möhkəmləndirilməsi – milli səviyyədə atılan addımların qlobal miqyasda paylaşılması ola bilər. Digər istiqamət uşaqların qorunması – xüsusilə rəqəmsal dövrdə onların təhlükəsiz və sağlam mühitdə böyüməsini təmin etməkdir. Üçüncü isə qlobal tərəfdaşlıq – “ailə diplomatiyası” platformalarının qurulması və ən yaxşı təcrübələrin mübadiləsi məsələsidir”, – deyə komitə sədri vurğulayıb.

Bahar Muradova “Gender bərabərliyinə, bütün qadınların və qızların səlahiyyətlərinin artırılmasına nail olmaq üçün Pekin Bəyannaməsi və Fəaliyyət Platformasının yenilənməsi, resursların ayrılması və icrasının sürətləndirilməsi” mövzusunda keçirilən iclasda da çıxış edib.

O, Pekin Bəyannaməsi və Fəaliyyət Platformasının illərdir gender bərabərliyi, qadınların və qızların səlahiyyətlərinin artırılması istiqamətində beynəlxalq səylərə istiqamət verdiyini qeyd edərək bərabərlik, inkişaf və sülh məqsədlərinə sadiqliyin dəyişməz olduğunu vurğulayıb. Bu sahədə son 30 ildə göstərilən qlobal səylərin mühüm nəticələr doğurduğunu diqqətə çatdıraraq, Azərbaycanda da qadınların təhsil, səhiyyə, məşğulluq və qərarqəbuletmədə iştirakının gücləndirilməsi üçün ardıcıl islahatların aparıldığını deyib.

Qadın əməyinin qadağan olunduğu sahələrin sayının minimuma endirildiyini, ödənişli atalıq məzuniyyətini nəzərdə tutan qanun layihəsinin hazırlandığını, məişət zorakılığı, uşaq evlilikləri və qohum nikahlarını tənzimləyən qanunvericilik bazasının təkmilləşdirildiyini, nikah yaşı ilə bağlı istisnaların ləğv edildiyini diqqətə çatdıran komitə sədri bildirib ki, bütün bunlar həm qadınların hüquqlarının qorunmasına, həm də ailə və cəmiyyət arasında bağların möhkəmlənməsinə xidmət edir. O qeyd edib ki, xüsusilə azad olunmuş ərazilərdə yaradılan müasir infrastruktur, smart şəhər və kəndlər, rəqəmsal xidmətlər və inkubasiya proqramları əhaliyə bərabər imkanlar təmin etməkdədir.

Azərbaycanın qlobal təşəbbüslərə də mühüm töhfələr verdiyini vurğulayan B.Muradova cari ilin iyul ayında ölkəmizdə ilk dəfə İqtisadi Əməkdaşlıq Təşkilatının Qadınlar Forumunun keçirildiyini, eləcə də Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə çərçivəsində Qadınlar Şurasının yaradılması təşəbbüsünün irəli sürüldüyünü diqqətə çatdırıb. Bildirib ki, üzv ölkələrin dəstəklədiyi bu orqan qadınların təhsil, əmək bazarı, iqlim və sülh quruculuğu, habelə qadın hüquqları və gender bərabərliyi sahəsində AQEM çərçivəsində əməkdaşlıq və dialoqu təşviq edəcək.

*✍ Zərifə HÜSEYNOVA*
*XQ*

# BMT-də islahat zərurəti etiraf olunur

## *Qafqazda davamlı sülh isə dünyaya ünvanlanan barış mesajıdır*

**Hazırda Rusiya–Ukrayna, HƏMAS və İsrail arasındakı müharibələr qlobal gündəliyin əsas mövzularındandır. Bu münaqişələrdə tərəflər arasında konsensus əldə etmək hələ də mümkün olmayıb. Əsas səbəb isə siyasi iradənin və tərəflərin kompromisə açıq olmamasıdır. Bu isə onu göstərir ki, hər hansı münaqişənin həlli üçün ilk növbədə qəti siyasi iradə tələb olunur.**

Azərbaycan və Ermənistan arasında 30 il davam edən Qarabağ münaqişəsi artıq sülh mərhələsinə qədəm qoymaqdadır. Bunun səbəbi 2020-ci ildə İkinci Qarabağ müharibəsindən dərhal sonra rəsmi Bakının sülh təşəbbüsü göstərməsidir. Azərbaycan konstruktiv mövqeyini ortaya qoyaraq, qarşı tərəfə sülh əlini uzatdı və regionda yeni əməkdaşlıq imkanlarının yaranmasına zəmin yaratdı. Düzdür, Ermənistanın siyasi rəhbərliyi bu məsələdə müəyyən müddət tərəddüd və gecikmələr etdi, amma ötən ay Vaşinqtonda Bakı və İrəvan arasında sülh sazişinin paraflanması münaqişəyə son qoydu. Birgə Bəyannamə həm region, həm də beynəlxalq müstəvidə tarixi əhəmiyyət daşıyır. Bunu BMT-nin Baş katibi Antonio Quterreş BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışında bəyan etdi. O, Ermənistan və Azərbaycan arasında Vaşinqtonda imzalanmış Bəyannamənin bütün dünya üçün müsbət siqnal adlandırıb. Baş katib nitqində ötən ilin beynəlxalq münasibətlərinə nəzər salaraq, bəzi müsbət hadisələri vurğulayıb. Onların sırasında Kamboca və Tayland arasında atəşkəsin əldə olunması, ABŞ-ın vasitəçiliyi ilə Ermənistanla Azərbaycan arasında sülh sazişinin paraflanması xüsusi vurğulanıb: “Bunlar ümidverici nümunələrdir. Lakin çoxsaylı böhranlar hələ də həllini tapmayıb”. Göründüyü kimi, Azərbaycan və Ermənistan arasında paraflanan saziş qlobal diplomatiya üçün nümunə sayılır. İllərlə davam edən münaqişələr diplomatik vasitələrlə həll oluna bilər və tərəflərin nümayiş etdirdiyi siyasi iradə prosesin ən vacib şərtidir. Qarabağ münaqişəsinin birdəfəlik həlli regional layihələrə, enerji və nəqliyyat əlaqələrinin inkişafına müsbət təsir göstərəcək.



Qeyd edək ki, Prezident Donald Tramp 2025-ci ildə ikinci dəfə ABŞ rəhbərliyinə qayıtdıqdan sonra bir sıra beynəlxalq münaqişələrin həllinə vasitəçilik edib. Onun təşəbbüsləri ilə əldə olunan atəşkəs və sülh razılaşmaları müxtəlif regionlarda müsbət nəticələr verib. Vaşinqtonun vasitəçiliyi ilə Ermənistan və Azərbaycan arasında əldə olunan razılaşmaya əsasən, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında Zəngəzur dəhlizinin (TRIPP) açılması nəzərdə tutulub. Bu, “Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutu” adlandırılıb. Eyni zamanda, iyul ayında Kamboca və Tayland sərhədində baş verən silahlı toqquşmalardan sonra ABŞ Prezidenti Donald Tramp bu iki ölkə arasında atəşkəsin əldə edilməsinə nail olub. İsrail və İran arasında baş verən və 12 gün davam edən müharibədə tam atəşkəs razılaşması əldə olunub. İki nüvə ölkəsi olan Pakistan və Hindistan arasında da atəşkəsin təmin olunmasında ABŞ-ın vasitəçiliyi mühüm rol oynayıb. Bu təşəbbüs ABŞ Konqresində alqışlanıb, bəzi deputatlar Donald Trampın Nobel Sülh Mükafatına namizədliyinin irəli sürülməsini təklif ediblər. Bundan başqa, Ağ Ev Ruanda və Konqo Demokratik Respublikası arasında da atəşkəs və sülh razılaşmalarının əldə olunmasına yardım göstərib.

Amma burada diqqətçəkən vacib məqam BMT kimi ali beynəlxalq qurumun müharibələrin qarşısının alınmaqda acizlik göstərməsidir. Təşkilatın əsas funksiyası dünyanın sülh və təhlükəsizliyini qorumaq, dövlətlər arasında əməkdaşlığı təmin etmək və beynəlxalq problemləri həll etməkdir. Qurumun öz öhdəliklərini yetirə bilməməsi ona olan etimadı azaldır. ABŞ Prezidenti Donald Tramp BMT Baş Assambleyasının 80-ci sessiyasında çıxış edərək bir sıra qlobal məsələlərə dair sərt mövqeyini ortaya qoyub. Ağ Evin rəhbəri BMT-ni münaqişələrin həllində səmərəsiz olmaqda ittiham edərək, “BMT-nin məqsədi nədir?“ sualını səsləndirib. O, özünün bir sıra beynəlxalq məsələlərdə vasitəçiliyini və BMT-nin bu məsələlərdə iştirak etmədiyini nəzərə çatdırıb.

ABŞ liderinin çıxışı bir daha BMT-də və onun bütün qurumlarında islahatların vacibliyini gündəmə gətirir. Bir sıra ölkələr, o cümlədən Azərbaycan Təhlükəsizlik Şurasının daimi üzvlərinin sayının artırılmasını dəstəkləyir. BMT-nin əsas problemlərindən biri odur ki, yalnız Təhlükəsizlik Şurasının qətnamələri bütün üzv ölkələr üçün icbaridir. Baş Assambleyanın qərarları və BMT konvensiyaları isə tövsiyə xarakteri daşıyır və üzv dövlətlərin könüllü razılığına əsaslanır. Təşkilatın effektiv olmaması əsasən qətnamələrin icra edilməməsi ilə bağlıdır. Məsələn, bir vaxtlar Təhlükəsizlik Şurası Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarından hərbi qüvvələrinin qeyd-şərtsiz çıxarmasını tələb edən 4 qətnamə qəbul etmişdi, amma Ermənistan onları yerinə yetirmədi. Eyni tendensiya İsrail–Fələstin və İsrail–Suriya münasibətlərində də müşahidə olunur. Bu, onu göstərir ki, BMT qəbul etdiyi qərarların həyata keçirilməsində çətinliklərlə üzləşir və təşkilatda ciddi islahatların aparılmasına ehtiyacı var.

Bu gün bir çox ölkə BMT Təhlükəsizlik Şurasında daimiz üzvlük uğrunda mübarizə aparır. Türkiyə və Almaniya özlərini namizəd kimi təqdim etsələr də, bunun reallaşması indiki məqamda mümkün görünmür. BMT Nizamnaməsinə görə, islahat yalnız bütün daimi üzvlərin razılığı ilə baş tuta bilər.

*✍ Musa BAĞIRLI*
*XQ*

### Ekspert rəyi



**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**

– Hər bir ölkə öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməlidir. Əgər ərazilər işğal altındadırsa, bu, dövlətin təbii haqqıdır. Bunun üçün bütün vasitələrdən – həm diplomatik, həm də hərbi gücdən istifadə olunmalıdır. Biz də məhz bunu edərək, həm region dövlətlərinə, həm də dünya birliyinə gücümüzü, diplomatik çevikliyimizi nümayiş etdirdik.

Bizim buna tam hüququmuz var idi. Çünki beynəlxalq hüquq normalarına əsaslanırdıq. Üstəlik, 1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul olunmuş, Azərbaycanın xeyrinə olan qətnamələrə söykənirdik. Bütün bu amilləri nəzərə alaraq, suverenliyimizi bərpa etməyimiz, əlbəttə, digər dövlətlər üçün də nümunə olmalıdır.

Ukraynalı bir sıra ekspertlər Azərbaycanın təcrübəsini nümunə göstərərək hesab edirlər ki, onlar da Azərbaycan kimi həm diplomatiya, həm də hərbi sahədə analoji addımlar atmalıdırlar. Bu, onlar üçün bir örnək rolunu oynayır.

Eyni zamanda, 44 günlük müharibədən dərhal sonra biz sülh təşəbbüsü ilə çıxış edərək 5 prinsip irəli sürdük. Vaşinqtonda paraflanan Ermənistan–Azərbaycan sülh müqaviləsi məhz həmin prinsiplər əsasında hazırlanıb. Əslində, müqavilənin layihəsi tam şəkildə Azərbaycan tərəfindən irəli sürülən prinsiplərə söykənir. Bu isə o deməkdir ki, Azərbaycan artıq kifayət qədər güclü aktora çevrilib. Dünya birliyi Azərbaycan reallıqlarını başa düşür, yüksək qiymətləndirir.

### Ekspert rəyi



**Rizvan HÜSEYNOV,**
**politoloq**

– Əslində, əldə olunan sülhün əsas müəllifi Azərbaycandır. Ölkəmiz 44 günlük Vətən müharibəsində və cəmi birgünlük antiterror əməliyyatı nəticəsində sülhə nail oldu. Bu, Ermənistanın və onun arxasında duran havadarlarının deyil, məhz ölkəmizin qələbəsidir.

Uzun illərdir ki, Minsk qrupunun həmsədrləri — Fransa, Rusiya və ABŞ ədalətli sülhün qarşısını alır, müxtəlif bəhanələrlə prosesə əngəl törədir, Ermənistanın işğalçılıq siyasətinə isə açıq və gizli dəstək verirdilər. BMT isə həmin dövrdə susurdu. Halbuki bu təşkilatın Ermənistan ordusunun Azərbaycan torpaqlarından çıxarılmasını tələb edən 4 qətnaməsi vardı. Amma nə həmin qətnamələr icra olundu, nə də onların icrası üçün real addım atıldı. Bugünkü reallıq isə tamam fərqlidir. Azərbaycan həm hərbi, həm siyasi, həm də diplomatik müstəvidə qalib ölkədir. Ermənistan artıq sülhə razılaşmağa məcburdur. Bu gün sülhün çoxlu “şərikləri” ortaya çıxsa da, Azərbaycan müdrik siyasət göstərərək bunu qabartmır. Çünki əsas məqsədimiz bölgədə davamlı sülh və sabitliyin təmin edilməsidir.

Müasir tarixdə belə bir nümunə yoxdur ki, bir ölkə işğal altında olan bütün torpaqlarını öz gücü ilə azad etsin. Azərbaycan bu mənada yeganə pozitiv misaldır. Məhz buna görə də indi müxtəlif qüvvələr bu nümunədən istifadə edərək özlərinə siyasi portfel formalaşdırmağa çalışırlar. ABŞ-da Donald Trump, BMT-nin Baş katibi Antonio Quterreş və başqaları bu prosesin dəstəkçiləri kimi çıxış edirlər. Nə deyirik, təki ədalətli sülhün dəstəkçiləri çox olsun.

# Qazaxıstan lideri Qafqazda sülhü alqışlayır

## *O, sivilizasiyaların üz-üzə gəlməsini alın yazısı deyil, seçim hesab edir*

**Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev sentyabrın 24-də BMT Baş Assambleyasının 80-ci sessiyasının ümumi müzakirələrində çıxışında Ermənistan–Azərbaycan münasibətləri barədə də danışıb. O deyib: “Biz həmçinin ABŞ Prezidentinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşmasını alqışlayırıq. Bu onu göstərir ki, hətta uzun müddətdir davam edən münaqişələr də diplomatiya və sağlam düşüncə yolu ilə həll edilə bilər. Bu prinsipi rəhbər tutan Qazaxıstan ardıcıl olaraq eskalasiya əvəzinə diplomatiyanın, güc əvəzinə dialoqun tərəfdarıdır. Mövcud geosiyasi gərginlik bəzən bəzi liderləri sivilizasiyaların toqquşmasının qaçılmaz olduğunu iddia etməyə sövq edir. Lakin bu yanaşma nə alın yazısı, nə də taledir. Bu, siyasi seçimdir”.**

Əlbəttə, təkcə cənab Tokayevin sözləri deyil, bəşəriyyətin minilliklərə söykənən təcrübəsi sübut edib ki, müharibələr nə qədər uzun sürsə də, sonda danışıqlar masası ətrafında bitir. Tarixdə istər qədim Çin filosoflarının, istərsə də yunan müdriklərinin, orta əsrlərin böyük dövlət adamlarının fikirlərinə nəzər salsaq, bir ortaq məxrəcə gəlmək olar: müdriklik hər zaman silahı kənara qoyub, sözə və anlaşmaya üstünlük verməkdir. Ən böyük imperiyaların süqutu, saysız-hesabsız qırğınların acı nəticələri insanlara göstərib ki, zorakılıq nə ədalət, nə də davamlı inkişaf gətirir. Əksinə, əməkdaşlıq, qarşılıqlı etimad və dialoq hər zaman davamlı və dayanıqlı sülhün açarı olub.

Bu prinsipin aktuallığı müasir beynəlxalq münasibətlər sistemində də hər gün özünü təsdiqləyir. Böyük münaqişələrin, dərin böhranların həlli yalnız güclərin toqquşması ilə deyil, qarşılıqlı kompromislərlə mümkündür. Bu baxımdan diplomatiyanın qiyməti daha da artır. 80 il öncə BMT də, onun Baş Assambleyası da elə buna görə – dövlətlərin ən yüksək səviyyədə fikir mübadiləsi aparması, ortaq mövqelər tapması üçün formalaşıb.

BMT Baş Assambleyasının 80-ci sessiyasında çıxışında Qazaxıstan Prezidenti məhz bu mühüm ideyanı bir daha gündəmə gətirdi. Onun səsləndirdiyi fikirlər təkcə Qazaxıstanın deyil, bütün regionun və hətta qlobal miqyasda maraqlı tərəflərin diqqətinə çatdırılan siyasi mesajdır.



Qazaxıstan lideri çıxışında Ermənistan–Azərbaycan münasibətlərinə toxunaraq ABŞ Prezidentinin vasitəçiliyi ilə aparılan dialoqu alqışladı. Bu məqam xüsusilə diqqətəlayiqdir. Çünki Qazaxıstan postsovet məkanında neytral və balanslı siyasət yürütməyə çalışan ölkə kimi münaqişələrin zorla deyil, diplomatiya ilə həll olunmasını ardıcıl şəkildə vurğulayır.

Tokayevin sözlərindən belə nəticə çıxır ki, Ermənistan–Azərbaycan qarşıdurması artıq tarixi mərhələsini başa vurur və yeni reallıq formalaşır. Bu reallığın əsasında isə güc deyil, sağlam düşüncə dayanmalıdır. Qazaxıstan Prezidenti açıq şəkildə göstərdi ki, diplomatiya yalnız gözəl ideal deyil, həm də praktik nəticə verən mexanizmdir. Onun “hətta uzun müddətdir davam edən münaqişələr də diplomatiya və sağlam düşüncə yolu ilə həll edilə bilər” fikri konkret olaraq Cənubi Qafqazda baş verən proseslərə işarədir.

Əslində, 30 ildən çox davam edən Ermənistan–Azərbaycan münaqişəsinin gedişatına nəzər saldıqda bu reallıq özünü açıq göstərir. Müharibələrin gətirdiyi dağıntılar, minlərlə insanın həyatını itirməsi, yüz minlərlə insanın köçkün düşməsi – bütün bunlar zorakı yanaşmanın çıxış yolu olmadığını bir daha sübut etdi. Lakin Azərbaycanın güc tətbiqi ilə öz ərazi bütövlüyünü bərpa etməsi də yeni mərhələdə sülhün əsası kimi çıxış edir. Yəni, münaqişənin hərbi mərhələsi başa çatdıqdan sonra danışıqların məntiqi zərurətə çevrilməsi məhz Tokayevin vurğuladığı “siyasi seçim”dir.

K.Tokayevin çıxışı gəlişigözəl söz yığını deyil, Qazaxıstanın xarici siyasət kursunun davamıdır. Qazaxıstan uzun illər müxtəlif regionlarda vasitəçilik missiyaları həyata keçirib. Məsələn, Astana prosesi çərçivəsində Suriyadakı böhranla bağlı danışıqlara ev sahibliyi etməsi, nüvə silahlarından imtina edən ilk postsovet ölkəsi kimi nümunə göstərməsi Qazaxıstanın diplomatiyaya verdiyi önəmin göstəricisidir. Bu kontekstdə Tokayevin Ermənistan–Azərbaycan məsələsində də diplomatiyanı əsas çıxış yolu kimi göstərməsi təəccüblü deyil. Onun “eskalasiya əvəzinə diplomatiyanın, güc əvəzinə dialoqun tərəfdarıyıq” fikri, əslində, bütün regiona ünvanlanmış çağırışdır. Çünki Cənubi Qafqaz yalnız Bakı və İrəvan üçün deyil, həm də Mərkəzi Asiya ölkələri üçün strateji əhəmiyyət kəsb edir. Burada yaranacaq sabitlik Qazaxıstanın Avropa ilə ticarət yollarına çıxışı, enerji layihələrinin təhlükəsizliyi və regional əməkdaşlıq imkanlarının genişlənməsi deməkdir.

Qazaxıstan liderinin çıxışında mühüm bir tezis də var. O bildirir ki, sivilizasiyaların toqquşması alın yazısı və ya tale deyil, bu, siyasi seçimdir”. Bu fikir, əslində, “sivilizasiyaların toqquşması” nəzəriyyəsini müdafiə edənlərin arqumentlərinə cavabdır. Tokayev göstərir ki, toqquşma qaçılmaz deyil. Əksinə, siyasi iradə, düzgün seçim, liderlərin məsuliyyəti bəşəriyyətin gələcəyini müəyyənləşdirir. Bu yanaşma hazırkı qlobal şəraitdə xüsusilə dəyərlidir. Çünki beynəlxalq sistem parçalanma və qarşıdurma tendensiyalarından əziyyət çəkir. ABŞ–Çin rəqabəti, Rusiya–Qərb gərginliyi, Yaxın Şərqdəki böhranlar və digər regional münaqişələr göstərir ki, dialoqun alternativi yoxdur. Tokayevin mesajı belə situasiyada beynəlxalq ictimaiyyət üçün xəbərdarlıq rolunu oynayır: liderlərin seçimləri xalqların taleyini müəyyənləşdirir.

Tokayevin BMT tribunasından səsləndirdiyi fikirlər, sadəcə, diplomatik ritorika deyil, həm də müasir dünyanın inkişaf yoluna dair strateji yanaşmadır. Onun Ermənistan–Azərbaycan münasibətləri kontekstində dediyi fikirlər həm regionun reallıqlarına uyğun gəlir, həm də qlobal miqyasda qəbul olunan prinsiplərlə üst-üstə düşür. Tarix dəfələrlə sübut edib ki, zorla əldə olunan qələbə dayanıqlı olmur. Əsl dayanıqlılıq yalnız dialoq və əməkdaşlıq üzərində qurulur. Qazaxıstan Prezidenti məhz bu həqiqəti bir daha xatırladaraq göstərdi ki, sülh, diplomatiya və sağlam düşüncə hər zaman qalib gələcək. Bu, yalnız Qafqaz və Mərkəzi Asiya üçün deyil, bütün bəşəriyyət üçün strateji seçimdir.

**“World Panorama” Strateji Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Ramiyə Məmmədova** XQ-yə açıqlamasında bildirdi ki, Qazaxıstan Prezidenti bununla diplomatiya yolunun güc metodundan daha yaxşı işlədiyini diqqətə çatdırıb. Onun sözlərinə görə, avqustun 8-də Vaşinqtonda “Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş”in mətninin paraflanmasında ABŞ Prezidenti Donald Trampın böyük rolu olub: “Trampın səyləri danışıqlar yolunun güc tətbiq etməkdən daha yaxşı üsul olduğunun bariz nümunəsidir. Bu o deməkdir ki, diplomatiya yolu güc yolundan daha perspektivlidir”.

Politoloq qeyd etdi ki, digər istiqamət Qazaxıstan Prezidentinin fikirləri rəsmi



Astananın çoxvektorlu siyasətə qədəm qoyduğunu göstərir: “Çünki Qazaxıstan bu gün Rusiyanın təsir dairəsi altında olmadığını nümayiş etdirir. Çoxvektorlu siyasətdə isə təkcə ABŞ-la deyil, Avropa İttifaqı ilə də işləməyi əsas hədəf seçdiyinin ismarıcıdır. Digər tərəfdən bu çıxış türk dünyası ilə bağlı mesajları özündə ehtiva edir”.

R.Məmmədova onu da bildirdi ki, Tokayevin bu fikirləri diplomatiya yolundan uzaqlaşaraq güc metoduna üstünlük verən bir sıra ölkələrə, o cümlədən Rusiyaya mesajdır: “Qazaxıstan Prezidentinin BMT Baş Assambleyasında səsləndirdiyi fikirlər yalnız Ermənistan–Azərbaycan münasibətləri ilə bağlı deyil, həm də daha geniş geosiyasi kontekstdə, xüsusilə Rusiyaya ünvanlanan mesaj kimi oxuna bilər”.

*✍ Səxavət HƏMİD*
*XQ*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 276**

**Bakı şəhəri, 22 sentyabr 2025-ci il**

**“Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında”, “Valyuta tənzimi haqqında”, “Xidməti və mülki silah haqqında”, “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında”, “Notariat haqqında”, “İcra məmurları haqqında”, “İcra haqqında”, “Lotereyalar haqqında”, “Daşınmaz əmlakın dövlət reyestri haqqında” və “Media haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 119-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında”, “Valyuta tənzimi haqqında”, “Xidməti və mülki silah haqqında”, “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında”, “Notariat haqqında”, “İcra məmurları haqqında”, “İcra haqqında”, “Lotereyalar haqqında”, “Daşınmaz əmlakın dövlət reyestri haqqında” və “Media haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 119-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 oktyabr tarixli 166 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 10, maddə 600 (Cild I) ilə təsdiq edilmiş “Əmtəə nişanlarının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası Qaydaları”nın 7-ci hissəsinin dördüncü abzası aşağıdakı redaksiyada verilsin:

“iddiaçının adı (fiziki şəxs olduqda soyadı, adı, atasının adı və fərdi identifikasiya nömrəsi), ünvanı, imzası (iddia sənədi patent müvəkkili vasitəsilə verildikdə patent müvəkkilinin soyadı, adı, atasının adı, fərdi identifikasiya nömrəsi, ünvanı və imzası);”.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 166 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 692 (Cild I); 2024, № 1, maddə 73) ilə təsdiq edilmiş “Coğrafi göstəricini qeydə almaq üçün iddia sənədinin verilməsi və ekspertizası Qaydaları”nın II fəslinin 2-ci hissəsinin beşinci abzası və IV fəslinin 2.1.1-ci yarımbəndinin “b)” abzası aşağıdakı redaksiyada verilsin:

“b) iddiaçının adı (fiziki şəxs olduqda soyadı, adı, atasının adı və fərdi identifikasiya nömrəsi), ünvanı, imzası (iddia sənədi patent müvəkkili vasitəsilə verildikdə patent müvəkkilinin soyadı, adı, atasının adı, fərdi identifikasiya nömrəsi, ünvanı və imzası);”.

**3.** “Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün sənədlərin qəbulu, yoxlanılması və verilməsinin prosedur Qaydaları”nın və “Daşınmaz əmlakın təsvirinə, bu əmlak üzərində dövlət reyestrində qeydə alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair arayışın verilməsi haqqında Təlimat”ın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 5 oktyabr tarixli 319 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1233 (Cild I); 2024, № 1, maddə 111, № 2, maddə 197) aşağıdakı dəyişikliklər edilsin:

3.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə – “Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün sənədlərin qəbulu, yoxlanılması və verilməsinin prosedur Qaydaları”nın 2.5-ci bəndinin üçüncü cümləsində və 3.9-cu bəndinin birinci cümləsində “Elektron hökumət” portalında” sözləri “Elektron Hökumət İnformasiya Sistemində” sözləri ilə əvəz edilsin;

3.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə – “Daşınmaz əmlakın təsvirinə, bu əmlak üzərində dövlət reyestrində qeydə alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair arayışın verilməsi haqqında Təlimat”ın 7.2-ci bəndində “Elektron hökumət” portalında” sözləri “Elektron Hökumət İnformasiya Sistemində” sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 27 iyul tarixli 308 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 7, maddə 1505 (Cild I); 2024, № 9, maddə 1083; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 3 iyul tarixli 194 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Kredit tarixçələrini təşkil edən neqativ məlumatların Elektron Hökumət İnformasiya Sistemində yerləşdirilməsi, yenilənməsi və kredit büroları tərəfindən əldə edilməsi Qaydası”nın 2.4-cü bəndində “Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 5 fevral tarixli 813 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Elektron hökumət” portalı haqqında Əsasnamə”yə” sözləri “Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”na” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 277**

**Bakı şəhəri, 22 sentyabr 2025-ci il**

**“Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, “Texniki təhlükəsizlik haqqında” və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 14 fevral tarixli 139-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 mart tarixli 347 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, “Texniki təhlükəsizlik haqqında” və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 14 fevral tarixli 139-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 mart tarixli 347 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Təhlükə potensiallı və dövlət əhəmiyyətli tikinti obyektlərinin Siyahısı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 30 dekabr tarixli 531 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2246 (Cild I); 2024, № 4, maddə 440) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında və ikinci abzasda “Təhlükə potensiallı” sözləri “Xüsusi riskli” sözləri ilə əvəz edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş “Təhlükə potensiallı və dövlət əhəmiyyətli tikinti obyektlərinin” Siyahısı”nın adında və 2-ci hissəsində “Təhlükə potensiallı” sözləri “Xüsusi riskli” sözləri ilə, 1-ci hissəsində “təhlükə potensiallı” sözləri “xüsusi riskli” sözləri ilə əvəz edilsin.

**2.** “Təhlükə potensiallı və ya dövlət əhəmiyyətli tikinti obyektlərinin tikintisinə icazə ilə bağlı əlavə tələblər”in təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 10 fevral tarixli 50 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 303 (Cild I); 2024, № 4, maddə 440) aşağıdakı dəyişikliklər edilsin:

2.1. adında və ikinci abzasında “Təhlükə potensiallı” sözləri “Xüsusi riskli” sözləri ilə əvəz edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş “Təhlükə potensiallı və ya dövlət əhəmiyyətli tikinti obyektlərinin tikintisinə icazə ilə bağlı Əlavə Tələblər”in adında və 2-ci hissəsində “Təhlükə potensiallı” sözləri “Xüsusi riskli” sözləri ilə, 1-ci hissəsində “təhlükə potensiallı” sözləri “xüsusi riskli” sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 615 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12, maddə 2560 (Cild I); 2025, № 2 (II kitab), maddə 196) ilə təsdiq edilmiş 2 nömrəli əlavə – “Lisenziyalar və icazələr” portalına inteqrasiya edilməli olan informasiya sistemlərinin siyahısı və həmin informasiya sistemlərinin portala inteqrasiyası üçün son müddətlər”in 9.3-cü bəndinə hər iki halda “dövlət” sözündən əvvəl “vahid” sözü əlavə edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 17 fevral tarixli 39 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 2, maddə 204 (Cild I); 2024, № 2, maddə 218, № 3, maddə 306) ilə təsdiq edilmiş 1 nömrəli əlavə – “Əlvan və qara metal tullantılarının qəbulu, uçotu, radiasiya və partlayış təhlükəsizliyi baxımından müayinədən keçirilməsi Qaydaları”nın 1.3-cü bəndinə “dövlət” sözündən əvvəl “vahid” sözü əlavə edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 avqust tarixli 297 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (II kitab), maddə 1280 (Cild I); 2024, № 1, maddə 95, № 3, maddə 305; 2025, № 2, maddə 204) ilə təsdiq edilmiş “Tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması və ya əlavə qaz həcmi alması Qaydası”nın 3.15-ci bəndi aşağıdakı redaksiyada verilsin:

“3.15. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 21 may tarixli 163 nömrəli Qərarı ilə təsdiq edilmiş “Təhlükə potensiallı obyektlərin vahid dövlət reyestrinin aparılması Qaydası”nın tələblərinə uyğun olaraq qazpaylayıcı şəbəkəyə qoşulan təhlükə potensiallı obyektlərin siyahısına daxil olan tikinti obyektləri təhlükə potensiallı obyektlərin vahid dövlət reyestrində qeydiyyatdan keçirilir.”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 278**

**Bakı şəhəri, 22 sentyabr 2025-ci il**

**“Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında” Azərbaycan Respublikasının 2024-cü il 18 oktyabr tarixli 50-VIIQ nömrəli və “Bələdiyyələrin əraziləri və torpaqları haqqında” Azərbaycan Respublikasının Qanununa Əlavə – “Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı”nda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 18 oktyabr tarixli 51-VIIQD nömrəli qanunlarının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında” Azərbaycan Respublikasının 2024-cü il 18 oktyabr tarixli 50-VIIQ nömrəli və “Bələdiyyələrin əraziləri və torpaqları haqqında” Azərbaycan Respublikasının Qanununa Əlavə – “Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı”nda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 18 oktyabr tarixli 51-VIIQD nömrəli qanunlarının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 8 iyul tarixli 106 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 7, maddə 446 (Cild I) ilə təsdiq edilmiş “Bələdiyyə mülkiyyətinə verilən dövlət əmlakının Siyahısı”nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. Siyahının bütün bəndləri üzrə “Bələdiyyənin adı” sütunlarından “rayon”, “qəsəbə”, “kənd” və “şəhər” sözləri çıxarılsın;

1.2. 5-ci bəndin “Bələdiyyənin adı” sütununda “Güzdək” sözü “Qobu” sözü ilə əvəz edilsin;

1.3. 15-ci bəndin “Ünvanı”, “Balans sahibi” və “Bələdiyyənin adı” sütunlarında “Qaraqollar” sözü “Qaraqullar” sözü ilə əvəz edilsin;

1.4. 18-ci və 19-cu bəndlərin “Bələdiyyənin adı” sütunlarında “Zəylik” sözü “Quşçu” sözü ilə əvəz edilsin;

1.5. 20-ci və 32-ci bəndlərin “Ünvanı” sütununda “rayonu” sözü “şəhəri” sözü ilə əvəz edilsin;

1.6. 22-ci bəndin “Bələdiyyənin adı” sütununda “Hacı Qəhrəmanlı” sözləri “Şirvan” sözü ilə əvəz edilsin;

1.7. 42-ci və 43-cü bəndlərin “Bələdiyyənin adı” sütunlarında müvafiq olaraq “Böyük Pirəlli” və “Kiçik Pirəlli” sözləri “Soltannuxa” sözü ilə əvəz edilsin;

1.8. 45-ci və 49-cu bəndlərin “Bələdiyyənin adı” sütunlarında müvafiq olaraq “İkinci Şıxlı” və “Birinci Şıxlı” sözləri “Şıxlı” sözü ilə əvəz edilsin;

1.9. 47-ci bəndin “Bələdiyyənin adı” sütununda “Orta Salahlı” sözləri “Salahlı” sözü ilə əvəz edilsin;

1.10. 50-ci bəndin “Bələdiyyənin adı” sütununda “Yuxarı Salahlı” sözləri “Aslanbəyli” sözü ilə əvəz edilsin;

1.11. 51-ci bəndin “Bələdiyyənin adı” sütununda “Qaymaqlı” sözü “Kəmərli-Qaymaqlı” sözləri ilə əvəz edilsin;

1.12. 53-cü bəndin “Bələdiyyənin adı” sütununda “Pirəsora” sözü “Qosmalıan” sözü ilə əvəz edilsin;

1.13. 66-cı və 68-ci bəndlərin “Bələdiyyənin adı” sütunlarında müvafiq olaraq “2 №-li Mayak” və “1 №-li Mayak” sözləri “Neftçala” sözü ilə əvəz edilsin;

1.14. 67-ci bəndin “Ünvanı” sütununda “kəndi” sözü “qəsəbəsi” sözü ilə əvəz edilsin;

1.15. 76-cı bəndin “Ünvanı” və “Bələdiyyənin adı” sütunlarında “H.Zeynalabdin” sözləri “Hacı Zeynalabdin” sözləri ilə əvəz edilsin;

1.16. 90-cı bəndin “Bələdiyyənin adı” sütununda “Yuxarı Qarxun” sözləri “Yevlax” sözü ilə əvəz edilsin.

**2.** “Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin keçmiş Dağlar Yusifov adına Qəbələ Qızılbalıqartırma Zavodunun və Qəbələ rayonunun Çuxur Qəbələ Bələdiyyəsinin balansında olan avtomobil yollarının Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin balansına verilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 31 mart tarixli 59 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının yerli əhəmiyyətli avtomobil yollarının siyahısı”nda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 31 yanvar tarixli 29 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 85 (Cild I) adında və 1-ci hissəsində “Çuxur Qəbələ” sözləri “Yeni Dizaxlı” sözləri ilə əvəz edilsin.

**3.** “Abşeron və Xızı rayonlarının inzibati ərazilərində dövlət və bələdiyyə mülkiyyətinə aid bəzi torpaq sahələrinin bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 13 yanvar tarixli 19 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 1, maddə 86) 1-ci hissəsində “Pirəkəşkül-Qobustan” sözləri “Aşağı Güzdək” sözləri və “Sitalçay” sözü “Giləzi” sözü ilə əvəz edilsin.

**4.** “Bakı şəhəri, Qaradağ rayonunun və Abşeron rayonunun inzibati ərazilərində dövlət və bələdiyyə mülkiyyətinə aid bəzi torpaq sahələrinin bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 16 aprel tarixli 210 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 4, maddə 462) 1-ci hissəsində “Pirəkəşkül-Qobustan” sözləri “Aşağı Güzdək” sözləri ilə əvəz edilsin.

5. “Neftçala rayonunun inzibati ərazisində dövlət və bələdiyyə mülkiyyətinə aid bəzi torpaq sahələrinin bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 16 aprel tarixli 211 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 4, maddə 463) 1-ci hissəsində “Neftçala rayonu Yenikənd Bələdiyyəsinin mülkiyyətində olan 400,0 hektar və Neftçala Bələdiyyəsinin mülkiyyətində olan 50,0 hektar” sözləri “Neftçala bələdiyyəsinin mülkiyyətində olan 450 hektar” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 280**

**Bakı şəhəri, 22 sentyabr 2025-ci il**

**“Aviasiya hadisələrinin və insidentlərinin araşdırılması üzrə daimi komissiyanın Əsasnaməsi”nin və “Aviasiya hadisələrinin və insidentlərinin araşdırılması üzrə daimi komissiyanın tərkibi və fəaliyyət Qaydası”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Aviasiya haqqında” Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanının 2.3.10-cu yarımbəndinin və 2.4-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Aviasiya hadisələrinin və insidentlərinin araşdırılması üzrə daimi komissiyanın Əsasnaməsi” təsdiq edilsin (əlavə olunur).

**2.** “Aviasiya hadisələrinin və insidentlərinin araşdırılması üzrə daimi komissiyanın tərkibi” təsdiq edilsin (əlavə olunur).

**3.** “Aviasiya hadisələrinin və insidentlərinin araşdırılması üzrə daimi komissiyanın fəaliyyət Qaydası” təsdiq edilsin (əlavə olunur).

**4.** “Aviasiya qəzası və ya insidenti barədə məlumatın verilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 sentyabr tarixli 219 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 9, maddə 866 (Cild I) ləğv edilsin.

**5.** “Aviasiya qəzalarını və insidentlərini araşdıran komissiyanın fəaliyyət göstərməsi Qaydaları”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 5 avqust tarixli 118 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 671 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 281**

**Bakı şəhəri, 23 sentyabr 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 13 sentyabr tarixli 209 nömrəli Qərarı ilə təsdiq edilmiş “Baytarlıq normalarına cavab verən məhsulların sahibinə həmin məhsulların satışına icazə verən ekspertiza aktının təqdim edilməsi və ya məhsulun (ətin, heyvan və quş cəmdəklərinin, digər məhsulların) üzərində nişan qoyulması Qaydaları”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 13 sentyabr tarixli 209 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 9, maddə 823 (Cild I); 2024, № 1, maddə 82; 2025, № 2, maddə 204) ilə təsdiq edilmiş “Baytarlıq normalarına cavab verən məhsulların sahibinə həmin məhsulların satışına icazə verən ekspertiza aktının təqdim edilməsi və ya məhsulun (ətin, heyvan və quş cəmdəklərinin, digər məhsulların) üzərində nişan qoyulması Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1.2-ci və 1.3-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

“1.2. Ətin, heyvan və quş cəmdəklərinin, digər ət məhsullarının ekspertiza aktı əsasında baytarlıq damğası və ştampları ilə nişanlanması məcburidir.

1.3. Ət və ət məhsullarının, həmçinin digər heyvan mənşəli məhsulların müayinədən keçirilməsini müəssisə və təşkilatların baytarlıq istehsalat-nəzarət bölməsində çalışan və Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra – Agentlik) tərəfindən uçota alınmış baytarlıq mütəxəssisləri həyata keçirirlər.”.

**2.** 1.4-cü bənddə “rayon və şəhər dövlət baytarlıq müfəttişinin” sözləri “Agentliyin” sözü ilə əvəz edilsin.

**3.** 1.5-ci bənddə “rayon və şəhər dövlət baytarlıq müfəttişləri” sözləri “Agentlik” sözü ilə əvəz edilsin.

**4.** Aşağıdakı məzmunda 1.9-1-ci bənd əlavə edilsin:

“1.9-1. Ekspertiza aktının verilməsi baytarlıq mütəxəssisinin rəyinə əsasən Agentlik tərəfindən Avtomatlaşdırılmış Qida Təhlükəsizliyi İnformasiya Sistemi vasitəsilə həyata keçirilir.”.

**5.** 2.2-ci bəndin ikinci abzasında “yuxarı hissəsində “Azərbaycan Respublikası”, aşağı hissəsində” sözləri “təsvirində” sözü ilə əvəz edilsin.

**6.** 2.3-cü və 2.4-cü bəndlərdə “Baytarlıq xidməti” sözləri “Dövlət baytarlıq nəzarəti” sözləri ilə əvəz edilsin.

**7.** 2.7-ci bənd aşağıdakı redaksiyada verilsin:

“2.7. Baytarlıq damğa və ştamplarında göstərilən rəqəmlər Agentlik tərəfindən müəyyənləşdirilir.”.

**8.** 4.4-cü bənddə “müşayiətedici baytarlıq şəhadətnaməsi (sertifikatı)” sözləri “Baytarlıq haqqında” Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq verilən müşayiətedici baytarlıq sənədləri (baytarlıq arayışı və ya baytarlıq şəhadətnaməsi)” sözləri ilə əvəz edilsin.

**9.** Həmin Qaydalara Əlavə – “Ət və ət məhsullarının nişanlanması üçün baytarlıq damğa və ştamplarının nümunələri” üzrə:

9.1. 1-ci və 2-ci hissələrin mətnindən “Azərbaycan Respublikası” sözləri çıxarılsın;

9.2. 3-cü və 4-cü hissələrin mətnində “BAYTARLIQ XİDMƏTİ” sözləri “DÖVLƏT BAYTARLIQ NƏZARƏTİ” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.***

# Energetika Nazirliyində kollegiya iclası

**Energetika naziri Pərviz Şahbazovun sədrliyi, nazirliyin struktur bölmələri və tabeli qurumlarının nümayəndələrinin iştirakı ilə növbəti kollegiya iclası keçirilib.**



Kollegiya sədri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müəyyən etdiyi strateji xəttə uyğun olaraq enerji sahəsində qarşıya qoyulan vəzifələrin ardıcıl şəkildə icra edildiyini bildirib. Qeyd olunub ki, ölkəmiz hazırda reallaşdırdığı regional əməkdaşlıq layihələrinin hər birində lider mövqeyindədir və dövlət başçısının tərəfindən həyata keçirilən enerji siyasəti həm milli maraqlara, həm də beynəlxalq əməkdaşlığın inkişafına xidmət edir.

İclasın gündəliyə uyğun olaraq işğaldan azad edilmiş ərazilərdə bərpa olunan enerji üzrə ölçü-müşahidə qurğularının quraşdırılması, günəş, külək və su elektrik stansiyalarının tikintisi, enerji səmərəliliyi, hidroenerji, geotermal enerji və bioenerji mənbələrindən istifadənin qiymətləndirilməsi, hidrogen texnologiyası, hidroakkumulyasiya texnologiyasının tətbiqi imkanlarının araşdırılması üzrə görülən işlər nəzərdən keçirilib.

Toplantıda “yaşıl texnologiyalar”ın tətbiqi üzrə pilot layihələrin icrası, “Yaşıl enerji zonası” nümayiş pavilyonunun yaradılması, küçə və yolların işıqlandırılmasında enerji səmərəli “yaşıl texnologiyalar”a dair tələblərin müəyyən edilməsi üzrə atılan addımlar da müzakirə olunub. Eyni zamanda, Naxçıvanda “yaşıl enerji zonası”nın inkişafına dair Konsepsiya və Tədbirlər Planının hazırlanması, eləcə də ixrac yönümlü infrastruktur layihəsinin texniki-iqtisadi əsaslandırılması ilə bağlı görülən işlərə dair müzakirələr aparılıb, müvafiq tapşırıqlar verilib.

***XQ***

# Nyu-Yorkda Orta Dəhliz müzakirələri

## *VI Xəzər Biznes Forumu yeni strateji xəritə təqdim edir*

**Nyu-Yorkda keçirilən “Orta dəhliz boyunca: bağlantı, maliyyə və enerji” mövzusunda VI Xəzər Biznes Forumu Cənubi Qafqazın və Xəzər hövzəsinin iqtisadi gələcəyinə dair yeni strateji xəritə təqdim edir. Müzakirələrin ana xətti Orta Dəhliz və Zəngəzur Dəhlizinin (TRİPP) perspektivləridir. Burada infrastruktur və logistika ilə yanaşı, həm də siyasi iradə, investisiya mexanizmləri və enerji təhlükəsizliyi məsələləri ön plana çəkilib.**



Azərbaycanın bu prosesdəki mövqeyi xüsusi vurğulanmalıdır. Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev forumdakı çıxışında Orta Dəhliz üzrə 50 milyon tondan çox yük artımı gözlənildiyini bildirib. Onun sözlərinə görə, bu məqsədlə Azərbaycan əlavə investisiyalar yatırır: “Bakı Limanı ildə 25 milyon ton yükötürmə qabiliyyətinə malikdir və bu imkanların genişləndirilməsi istiqamətində də işlər aparılır”.



Tədbirdə Hikmət Hacıyev Prezident İlham Əliyevin Forum iştirakçılarına müraciətini oxuyub. Ölkə başçısının Forum iştirakçılarına müraciətində Orta Dəhlizə önəm xüsusi vurğulanır. Azərbaycan bu marşrut üzərində yerləşən nəqliyyat infrastrukturuna – dəniz limanına, gəmiqayırma zavoduna, dəmir yolu və digər logistik obyektlərə böyük investisiyalar yatırıb.

Dövlət başçısının sözlərinə görə, Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Xəzər yük donanması Orta Dəhlizin funksionallığını təmin edən əsas sütunlardır. Azərbaycanın payına düşən seqmentdə infrastrukturun təkmilləşdirilməsi, rəqəmsallaşdırılması, modernləşdirilməsi və ötürücülük qabiliyyətinin artırılması istiqamətində işlər ardıcıl şəkildə davam etdirilir. Prezident İlham Əliyev diqqətə çatdırıb ki, son üç ildə Orta Dəhliz üzrə Azərbaycan vasitəsilə yükdaşımalarının həcmi təxminən 90 faiz artıb, yüklərin keçid müddəti isə əhəmiyyətli dərəcədə azalıb. Hesablamalara görə, 2030-cu ilədək Orta Dəhlizin yükdaşıma potensialı 2021-ci illə müqayisədə üç dəfə artacaq, tranzit müddəti isə iki dəfə qısalacaq.

Beləliklə, Azərbaycan Prezidenti ölkənin Orta Dəhlizin real lokomotivinə çevrildiyini və bu sahədə həyata keçirilən siyasətin regional əməkdaşlığın dərinləşməsinə xidmət etdiyini aydın şəkildə ortaya qoydu.

Azərbaycan, həmçinin dəmir yolları vasitəsilə yeni nəqliyyat arteriyalarını reallaşdırır. 2020-ci ildən Bakıdan Zəngilan və Ermənistan sərhədinə qədər uzanan dəmir yolu layihəsinin icrasına start verilib və 2026-cı ilin ortalarında yekunlaşması nəzərdə tutulur. Prezident xüsusilə vurğulayıb ki, Ermənistan ərazisində yerləşən 42 kilometrlik Zəngəzur hissəsində də işlər aparılır və burada ABŞ-dan olan tərəfdaşlar iştirak edir. Üçüncü seqment isə Naxçıvanı əhatə edir və bu istiqamətdə də əlavə sərmayələr yatırılır. Azərbaycan Avropa ölkələri də daxil olmaqla, beynəlxalq tərəfdaşları əməkdaşlığa dəvət edir. Əsas məqsəd isə Cənubi Qafqazı əməkdaşlıq məkanına çevirməkdir.

Bu açıqlamalar Azərbaycanın mövqeyini açıq şəkildə göstərir. Rəsmi Bakı həm də regionu yeni inteqrasiya məkanına çevirmək üçün iradə ortaya qoyur. Bu isə həm iqtisadi güc, həm də siyasi məsuliyyət tələb edir.

***✍ NA BDALOV***
***XQ***

# Bakıda III Beynəlxalq Statistika Forumu keçirilir



**Bakıda “Statistikanın inkişaf perspektivləri: beynəlxalq layihələrin rolu” mövzusunda 3-cü Beynəlxalq Statistika Forumu və Azərbaycanın sədrliyi ilə MDB iştirakçısı olan dövlətlərin Statistika Xidmətləri Rəhbərləri Şurasının növbəti iclası keçirilib.**




Forum iştirakçıları əvvəlcə Fəxri xiyabana gələrək müasir müstəqil Azərbaycanın banisi, xalqımızın Ümummilli lideri Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb. Sonra tədbir iştirakçıları Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, “Əbədi məşəl” abidəsinin önünə əklil qoyublar.

Açılış mərasimində Baş nazir Əli Əsədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin forum iştirakçılarına müraciətini səsləndirib. O, Ümumdünya Statistika Günü ərəfəsində keçirilən forumun dövlətimizin beynəlxalq imicinin möhkəmlənməsi, statistika sahəsində qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi, ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişləndirilməsi, habelə Azərbaycanın sosial-iqtisadi, mədəni və siyasi sahələrdə əldə etdiyi nailiyyətlərin nümayiş etdirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını qeyd edib.

Sonra MDB İcraiyyə Komitəsi sədrinin müavini Denis Trefilov, MDB Dövlətlərarası Statistika Komitəsinin sədri Konstantin Laykam, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov, BMT-nin Avropa İqtisadi Komissiyasının Statistika şöbəsinin direktoru Tiina Luige, Dünya Bankının Qlobal Beynəlxalq Müqayisələr Proqramının rəhbəri Marko Olavi Rissanen çıxış edərək forumun müxtəlif ölkələrin statistika qurumlarının, beynəlxalq təşkilatların, elmi dairələrin nümayəndələrinin bir araya gətirilməsi, statistika sahəsində qabaqcıl bilik və təcrübələrin mübadiləsi, yeni hədəflərin müəyyən edilməsi, eləcə də birgə layihələrin təşviqi, qlobal statistik təşəbbüslərə inteqrasiya və beynəlxalq əməkdaşlığın dərinləşdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb etdiyini bildiriblər.

Üç gün davam edəcək forumda Milli Hesablar Sistemi-2025, valyutaların alıcılıq qabiliyyətinin pariteti əsasında beynəlxalq müqayisələr proqramı, əhali və mənzil fondu siyahıyaalınmasının 2030-cu il mərhələsi, Dayanıqlı İnkişaf Məqsədlərinin monitorinqi, həmçinin sahə və çoxsektorlu layihələrlə bağlı məsələlər müzakirə olunaraq, informasiya texnologiyaları, statistik məlumatların inteqrasiyası, institusional qərarlar, statistikada səriştəliliyin inkişafı ilə əlaqədar layihələrin effektivliyi qiymətləndiriləcəkdir.

Şuranın iclası zamanı isə onun son üç ildəki fəaliyyəti, “MDB statistikasının inkişafı” layihəsinin icra vəziyyəti, perspektivləri və digər məsələlər müzakirə olunub.

***XQ***

# Kəlbəcərdə bal festivalı

## *Dağlar diyarının ölkəyə şirin töhfəsi*

**Dünən Kəlbəcər rayonunun mərkəzində IDEA İctimai Birliyinin təşəbbüsü, Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyi, Kənd Təsərrüfatı Nazirliyi, “Aqrar Tədarük və Təchizat” ASC və Azərbaycan Arıçılar Assosiasiyasının birgə təşkilatçılığı ilə Kəlbəcər Bal Festivalı öz işinə başlayıb.**



İşğaldan azad olunmuş ərazilərdə yaylaq mövsümünün başa çatmasına və Azərbaycan balının brendləşdirilərək dünya bazarına çıxarılmasına həsr olunan festivalda ölkəmizin müxtəlif bölgələrindən tanınmış arıçılar, o cümlədən IDEA İctimai Birliyinin dəstək verdiyi gənc arıçılar iştirak edərək müxtəlif arıçılıq məhsullarını sərgiləyirlər.

Festival iştirakçısı, rayonun Çay Qılınclı kəndinin arıçı fermeri Elnur Babayev fermerlərin artıq üç ildir ki, təsərrüfatlarını Kəlbəcər yaylaqlarına gətirdiklərini bildirib. Bal festivalına çıxarılan arıçılıq məhsullarının ixrac potensialının yüksək olduğunu bildirən fermer deyib ki, hava şəraitindən asılı olaraq burada daha çox məhsul əldə etmək mümkündür. O, istehsal etdikləri arıçılıq məhsullarının bazar qiymətləri və keyfiyyəti ilə bağlı məlumat verərkən deyib ki, bu gün bazara çıxardıqları balın 1 kiloqramı 40 manatdan başlayaraq 100 manata kimi təklif olunur. Alınan sifarişlərə uyğun olaraq məhsulları əmtəə nişanı ilə qablaşdırdığını bildirən fermerin əsas hədəfi isə istehsal etdiyi məhsulları xarici bazarlara çıxarmaqdır.

Lənkəranlı sahibkar Səyavuş Yaqubov isə festivalda arıçılıq məhsulları ilə yanaşı, bu sahədə istifadə olunan avadanlıqları da təqdim edib. Fermerin hazırladığı “Supermatr” avadanlığı iştirakçıların xüsusi marağına səbəb olub. Təsərrüfat sahibinin sözlərinə görə, gənəyə qarşı dərmanlama işinin aparılması üçün mükəmməl vasitə olan bu avadanlıq arıların kimyəvi deyil, təbii vasitələrlə dezinfeksiyasına imkan verir. KOBİA-nın 2-ci qrant müsabiqəsinin qalibi olan arıçı layihə hesabına ərsəyə gətirdiyi bu avadanlıqları 40-dan çox təsərrüfata ianə etdiyini bildirib.

Azərbaycanın zəngin təbiətə malik bölgələrindən olan Kəlbəcər rayonunda arıçılığın inkişaf etdirilməsi üçün əlverişli şərait mövcuddur. Rayonun dağlıq relyefi, nadir və çoxçeşidli flora örtüyü, eləcə də yüksək dağ çaylarının ətrafında formalaşan əlverişli mikroiqlim burada istehsal olunan balın həm dad, həm keyfiyyət, həm də müalicəvi xüsusiyyətlərinə müsbət təsir göstərən əsas amillərdir.

Məhz bu səbəbdəndir ki, arıçılıq Kəlbəcər əhalisinin əsas məşğulluq sahələrindən biri kimi nəsildən-nəslə ötürülərək qorunub saxlanılıb. Rayonun erməni işğalından azad olunmasından sonra təsərrüfat sahibləri bu zəngin ənənəni davam etdirməyi, son dərəcə gəlirli sahə sayılan arıçılığın əvvəlki şöhrətini qaytarmağı qərara alıblar. Dövlətin bu sahəyə göstərdiyi diqqət və qayğı da onların karına gəlib. Məhz bu diqqətin nəticəsi olaraq cari ilin yayında şəhərin mərkəzində “Balland-Kəlbəcər balı, arı və arıçılıq məhsulları mağazası” fəaliyyətə başlayıb.

Avqustun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rayona səfəri çərçivəsində “Balland-Kəlbəcər balı, arı və arıçılıq məhsulları mağazası”nın açılışında iştirak edib. Mağazada min bir dərdin dərmanı olan bal, propolis, arı südü, çiçək tozu, mum və digər təbii məhsullar təqdim olunur. Yaxın vaxtlarda həmin məhsulların “Made in Azerbaijan” brendi ilə beynəlxalq bazarlara çıxarılması və onlayn satış platformasının yaradılması planlaşdırılır. Mağaza yalnız satış məkanı deyil, həm də Kəlbəcər balının tanıdılması, arıçılıq məhsullarının brendləşdirilməsi və bu sahənin inkişafı üçün platforma funksiyasını daşıyır.

Qeyd edək ki, bu layihə təkcə arıçılığın inkişafı baxımından deyil, eyni zamanda, işğaldan azad edilmiş ərazilərdə sosial-iqtisadi dirçəlişin təmin olunması, ekoloji cəhətdən təmiz məhsulların istehsalı və regionun kənd təsərrüfatı potensialının gücləndirilməsi baxımından da mühüm əhəmiyyətə malikdir.

Yeri gəlmişkən, 2024-cü ildə Azərbaycanda 30 min 601 təsərrüfatda mövcud olan 579 min arı ailəsindən 5 min 166,3 ton bal, 132,1 ton mum, 8,5 ton vərəmum, 16,8 ton güləm və 239,3 kiloqram arı südü əldə olunub. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, il ərzində balın 1 kiloqramının orta satış qiyməti 28,6 manat təşkil edib. Bununla yanaşı, mühüm növ arıçılıq məhsullarından olan mum 16,5 manat, vərəmum 109,7 manat, güləm 140,9 manat, arı südünün 1 qramı isə 7 manata təklif olunub.

2023-cü illə müqayisədə 2024-cü ildə arı ailələrinin sayı 3,1 faiz, mum istehsalı 23,5 faiz, vərəmum istehsalı 43 faiz, arı südü istehsalı 14,9 faiz, arıçılıqla məşğul olan təsərrüfatların hər birinə orta hesabla düşən arı ailələrinin sayı 2,4 faiz azalsa da bal istehsalı 13,5 faiz, güləm istehsalı 88,8 faiz artıb.

***✍ Mirbağır YAQUBZADƏ***
***XQ***

# Çin şirkətlərinin yatırımı artır

**Çinin 12 vilayətindən olan 20 müəssisə Azərbaycana investisiya yatırmaqda maraqlıdır. Bu fikri Çinin ölkə xaricində müəssisələrin inkişafı üzrə assosiasiyanın baş katibi Xe Çjenvey Bakıda keçirilən I Azərbaycan Beynəlxalq İnvestisiya Forumunda çıxışında deyib.**



“Bu foruma mənimlə Çində 20 müəssisənin nümayəndəsi gəlib, onların az qala hamısı özəl şirkətlərdir. Onlar həmçinin Azərbaycana investisiyalarda maraqlıdırlar. İnvestisiya forumunun məhz Azərbaycanda keçirilməsini son dərəcə vacib hesab edirəm – bu dialoq üçün əla meydançadır. Biz iştirakçıların müxtəlif ölkələrdən gəldiyini görürük – Çinlə yanaşı, Avropadan gələnlər də var. Sözsüz ki, bu xarici investisiyaların cəlb olunması üçün vacib tədbirdir”, – deyə o bildirib.

Onun sözlərinə görə, hazırda diqqət neft sektorundan digər istehsal sahələrinə yönəlir ki, bu da ölkə üçün xüsusilə əhəmiyyətlidir. Prioritetlər sırasında Xəzər nəqliyyat daşımaları, həmçinin “yaşıl” energetikanın inkişafı dayanır.

***XQ***

# Qayıdışın həyat simfoniyası...

## *Qarabağın çörəyinin ətri də özünə qayıdır*

**Qarabağda Böyük Qayıdışın ilk ünvanlarından olan Xocalı rayonunun Ballıca kəndi illər sonra yenidən əsl sahiblərinin yaşayış məskəninə çevrilib. Bir vaxtlar erməni quldurlarının tapdağı altında əzilən bu kənddə indi həyat qaynayır. Sakinlər həyətlərində əkib-becərdiklərini yerbəyer edir, təbiətin səxavətlə bəxş etdiyi, meşələrdə öz-özünə bitmiş qoz, zoğal ağaclarının bol məhsullarından, müxtəlif giləmeyvələrdən yığıb qışa hazırlıq görürlər.**

Payızın həzin nəfəsi burada daha tez duyulmağa başlayıb. Səhərlər çiyinlərində çanta dərsə gedən uşaqların səsləri, gülüşləri aləmi götürür, yaşlıların hərəsi bir işlə məşğul olur, el arasında deyilən kimi, qarışqa kimi çalışırlar. Ballıca xoşbəxt günlərinə geri dönüb, hər yerdə insan nəfəsi duyulur, insan əlinin zəhmətinin ilkin bəhrələri göz oxşayır. Kənddə əkinçiliklə, heyvandarlıqla yanaşı, sahibkarlığın inkişafı, sakinlərin öz bizneslərini qurmaları üçün də hər cür şərait yaradılıb, müxtəlif təyinatlı obyektlər, iaşə müəssisələri fəaliyyətə başlayıb.



Elə Ballıcanın yeni simvoluna çevrilmiş "bal pətəyi"nin yanında payız qoxusunu üstələyən çörək ətri də belə müəssisələrdən birindən, Xocalı rayon sakini, qazi, ikinci qrup əlil Elçin Həsənova məxsus çörək və şirniyyat sexindən ətrafa yayılır. Bu ətri duyub yanından laqeyd ötmək mümkün deyil. Odur ki, Ballıcaya budəfəki səfərimizdə yaxınlaşıb Qarabağ çörəyinin ətrini geri qaytaranlarla salamlaşdıq, "bərəkətli olsun!" deyərək söhbətə başladıq.

Öyrəndik ki, E.Həsənov Xocalı rayonunun vaxtilə erməni separatçılarına qan uddurmuş qəhrəman Kosalar kəndindəndir. Doğma yurd-yuvasından didərgin düşəndə cəmi 9 yaşı olub. Uzun illər ailəsi ilə birlikdə məcburi köçkün kimi Gəncə ətrafında məskunlaşan Elçin həqiqi hərbi xidmət yaşı çatdıqda Vətən borcunu ödəməyi özünə şərəf bilərək ordu sıralarına yollanıb. Çətin relyefli Murovdağ silsiləsindəki "N" saylı hərbi hissədə xidmətini başa vursa da, öz təbirincə desək, müqəddəs borcunun bitmədiyinə qərar verib.

Daha 8 il müddətdən artıq xidmət edən hərbi qulluqçu kimi Murovun qarlı səngərlərində torpaqlarımızın keşiyində dayanıb. Öz ata-baba yurdunun da erməni işğalında olması onun ürəyində mənfur düşmənə qarşı qəzəb və qisas hissini alovlandırıb. 2020-ci ildə Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun şanlı qələbəsi ilə bitən 44 günlük savaşın iştirakçısı olmuş Elçin müharibədən sonra xidməti vəzifəsini yerinə yetirərkən yaralanıb və 2021-ci ildə ikinci qrup əlil kimi ordu sıralarından tərxis edilib.

Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpa edilməsindən sonra Vətən həsrəti sona çatan, doğma yurda qayıtmaq arzuları gerçəkliyə çevrilən Elçin Həsənov 2024-cü ilin sonlarında Xocalı rayonunda çörək sexi açmaq xahişi ilə aidiyyəti qurumlara müraciət edib. Müraciəti qısa müddətdə müsbət cavablandırıb və artıq bir neçə aydır ki, Ballıcada işə başlayıblar. İndi təkcə sakinlər deyil, kəndin çoxsaylı qonaqları da isti təndir çörəyi üçün bu ünvana üz tuturlar. Elçin Qarabağda həyata keçirilən bərpa-quruculuq işlərində iştirak etməyin qürurverici olduğunu dedi:

– Bu gün möhtərəm Prezidentimiz, böyük Sərkərdəmiz sayəsində işğaldan azad edilmiş torpaqlarımızda yeni tarix yazılır. Həm doğma yurda qayıtmaq, həm də görülən işlərin şahidi və iştirakçısı olmaq mənim üçün böyük şərəfdir. Fəxr edirəm ki, Ballıcada öz camaatımızın xidmətindəyəm. Uşaq vaxtı ayrı düşdüyüm Vətənimə iki övlad atası kimi dönmüşəm. Bizim bu gözəl yerlərdə yarımçıq qalmış uşaqlığımızı, gəncliyimizi onlar biz əvəzdən də yaşayacaqlar. Bax, bu duyğular sözlə ifadə ediləcək deyil!

Yeni müəssisə həm də yeni iş yerləri deməkdir. Çörək sexində hazırda 4 nəfər çalışır. Dadlı, ətirli Qarabağ çörəyini bişirən Gülşən Bayramova da təəssüratlarını qəzetimizin oxucuları ilə bölüşdü:

– Ailəmiz Xocalıdan didərgin düşdükdən sonra Ucar rayonunda məskunlaşmışdı və mən dünyaya məcburi köçkün kimi gəlmişəm. Ona görə də nə Xocalını, nə Kosaları, nə də Ballıcanı görmüşdüm. Ancaq ailəmizdə ata-baba yurdlarımız haqqında söhbətlər bu yerləri mənə sevdirmişdi. Çox şükür, artıq neçə aydır ailəmlə, iki balamla daimi olaraq Ballıcaya qayıtmışam və bu sexdə ürəklə, sevinclə işləyirəm. Çalışıram elə çörəklər bişirim ki, yeyənlərin ağzı dada gəlsin.

Allah bütün şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin, ordumuzu qorusun! Bugünkü xoşbəxtliyi, sevinci, qüruru bizə bəxş edən Prezidentimizlə fəxr edirik, gecə-gündüz ona duaçıyıq.

... Ballıcadakı çörək sexinin işçilərinə işlərində uğurlar arzulayıb, söhbətimizi də beləcə yekunlaşdırmış olduq. Yadımdadır, hələ uşaq vaxtı kəndimizdə təndirdə çörək bişirən analar, nənələr xeyli uzaqdan keçənləri də səsləyirdilər ki, gəlin, təzə çörəyimizdən kəsin. Səbəbini soruşanda mənasını sonralar daha dərindən dərk edəcəyim cavab almışdım: Xalis buğda çörəyinin ətri xeyli uzaqlara qədər yayılır. Ona görə yoldan keçənləri çörəkdən yeməyə dəvət edirlər ki, birdən ac olar, o ətri hiss etmiş insanın meyli çəkər. Bax, xalqımız belə müdrik, belə böyük xalqdır! Sanki torpaqlarımız işğal altında olanda Qarabağ çörəyi də öz ətrini itirmişdi. Bu gün isə əzəli sakinləri öz yurdlarına qayıtdıqları kimi, çörəyimizin də ətri, dadı, bərəkəti özünə qayıdır. "Torpaq çörəyi ilə, insan əməyi ilə" deyib atalarımız. Əməyimizin bəhrəsi olan çörəyimiz bol, süfrələrimiz hər zaman bərəkətli olsun, Qarabağımız bir daha təzə çörək ətrinə həsrət qalmasın!

*✍ **Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri,***
***Xocalı***

# Tovuzda peşə festivalı

**Tovuz şəhərinin mərkəzində gənclərin peşə təhsilinə marağının artırılması, onların əmək bazarının tələblərinə uyğun yönləndirilməsi və maarifləndirilməsi məqsədilə növbəti dəfə "PeşəFest-2025" festivalı keçirildi. Festival təkcə yerli ictimaiyyətin deyil, həmçinin ətraf rayonlardan gələn qonaqların da böyük marağına səbəb oldu.**

Tədbirin açılışında çıxış edən Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov peşə təhsilinin region üçün strateji əhəmiyyətini vurğulayaraq bildirdi ki, ölkədə bu sahəyə olan diqqət hər il artmaqdadır. O qeyd etdi ki, əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan inkişaf strategiyası bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Peşə təhsilinin müasirləşdirilməsi, onun gənclər üçün cəlbedici və perspektivli sahəyə çevrilməsi dövlətin sosial-iqtisadi siyasətinin mühüm istiqamətlərindən biridir.




Milli Məclisin deputatı Nizami Səfərov və Dövlət Məşğulluq Agentliyinin sədri Sadiq Əliyev də çıxış edərək "PeşəFest-2025"in ölkənin 11 iqtisadi rayonunu əhatə edən genişmiqyaslı karyerayönümlü layihə olduğunu vurğuladılar. Onlar gəncləri müasir iqtisadiyyatın tələb etdiyi bacarıqlarla silahlanmağa, innovativ peşələrə yiyələnməyə, özünü daimi inkişafda görməyə səslədilər. Peşə təhsilinin sadəcə bir iş imkanı deyil, həm də sabit gələcək və sosial rifahın təməli olduğu bir daha diqqətə çatdırıldı.

Rəsmi çıxışlardan sonra festival çərçivəsində quraşdırılmış stendlərə baxış keçirildi. Kibertəhlükəsizlikdən tutmuş data analitikaya, xilasedicilikdən qənnadıçılığa, avtomobil təmirindən turizm təşkilatçılığına qədər 14 müxtəlif peşə istiqamətində təqdim olunan interaktiv zonalar, "master-klaslar" və canlı təqdimatlar gənclərin böyük marağına səbəb oldu. Peşəkarlar öz sahələrinə dair ətraflı məlumat verərək gəncləri maraqlandıran sualları cavablandırdılar, onlara faydalı tövsiyələr verdilər.

Festivalın ən diqqətçəkən tərəfi isə müxtəlif sahələr üzrə təşkil olunmuş maarifləndirici məkanlar oldu. Burada müxtəlif peşələrin mahiyyəti, tətbiq sahələri, gələcək perspektivləri barədə əyani məlumatlar verildi. Bu isə gənclərə nəinki peşələri tanıtmaq, həm də onların real iş mühitini hiss etdirmək baxımından olduqca önəmli idi.

Tədbirin sonunda keçirilən geniş konsert proqramı isə festivalın ümumi ab-havasını tamamladı, gənclər üçün əyləncə və enerji dolu anlar yaşatdı.

*✍ **Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

# Qusar bağlarının bar mövsümü

## *Çöllərdə qalmasın əllərin bərəkəti*

**Zirvələri yay-qış qar örpəkli uca Şahdağın ətəklərində, barlı-bərəkətli torpaqlarda yerləşir Qusar rayonu. Azərbaycanımızın şimal guşəsidir bura. Gözəl təbiəti, bol suyu, ən başlıcası, yurda, torpağa, vətənə qəlbən bağlı olan insanları var. Qusar sakinləri dostluğa, qardaşlığa sədaqətli olmaları ilə də ad qazanıblar.**

Bu günlərdə yolum məmləkətimizin bu gözəl guşəsinə düşmüşdü. Hara getdim, hara nəzər yetirdim, hər yerdə səliqə-sahman, gül-çiçək görüb sevindim. Əli iş tutanların çoxu iş başında idilər, bağlarda, təsərrüfatlarda çalışırdılar. Yaşlılar, ahılların bir çoxu isə park və xiyabanlarda söhbət edərək istirahət edirdilər.

Rayon mərkəzində bir neçə şəhər sakini ilə həmsöhbət oldum. Onlar ürəkdolusu ölkəmizdəki əmin-amanlıqdan, inkişaf və tərəqqidən söz açdılar, dövlətimizin başçısı cənab İlham Əliyevin müdrik daxili və xarici siyasətindən məmnun qaldıqlarını söylədilər. Ölkə iqtidarının Qusar rayonuna göstərdiyi daimi diqqət və qayğıdan dərin razılıqlarını bildirdilər.




Burada öyrəndim ki, son illər Qusarda bütün sahələrdə, xüsusilə aqrar sektorda inkişaf daha da sürətlənib. Bu günlərdə isə torpaq pay mülkiyyətçiləri, fermerlər ilboyu yetişdikləri məhsulları sahələrdən toplayırlar, eyni zamanda onların anbarda saxlanması, tədarükü və satışı ilə məşğuldurlar. Hazırda rayonun meyvə bağlarında meyvə dəriminin qızğın çağıdır. Mövsümün əvvəlindən bu sahədə əldə olunan nəticələr sevindiricidir.

**Qusar Dövlət Aqrar İnkişaf Mərkəzinin (DAİM) direktoru Rauf Minhacovu 3 ildir ki, tanıyıram. Səmimi, işgüzar insandır. DAİM-in sədri əminliklə bildirdi ki,** qusarlı meyvəçilər bu il əvvəlki illərə nisbətən bağlardan daha çox məhsul toplayacaqlar. İndi əsas vəzifə məhsulu bağlardan tez və itkisiz yığıb təhvil verməkdir.

Rauf müəllim vurğuladı ki, rayonda mövcud olan əlverişli iqlim şəraiti, məhsuldar torpaq ehtiyatları və kənd təsərrüfatında çalışan təcrübəli işçi qüvvəsi yüksəkkeyfiyyətli meyvə, tərəvəz və heyvandarlıq məhsullarının istehsalına şərait yaradır. Təbii ki, şəxsi təşəbbüskarlıq, səriştə və bacarıq da yaxşı mənada öz sözünü deyir.

**DAİM sədri sonra bunları qeyd etdi:**

– Dövlət tərəfindən son illərdə göstərilən hərtərəfli dəstək, o cümlədən subsidiyalar, güzəştli kreditlər və texniki təminatın gücləndirilməsi bu istiqamətdə intensiv inkişafın əsasını qoyub. Aqrar sahədə nəticələr ilbəil yaxşılaşır. Məhsul artdıqca, əkin-biçin adamlarının gəlirləri də artır, dolanışıqları daha da yaxşılaşır.

Bir sıra rəqəm və göstəriciləri dəftərçəmə qeyd etdim. Bəlli oldu ki, hazırda rayonda 14 min 611 hektar meyvə bağı və 3 min 793 hektar tərəvəz sahəsi mövcuddur. İlin əvvəlindən aqrar sektorda bütün sahələr üzrə yaxşı nəticələr əldə edilib. Belə ki, 8 ay ərzində rayonda 29 min 828.3 ton kartof və tərəvəz, 28 min 350 ton isə meyvə tədarük olunub. Meyvə dərimi və tədarükünün noyabrın sonuna qədər yekunlaşacağı gözlənilir.

Ədalət naminə demək lazımdır ki, Qusar rayonu qonşu Quba kimi, öz sulu, ətirli meyvələri ilə məşhurdur. İndi rayonda 14 min 610 hektar meyvə bağı mövcuddur və bunun 4 min 787 hektarı alma bağlarıdır.

Bağlarda müasir texnologiyalar və innovativ metodlar geniş tətbiq edilir. Əsas məqsəd xarici bazarlara çıxarıla biləcək rəqabətədavamlı məhsul istehsal etməkdir. Qusarlılar bu məqsədlərinə doğru addım-addım uğurla irəliləyirlər. Rayonda yaxın və uzaq ölkələrə ixrac olunan məhsulun həcmi artır.

2024-cü ildə Qusar rayonunda, ümumilikdə, 72 min 479 ton meyvə istehsal olunub ki, bunun 50 min 800 tonu alma məhsuludur. Bu göstərici əvvəlki illərlə müqayisədə daha yüksəkdir və məhsuldarlığın artdığını əyani şəkildə nümayiş etdirir. Cari il sentyabr ayının əvvəlinə qədər rayonda artıq təxminən 30 min ton meyvə yığılıb və bu rəqəmin 16 min tonu almadır.

R.Minhacovun sözlərinə görə, yerli meyvə istehsalının artması ölkədə xarici məhsula olan tələbatı azaldır və fermerlərin iqtisadi vəziyyətinin yaxşılaşmasına müsbət təsir göstərir. Bu da kənd təsərrüfatı sektorunun güclənməsinə və rayonun sosial-iqtisadi inkişafına böyük töhfə verir.

Hər uğurun arxasında gərgin, düşünülmüş planlar, əməli işlər durur. Aqrar sektor elə bir sahədir ki, orada gərək hər iş vaxtında, məqamında görülsün. Qusar Rayon İcra Hakimiyyətinin başçısı Sahir Məmmədxanov şəxsən bütün bu işlərə diqqətlə nəzarət edir, tez-tez əkin və meyvə sahələrini gəzir, fermer və sahibkarlarla görüşür, üzə çıxan çətinlik və problemlərin operativ həllinə çalışır və buna çox vaxt nail olur.

Bu günlərdə Qusar rayonunda kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən fermer və sahibkarların mövcud problemlərinin və təkliflərinin öyrənilməsi məqsədilə görüş təşkil olunub. Görüş Kənd Təsərrüfatı Nazirliyi nümayəndələrinin iştirakı ilə Qusar DAİM-in yanında fəaliyyət göstərən Fermer Şurasının üzvləri və yerli fermerlərlə birgə keçirilib.

Toplantıda fermerlərin üzləşdiyi çətinliklər yerindəcə araşdırılıb, aqrar sektorda sahibkarlıq fəaliyyətinin səmərəliliyinin artırılması üçün dəstək mexanizmləri müzakirə edilib. Uzun illər tanıdığım bir fermer dedi ki, o, şəxsən həmin görüşdən razı qalıb. Rayon rəhbərliyi, həqiqətən, hər bir problemin mümkün qədər aradan qaldırılması üçün əməli işlər görür.



Yeri gəlmişkən, kənd təsərrüfatı naziri Məcnun Məmmədov bu günlərdə Qusar rayonuna səfər edərək aqrar sektorda görülən işlərlə yaxından tanış olub. Nazir bir çox aktual məsələlərlə yanaşı, rayonda içməli su layihəsinin icrası ilə maraqlanıb, rayonun Avaran kəndində "İSFA" MMC tərəfindən icra olunan içməli su layihəsinə baxış keçirib.

Layihə kəndin dayanıqlı və keyfiyyətli içməli su ilə təmin olunmasına yönəlib. M.Məmmədov su təchizatının kənd təsərrüfatı sahəsində mühüm rol oynadığını vurğulayaraq, bu cür infrastruktur layihələrinin regionlarda sosial rifahın və kənd təsərrüfatının inkişafına töhfə verdiyini qeyd edib.

Qusar yay-qış qonaqlı-qaralı rayondur. Yerli və əcnəbi turistlər bura böyük həvəslə gəlirlər. Rayonda kifayət qədər müasir turizm obyektləri fəaliyyət göstərir. Onlardan ən böyüyü 2012-ci ildə istifadəyə verilən "Şahdağ Turizm Mərkəzi"dir. Mərkəz Böyük Qafqaz dağ silsiləsinin ətəyində, ekoloji sistemi və zəngin flora və fauna ilə tanınan Şahdağ Milli Parkının yaxınlığında yerləşir. Bura ölkəmizdə ilk və ən böyük dağ-xizək kurortudur.

Qusara səfər edib buranın gur bazarına ayaq basmamaq olmazdı. Bu dəfə də maraq məni şəhər bazarına baş çəkməyə sövq etdi. Gördüm ki, buradakı piştaxtalar çeşidli meyvə və tərəvəzlərlə boldur. Çoxu da yerli məhsullardır. Alıcı da çox idi.

Yaşlı satıcı dedi ki, Qusarda meyvə və tərəvəz qonşu rayonlara nisbətən daha ucuz olduğu üçün onlar müştəri sarıdan korluq çəkmirlər. Alıcılar, xüsusilə yaşlı adamlar daha çox ata-baba meyvə sortlarına üstünlük verirlər. Satıcı sonra cibindən əl bıçağını çıxarıb bir armudun qabığını səliqə ilə soydu, bir dilimini mənə tərəf uzadıb lütfkarcasına dedi:

– Nar armududur. Ye, belə armud ələ düşən deyil.

Yedim, həqiqətən, çox dadlı idi.

*✍ **Məsaim ABDULLAYEV***
***XQ***

*Təbiət idraka çağırır bizi*

# Hər damla su həyat cövhəri, bolluq qaynağıdır



## *İnsanlığı qlobal su sınağı gözləyir*

**Azərbaycan dövləti özünün sosial-iqtisadi inkişaf modelində strateji resursların idarə olunmasına xüsusi önəm verir. Bu baxımdan, su ehtiyatları və onlardan səmərəli istifadə təkcə ekoloji və bioloji deyil, həm də milli təhlükəsizlik, ərzaq təminatı və siyasi sabitlik baxımından mühüm əhəmiyyət daşıyır. Dünyada gedən qlobal ekoloji proseslər, xüsusilə iqlim dəyişiklikləri və geosiyasi gərginliklər fonunda su problemi bir çox ölkələr üçün həyati məsələyə çevrilib. Azərbaycan da bu çağırışdan kənarda deyil. Ölkəmiz ciddi problemlə qarşı-qarşıyadır.**

Statistik rəqəmlər də təsdiqləyir ki, Azərbaycanın təbii su ehtiyatları region ölkələri ilə müqayisədə olduqca məhduddur. Belə ki, Cənubi Qafqaz regionunda mövcud su ehtiyatlarının cəmi 10 faizi ölkəmizin payına düşür. Üstəlik, ümumi su ehtiyatlarımızın 70–75 faizi transsərhəd çaylardan formalaşır. Bu asılılıq geosiyasi riskləri artırır və su təhlükəsizliyini strateji təhlükəsizlik məsələsinə çevirir.

İqlim dəyişiklikləri də ölkəmizin su balansına mənfi təsir göstərir. Əgər əvvəlki illərdə Azərbaycanın illik su ehtiyatı, təxminən, 30 kubkilometr idisə, hazırda 22–23 kubkilometrə qədər azalıb. Bu isə həm içməli su, həm kənd təsərrüfatı, həm də sənaye sahələrində ciddi çətinliklər yaradır. Dünya Resursları İnstitutunun məlumatına görə, 2050-ci ilə qədər ölkəmiz “orta-yüksək” su qıtlığı riski kateqoriyasında olacaq. BMT-nin hesabatında isə bu ehtiyatların 2040-cı ilə qədər 5–10 faiz, bəzi ssenarilərə görə isə 15 faizə qədər azalacağı bildirilir.

**Belə vəziyyət ölkənin su təhlükəsizliyini mürəkkəbləşdirir, gələcəkdə yeni böhranların yaranması ehtimalını artırır. Bununla bağlı Elm və Təhsil Nazirliyinin Coğrafiya İnstitutunun şöbə müdiri, coğrafiya elmləri doktoru Nəriman Paşayev dedi ki, ölkə ərazisinin 66,4 faizi quru subtropik iqlim qurşağında yerləşir:**

– Qalan 30 faizdən bir qədər artıq ərazi mülayim iqlimə malikdir. Bu isə o deməkdir ki, Azərbaycanın əksər bölgələri iqlim dəyişikliyinin yaratdığı quraqlıq risklərinə həssasdır. Ona görə də iqlimdə baş verən dəyişiklik və onun səbəb olduğu quraqlıq ciddi su problemi yaradır. Kür – Araz, Samur – Dəvəçi, Abşeron – Qobustan ovalıqları, Naxçıvanın Araz çayı boyu düzənliyi iqlim dəyişikliyinə daha çox məruz qalır. Yarımsəhra və quru çöl iqlimində olan bu ərazilərdə böyük su çatışmazlığı var.

Üstəlik, ən iri və strateji əhəmiyyət daşıyan çaylarımız ölkədən kənarda formalaşır. Kür və Araz Türkiyədən, Samur çayı isə Rusiyadan daxil olur. Bu transsərhəd sular Azərbaycanın ümumi su balansının əsasını təşkil edir. Belə vəziyyətdə qonşu ölkələrdə Kür və Araz çayları üzərində inşa edilən su anbarları Azərbaycanın bu çaylardan əldə etdiyi suyun həcmini əhəmiyyətli dərəcədə azaldır. Bundan başqa, kənd təsərrüfatı və sənaye sektorunda suya olan tələbatın artması da əlbəttə ki, transsərhəd çaylardan aşağı axımlara ötürülən suyun azalmasına səbəb olur. Bu isə öz növbəsində, Azərbaycanın içməli su təminatına, suvarma sistemlərinə və ümumi su balansına mənfi təsir göstərir.



**Coğrafiya İnstitutunun şöbə müdiri İsmayıl Quliyev isə bildirdi ki, Azərbaycanda formalaşan suyun cəmi 2,5 faizi içməli sudur, 70 faizdən çoxu suvarmada istifadə olunur:**

– Hər il qonşu ölkələrdən gələn yerüstü sular azalır. Digər tərəfdən qlobal istiləşmə bilavasitə atmosfer yağıntılarının və su ehtiyatlarımızın azalmasına gətirib çıxarır. Nəticədə, Kür, Araz və Samurda vəziyyət ürəkaçan deyil. Məsələn, Kür çayının doluluğu 27 faiz aşağı düşüb. Onun səviyyəsi o qədər azalıb ki (2020-ci il), yay aylarında çayda şirin su ehtiyatı tükənir və Xəzərə çatmır. Dənizdən çaya axan duzlu su bu ərazilərdə içməli su problemi yaradır. Ümumiyyətlə, məsələ 15 ildən çoxdur ki, aktuallaşıb. Eyni vəziyyət digər çaylarımıza da aiddir: Araz çayında doluluq 34,58 faiz, Samur çayında 21,8 faiz, Qanıx çayında isə 9,17 faizdir. Qafqazın şərq yamacından tökülən xırda çayların suyu yay aylarında Xəzər dənizinə gedib çatmır. Deməli, kiçik çaylar, göllər və bulaqlar tədricən quruyur, ölkənin su ehtiyatları isə ildən-ilə azalır.

**Müsahibimiz əlavə etdi ki, iqlim dəyişikliyi yalnız Aran rayonlarına deyil, dağlıq ərazilərə də təsir edir:**

– İqlim dəyişikliyinin təsirləri təkcə düzən ərazilərlə məhdudlaşmır. Həmçinin dağlıq bölgələrə də təsir göstərir. Bu gün artıq Yardımlı, Gədəbəy, Qəbələ kimi rayonların dağ kəndlərində də bulaqların sululuğu azalıb, bəziləri isə quruyur.

Digər narahatedici məqam isə Abşeron yarımadasıdır. Burada içməli və texniki su ehtiyatları ən aşağı səviyyədədir. Vaxtilə əsas su mənbəyi olan ovdan və quyular ya quruyub, ya da şoranlaşıb. Hazırda bölgənin su təminatı əsasən Quba, Qəbələ və Kür çayı hesabına qarşılanır ki, bu da həm xərcləri artırır, həm də infrastruktur üçün problemlər yaradır.

Ümidverici məqam da var. Azərbaycanın daxili su ehtiyatlarının 25 faizi Qarabağ bölgəsində formalaşır. Bu, transsərhəd asılılıqdan kənar yerli mənbələrə əsaslandığı üçün strateji üstünlük sayılır. Lakin illərlə işğal altında qaldığına görə bu potensialdan istifadə mümkün olmayıb. Ərazilər azad edildikdən sonra su ehtiyatları yenidən iqtisadiyyata cəlb olunub.

Bu üstünlüyə baxmayaraq, Qarabağda da su ehtiyatları azalır. Təəssüf ki, peyk müşahidələri və iqlim modelləri son onilliklərdə bölgədə su ehtiyatlarının azaldığını göstərir. Ümumiyyətlə, yağıntıların qeyri-sabitliyi və qar örtüyünün azalması su balansını pozur. Bu səbəbdən Qarabağda su ehtiyatlarının səmərəli idarə olunması strateji məsələdir. Resursların monitorinqi, yeni su anbarlarının tikintisi və itkilərin azaldılması üçün layihələrə ehtiyac var. Bu potensialdan tam istifadə yalnız sistemli və davamlı yanaşma ilə mümkündür.

### Suya tələbatı artıran səbəblər

Su probleminin kəskinləşməsinə səbəb olan amillərdən biri əhali sayının artması, urbanizasiyadır. Yeni yaşayış massivləri, artan şəhərləşmə və sənaye obyektləri mövcud su ehtiyatlarına tələbatı artırır. Bu tələbatın qarşılanmasında köhnəlmiş su infrastrukturu ciddi problemlər yaradır. Su şəbəkələrində tez-tez baş verən sızmalar, nasazlıqlar və idarəetmədəki boşluqlar nəticəsində böyük həcmdə su itkisi baş verir. Əhalinin içməli su problemi çətinləşir.

Su qıtlığından ən çox əziyyət çəkən sahələrdən biri də kənd təsərrüfatıdır. Hər il əkin sahələrinin genişlənməsinə baxmayaraq, su təminatında irəliləyiş yoxdur. Əsasən taxıl və pambıq sahələri suvarılır, lakin bu proses hələ də köhnəlmiş, səmərəsiz üsullarla həyata keçirilir. Açıq kanallar vasitəsilə suvarma zamanı suyun böyük hissəsi buxarlanma və sızma yolu ilə itirilir. Müasir suvarma texnologiyalarının tətbiqi isə çox məhduddur. Nəticədə, torpaqların şoranlaşması, məhsuldarlığın azalması və bəzən məhsulun tam itirilməsi halları yaşanır ki, bu da kənd təsərrüfatı ilə məşğul olan əhalinin gəlirlərinin azalmasına və miqrasiya meyillərinin artmasına səbəb olur.

Eyni zamanda, sənayenin inkişafı da suya tələbatı artırır. Sənaye müəssisələrinin əksəriyyəti Bakıda yerləşir və burada su problemi daha kəskindir. Bu isə həm istehsalat proseslərini çətinləşdirir, həm də əhalinin gündəlik su təminatında gərginlik yaradır. Belə şəraitdə Azərbaycanın hər bölgəsi üzrə iqlim dəyişikliyinin yaratdığı su problemi lokal səviyyədə qiymətləndirilməli və regionlara uyğun fərqli yanaşmalar tətbiq olunmalıdır. Aran bölgələri üçün suvarma sistemlərinin yenilənməsi və yeraltı suların qorunması prioritetdirsə, dağlıq bölgələrdə bulaqların bərpası və ya yeni su mənbələrinin tapılması həyati əhəmiyyət kəsb edir.

Abşeron yarımadası kimi su qıtlığının ən kəskin hiss olunduğu ərazilərdə isə müasir texnologiyalardan, o cümlədən dəniz suyunun duzsuzlaşdırılması, yağış sularının toplanması, texniki suyun təkrar istifadəsi kimi innovativ həllər tətbiq olunmalıdır. Əks halda, gələcəkdə bu ərazilərdə həm əhalinin içməli su təminatı, həm də iqtisadi fəaliyyətlərin davamlılığı ciddi təhlükə altına düşə bilər.

Bir sözlə, iqlim dəyişikliklərinin nəticələri artıq yalnız statistik rəqəmlər və elmi modellər səviyyəsində deyil, gündəlik həyatda da özünü göstərir. Bu tendensiya dayanıqlı inkişafın və əhalinin həyat keyfiyyətinin qorunması üçün su ehtiyatlarının ciddi şəkildə idarəsi və müasir yanaşmalarla dəstəklənməsini zəruri edir. Ona görə də Azərbaycanda su ehtiyatlarının səmərəli idarə olunması dövlətin strateji inkişaf planlarında mühüm yer tutur. 2021–2037-ci illəri əhatə edən “Su ehtiyatlarından səmərəli istifadə üzrə Milli Strategiya” bu sahədə əsas sənəd olaraq su təhlükəsizliyinin təmin edilməsinə, təbii sərvətlərin qorunmasına və dayanıqlı inkişafın təmin olunmasına yönəlib.

### Müasir texnologiyalar köməyə gəlir

Əhalinin artması, ərzaq məhsullarına tələbatın yüksəlməsi və su ehtiyatlarının azalması şəraitində kənd təsərrüfatında suvarma sistemlərinin müasirləşdirilməsi təkcə texnoloji yenilik deyil, həm də strateji zərurət kimi çıxış edir. Bu kontekstdə, ölkəmizdə həyata keçirilən Dövlət proqramları və strateji sənədlərdə yeni nəsil suvarma texnologiyalarının tətbiqinə xüsusi önəm verilir. Qeyd olunmalıdır ki, mövcud Strategiyaya əsasən, 2027-ci ilə qədər kənd təsərrüfatı sahəsində müasir suvarma sistemlərinin tətbiqi 10 faizədək artırılacaq. Bu rəqəm ilk baxışdan kiçik görünsə də onun təsiri böyükdür. Çünki burada söhbət təkcə suya qənaətdən deyil, həm də məhsuldarlığın yüksəldilməsi, enerji sərfiyyatının azaldılması və insan əməyinin yüngülləşdirilməsindən gedir.

Elm və texnologiyanın kənd təsərrüfatına inteqrasiyası, xüsusilə də “ağıllı suvarma sistemləri” artıq reallığa çevrilməkdədir. **Coğrafiya İnstitutunun şöbə müdiri İsmayıl İsmayılovun** sözlərinə görə, bu sistemlər torpağın rütubətini, hava şəraitini, günəş işığını və temperaturu ölçən sensorlar vasitəsilə suvarma rejimini avtomatik tənzimləyir. Yəni torpağa su yalnız bitkinin ehtiyac duyduğu vaxt və miqdarda verilir. Beləliklə, suya 50 faizədək, enerjiyə isə 30-40 faizədək qənaət edilir ki, bu da milli iqtisadiyyatın səmərəliliyi baxımından mühüm göstəricidir.

Məlumat üçün bildirək ki, bu sahədə artıq yerli şirkətlər də ciddi təşəbbüslərlə çıxış edirlər. Məsələn, “Esular” şirkətinin hazırladığı GSM əsaslı cihazlar elektrik enerjisinin kəsilməsi halında belə 6 saata qədər fasiləsiz işləyə bilir. Bu cihazlar 10 kilometrlik məsafədən sensor məlumatlarını toplayır və 5 kilometrlik radiusda suvarma sisteminə tam nəzarət imkanı yaradır. İstifadəçilər SMS vasitəsilə məlumatlandırılır, hər hansı nasazlıq baş verdikdə dərhal reaksiya vermək imkanı qazanırlar. Bu texnologiyalar, sadəcə, innovativ yenilik deyil, həm də resurs israfının qarşısını alan, məhsulun keyfiyyətinə və miqdarına birbaşa təsir göstərən əhəmiyyətli vasitədir.

Suya qənaətlə yanaşı, bu sistemlər torpaqların şoranlaşmasının qarşısını alır, məhsulun su stresindən məhv olmasını əngəlləyir. Əldə edilən nəticələr isə danılmazdır: statistikaya əsasən, müasir suvarma sistemlərinin tətbiq olunduğu təsərrüfatlarda məhsuldarlıq iki dəfə artıb, su sərfiyyatı isə təqribən 2,5 dəfə azalıb. Bu göstəricilər Azərbaycanın su ehtiyatlarını qorumaqla yanaşı, ərzaq təhlükəsizliyini təmin etmək istiqamətində də ciddi irəliləyişlərə zəmin yaradır.

Hazırda müasir suvarma texnologiyalarının tətbiqi daha çox “ağıllı kənd” layihələri çərçivəsində həyata keçirilir. Burada əsas məqsəd ənənəvi, israfedici və səmərəsiz suvarma üsullarını mərhələli şəkildə tamamilə aradan qaldırmaqdır. Açıq kanallarla suvarma zamanı baş verən su itkisi, buxarlanma və torpağın şoranlaşması problemi damcı suvarma və uzaqdan idarə olunan sistemlər vasitəsilə minimuma endirilir.

Lakin istənilən texnologiyanın tətbiqi yalnız onun üstünlükləri ilə deyil, eyni zamanda, müəyyən çətinliklərlə də müşayiət olunur. “Ağıllı” suvarma texnologiyalarının geniş tətbiqini əngəlləyən əsas amillər arasında avadanlıqların baha başa gəlməsi, texniki qulluq ehtiyacı və bəzi hallarda iqlimə davamlılıq problemi yer alır. Buna



baxmayaraq, mütəxəssislər bildirirlər ki, texnologiyanın sürətli inkişafı fonunda bu problemlərin əksəriyyəti yaxın illərdə həllini tapacaq və bu sistemlərin tətbiqi daha əlçatan və sərfəli olacaq.

Unutmayaq ki, kənd təsərrüfatında rəqəmsallaşmanın aparıcı istiqamətlərindən biri olan “ağıllı suvarma sistemləri” təkcə iqtisadi səmərəlilik deyil, həm də ekoloji tarazlıq, su resurslarının qorunması, enerji qənaəti və ərzaq təhlükəsizliyi baxımından da böyük strateji önəm daşıyır. Su resurslarının səmərəli idarə olunması və kənd təsərrüfatının davamlı inkişafı üçün bu texnologiyalar artıq lüks deyil, qaçılmaz zərurətdir. Unutmayaq ki, gələcəyin kənd təsərrüfatı bu günün “ağıllı texnologiya”larından başlayır.

### Sututarlar: ehtiyat və səmərə

Göründüyü kimi, Azərbaycanda su ehtiyatlarının səmərəli idarə olunması və kənd təsərrüfatının davamlı inkişafı dövlət siyasətinin əsas prioritet istiqamətidir. Bu çərçivədə qarşıya qoyulan mühüm hədəflərdən biri də kənd təsərrüfatı sahələrinin 90 faizinin suvarma suyu ilə təmin olunmasıdır. Bu məqsəd həm ərzaq təhlükəsizliyinin təmin olunması, həm də aqrar sektorun uzunmüddətli inkişafı baxımından mühüm strateji əhəmiyyət daşıyır. Son dövrlərdə bu istiqamətdə həyata keçirilən tədbirlər sırasında alternativ su mənbələrinin, xüsusilə yağış və sel sularının toplanaraq istifadəyə yönəldilməsi önəmli yer tutur. Lakin qeyd olunan sahədə bir sıra problemlər var.

Yağış sularının toplanmadan axıdılması, sel sularının yönləndirilməməsi və nəticədə istifadəyə yararsız hala düşməsi bu problemlərin əsasını təşkil edir. Halbuki əvvəlki illərdə axmazlar vasitəsilə bu suların idarə olunması praktikası mövcud idi. Təəssüf ki, bu sistemlər son illərdə funksionallığını itirib. 2023-2024-cü illərdə yağıntıların artmasına baxmayaraq, həmin suların toplanması və istifadəyə yönəldilməsi mümkün olmayıb. Nəticədə, bir tərəfdən daşqın və sel təhlükəsi, digər tərəfdən isə yay aylarında su qıtlığı kimi problemlər yaranıb. Bu vəziyyətin aradan qaldırılması üçün müasir axmazların və lokal sutoplayıcı sistemlərin yaradılması günün tələbidir.

**İ.İsmayılov bu məsələ ilə bağlı qeyd etdi ki, transsərhəd sulardan asılılığın azaldılması üçün ölkə daxilində dayanıqlı su infrastrukturunun yaradılması vacibdir:**

– Hazırda çaylar üzərində yeni su anbarları inşa edilir, mövcud sututarlar isə müasir tələblər səviyyəsində yenidən qurulur. Bu obyektlər, eyni zamanda, sel və daşqın sularının toplanaraq yay mövsümündə istifadəsinə də şərait yaradır.

Hazırda Azərbaycanda 140-dan artıq su anbarı fəaliyyət göstərir. Onların arasında Mingəçevir su anbarı tutumu baxımından ən iri su hövzəsi hesab olunur. Taxtakörpü, Şəmkirçay, Tovuzçay və Göytəpə su anbarları müasir standartlara cavab verən mühüm infrastruktur layihələri sırasındadır. Qarabağ bölgəsində, işğaldan azad olunmuş ərazilərdə də yeni su anbarları tikilib istifadəyə verilir. Bu layihələr kənd təsərrüfatının su təminatının yaxşılaşdırılması ilə yanaşı, ölkənin ümumi su idarəçiliyinin optimallaşdırılmasında mühüm rol oynayır.

Xatırladaq ki, kənd təsərrüfatı ilə yanaşı, sənaye sahəsində də suya tələbat artır. Xüsusilə, neft-kimya, metallurgiya, toxuculuq və digər emal sənayesi sahələrində həyata keçirilən iri layihələr su resurslarına əlavə təzyiqlər yaradır. Bu səbəbdən istifadə olunmuş sənaye sularının təkrar emalı və dövriyyəyə qaytarılması məsələsi prioritetə çevrilib. Bu yanaşma həm iqtisadi səmərəliliyin artırılmasına, həm də ətraf mühitin mühafizəsinə mühüm töhfə verəcək.

Onu da qeyd edək ki, su ehtiyatlarının idarə olunmasında qarşıya çıxan əsas çətinliklərdən biri də itkilərin yüksək olmasıdır. Suvarma sistemlərinin fiziki cəhətdən köhnəlməsi, şəbəkələrdə texniki nasazlıqlar və ümumi infrastrukturun istismara yararsız vəziyyəti nəticəsində böyük həcmdə su sızma və buxarlanma yolu ilə itirilir. Bu itkilərin minimuma endirilməsi üçün mövcud infrastrukturun müasirləşdirilməsi, rəqəmsal texnologiyaların tətbiqi, avtomatlaşdırılmış monitorinq sistemlərinin quraşdırılması və qabaqcıl idarəetmə alqoritmlərinin tətbiqi xüsusi əhəmiyyət kəsb edir.

Əldə olunan təcrübə və nəticələr sübut edir ki, düzgün idarəetmə və müasir texnologiyaların tətbiqi ilə su ehtiyatlarına qənaət etməklə yanaşı, kənd təsərrüfatı və sənaye sahələrində məhsuldarlığı artırmaq da mümkündür. Bu baxımdan, mövcud resursların qorunması və səmərəli istiqamətləndirilməsi təkcə texniki deyil, həm də strateji əhəmiyyətli məsələdir.

Beləliklə, su problemi Azərbaycanda yalnız ekoloji deyil, həm də strateji, sosial-iqtisadi və milli təhlükəsizlik məsələsi olaraq dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi ön plandadır. Yeni su anbarlarının tikintisi, axmaz sistemlərinin bərpası, təkrar istifadə texnologiyalarının tətbiqi və səmərəsiz istifadənin qarşısını alan innovativ həllər bu sahədə atılan addımların əsasını təşkil edir. Bu gün həyata keçirilən tədbirlər yalnız indiki dövr üçün deyil, gələcək nəsillərin su təhlükəsizliyinin təmin olunması baxımından da həyati əhəmiyyət kəsb edir.

*✍ Ə.PÜNHAN*
*XQ*

# Nəsimi – şeir, mənəviyyat və incəsənət festivalı: multidisiplinar təqdimatlar və ustad dərsləri





**Sentyabrın 24-də Şamaxıda keçirilən Nəsimi - şeir, mənəviyyat və incəsənət festivalında növbəti təqdimat “Multidisiplinar İncəsənət Festivalı” olub.**

Nəsiminin şeirləri, qəzəlləri musiqi və rəqs vasitəsilə təqdim olunub.

Sonra qəzəlxan Arif Buzovnalı və gənc şairlərin çıxışları dinlənilib.

Tədbirdə incəsənət ustaları Nəsiminin sözlərini və fəlsəfi ideyalarını müasir ifadələrlə auditoriyaya çatdırıblar. Festival iştirakçıları həm vizual, həm də emosional olaraq Nəsimi irsi ilə daha yaxından tanış olublar.

Festival çərçivəsində, həmçinin gildən hərfdüzəltmə, art-terapiya, ekoçanta üzərində qrafika, xəttatlıq, meditasiya, bədən plastikası kimi ustad dərsləri keçirilib. Həmçinin “Çardaq” qrupunun ifası və poeziya fləş-mobu olub.

Daha sonra türkiyəli yazar və musiqiçi Hakan Mengüç sufizm fəlsəfəsi haqqında çıxış edib.

Hakan Mengüç açıqlamasında bu festivalda iştirakdan məmnunluğunu bildirib.

O, həmçinin tədbirə çoxlu sayda gəncin qatıldığını bildirib: “Onların bu mövzuya maraq göstərməsi məni sevindirir. Deməli bir şəkildə sözlərimizlə qəlblərə toxuna bilirik”, – deyə o vurğulayıb.

Türk Dünyası Araşdırmaları İnstitutunun nümayəndəsi professor Metin Ekiçi bildirib ki, Nəsimi Türk dünyasının ortaq mədəni irsidir. O əlavə edib ki, Nəsiminin doğulduğu torpaqlarda təşkil edilən festival çərçivəsində səslənən şeirləri və qəzəlləri dinləmək böyük zövqdür.



Professor qeyd edib ki, bu cür tədbirlər Nəsimi irsinin gənc nəsillərə ötürülməsində və onun fəlsəfi-mənəvi dəyərlərinin qorunub saxlanılmasında mühüm rol oynayır.

Qeyd edək ki, Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı, ICESCO-nun tərəfdaşlığı ilə keçirilən Nəsimi - şeir, mənəviyyat və incəsənət festivalı Şərqin dahi şair və mütəfəkkirlərindən biri olmuş İmadəddin Nəsiminin (1369-1417) yaradıcılığına həsr edilərək, şeir və incəsənətin yaşadılması məqsədi daşıyır. Böyük şairin şeirləri yalnız möhtəşəm söz ustalığı nümunələri deyil, onlar bu gün də öz məna qüvvəsi ilə aktuallığını qoruyub saxlayır.

# Qazaxıstanla qardaşlığın söz körpüsü – Abay Kunanbayev

**Azərbaycan Türk dövlətləri ilə münasibətlərinə strateji əhəmiyyət verir. Bu yanaşma geosiyasi və iqtisadi maraqlarla yanaşı, tarixi, mədəni, mənəvi əlaqələrin dərin köklərinə söykənir. Qazaxıstan Respublikası ölkəmiz üçün önəmli tərəfdaşlardan biridir. Qazaxıstanın Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra diplomatik əlaqələr quran ilk Mərkəzi Asiya ölkələrindən biri olması iki dövlət arasında etimad və qarşılıqlı hörməti formalaşdırıb. Həmin dövrdən etibarən Azərbaycan və Qazaxıstan arasında əməkdaşlıq mədəniyyət və humanitar sahələrdə də intensiv şəkildə inkişaf edir.**



Həyata keçirilən ortaq layihələr xalqların bir-birinə daha da yaxınlaşmasına, həm də ortaq tarix və dəyərlərin qorunub inkişaf etdirilməsinə hesablanıb. Bu mənada, hər iki ölkədə müntəzəm olaraq keçirilən mədəniyyət günləri, sərgilər və folklor tədbirləri həm xalqlar arasında mədəni yaxınlığı gücləndirir, həm də diplomatik münasibətləri dərinləşdirir. Xüsusilə, Qazax klassik ədəbiyyatının görkəmli nümayəndəsi Abay Kunanbayevin irsi poeziya festivalları, elmi konfranslar, kitab təqdimatları və akademik mübadilə proqramlarında ortaq platforma kimi istifadə olunur. Görkəmli şairin irsi iki dövlətin mədəniyyət və diplomatiya sahəsindəki əməkdaşlığının rəmzi kimi strateji rol oynayır.

Novruzov qardaşları adına 36 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Xanım Fətəliyeva Abay Kunanbayevin yaradıcılığını yaxından izləyir. O, Qazaxıstan şairinin

*Abay küçəsindən başlayaraq*
*Bilinmir bu dünyada*
*Yalan harda, düz harda?*
*Nədir zülmət, nədir nur?*

misralarını bu cür təhlil edir: “Bu misralar xalqının dərdini, ağrı-acısını, parçalanmış ümidlərini ürək yanğısını ifadə edən, millətinin gələcəyini düşünən və onu öz canından artıq sevən böyük bir ürəyə sahib dahi Abay Kunanbayevin şeiridir. O, qazax xalqının milli kimliyinin, mənəvi irsinin və maarifçilik hərəkatının ən böyük simalarından biridir. Əslində A.Kunanbayevin ömür yolunu diqqətlə izləsək onu daha yaxşı tanıyarıq”.

A.Kunanbayevin 1845-ci ildə Semey vilayətində doğulduğunu və uşaqlıqdan biliyə böyük maraq göstərdiyini qeyd edən Xanım müəllim sözlərinə davam edir: “O, mollaxanada və mədrəsədə oxumuş, ərəb, fars dillərinə yiyələnmişdir. Şərq klassiklərinin əsərləri ilə tanış olan Abay öz xalqına elm işığını gətirmişdir. Maarifçilik yolunun öncülü olan Abay üçün poeziya sadəcə gözəllik deyil. O, xalqını cəhalət və tənbəllikdən oyatmaq – əxlaqa və zəhmətə çağırmaq üçün əsərlər qələmə alırdı. “Qara sözlər” əsəri bu gün də publisistik gücü ilə seçilir. O, Puşkin, Lermontov, Bayron, Höte kimi dahilərin əsərlərini tərcümə edərək qazax dilini dünya ədəbiyyatına açdı, xalqını isə böyük mədəniyyətlə tanış etdi. Xalqın ağrılarını öz qəlbində daşıyan şairin əsərlərində bir narahatlıq var idi. O, tayfa çəkişmələri, savadsızlıq və ədalətsizlik içində parçalanan xalqına kədərlənir, amma ümidini itirmirdi. İnanırdı ki, bir gün xalq elm və maarif yolu ilə oyanaraq işıqlı sabaha qovuşacaq. Çünki mənsub olduğu xalqın qədim mədəniyyətə, necə gözəl dəyərlərə sahib olduğunu bilirdi”.

Xanım Fətəliyeva vurğulayır ki, bu gün Qazaxıstanda küçələr, məktəblər, universitetlər, muzeylər Abay Kunanbayevin adını daşıyır. Abay küçəsi ilə addımlayan hər kəs, əslində, yol getmir, tarixlə üz-üzə gəlir, bir millətin düşüncə yolunda irəliləyir. Abayın qoyduğu mənəvi izləri təzələyir. Bu onun xalq üçün açdığı işıqlı yoldur. Abay Kunanbayevin irsi bütün türk dünyasının ortaq sərvətidir. Onun poeziyasında səslənən elm, ədalət, insanpərvərlik və mənəvi kamillik ideyaları bu gün də aktuallığını qoruyur. Abay Kunanbayevin yaradıcılıq yolu maarif, elm və mədəniyyətin yoludur. Bu yol Qazax xalqının dirçəliş yoludur. Bakımızın işıqlı küçələrindən birinin də xalqını sevən, elinin iztirablarını duyan A. Kunanbayevin adını daşıması iki xalq arasında bağlılığın simvoludur.

Məlumat üçün qeyd edək ki, Xanım Fətəliyevanın çalışdığı Novruzov qardaşları adına 36 nömrəli tam orta məktəb artıq bir neçə ildir ki, Qazaxıstanın Aktau şəhərində yerləşən Nazarbayev adına İntellektual Məktəblə sıx əməkdaşlıq edir. Hər iki məktəbin nümayəndələri qarşılıqlı səfərlər çərçivəsində elm və təhsil layihələrində iştirak ediblər. Əməkdaşlığın əsas sütunlarından biri OCEP layihəsi olub. Məktəbin təşəbbüsü ilə bu layihə idmandan əlavə, elm, təhsil və milli-mənəvi dəyərlərlə də əlaqələndirilib. Əlaqələr tədricən daha da möhkəmlənərək məktəblər arasında üçillik rəsmi əməkdaşlıq müqaviləsi bağlanıb. Hətta Azərbaycan məktəblərinin müəllim heyəti Qazaxıstana səfərlər edib, Nazarbayev adına İntellektual Məktəblə təcrübə mübadiləsi aparıblar.

***XQ***

# Macarıstanla yeni mədəni əməkdaşlıq proqramı



**Azərbaycan-Macarıstan arasında münasibətlər bütün sahələrdə uğurla inkişaf edir, mədəni əməkdaşlıq ildən-ilə genişlənir.**

Ötən gün Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyində Macarıstan Respublikasının mədəniyyət və innovasiyalar naziri Balazs Hankonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş olub.

Nazirlikdən XQ-yə bildirilib ki, sonda “Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Macarıstan Respublikasının Mədəniyyət və İnnovasiyalar Nazirliyi arasında 2025-2029-cu illər üzrə mədəniyyət sahəsində əməkdaşlıq proqramı” imzalanıb.

Sənədi Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli və Macarıstan Respublikasının mədəniyyət və innovasiyalar naziri Balazs Hanko imzalayıblar.

Beşillik proqramda mədəni irsin rəqəmsallaşdırılması, mədəni və yaradıcı sənayelər, həmçinin ədəbiyyat, təsviri və tətbiqi sənət, musiqi, teatr, kinematoqrafiya, kitab sənayesi, muzey işi və s. sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı məsələlər öz əksini tapıb.

***XQ***

# V Beynəlxalq Dil və Tərcüməşünaslıq Konfransı



**Dünən Azərbaycan Dillər Universitetinin Türkiyənin Səlcuq Universiteti ilə birlikdə təşkil etdiyi V Beynəlxalq Dil və Tərcüməşünaslıq Konfransının açılış mərasimi olub. Məclisdə dünyanın 14 ölkəsinin - Azərbaycan, ABŞ, Almaniya, Birləşmiş Ərəb Əmirliyi, Çexiya, Əlcəzair, Fransa, Gürcüstan, İtaliya, Qazaxıstan, Polşa, Rusiya, Türkiyə və Yunanıstanın 102 universitetindən 234 elm adamı iştirak edib.**

Mərasimdə Türkiyənin Səlcuq Universitetinin prorektoru, professor Haldun Soydalın videotəbriki nümayiş olunub. ADU-nun elm və innovasiya məsələləri üzrə prorektoru, professor Həmidə Əliyeva konfransın əhəmiyyətindən söz açıb.

Daha sonra Səlcuq Universitetinin Mütərcim və tərcümanlıq bölməsinin rəhbəri, konfransın təşkilat komitəsinin sədri, professor Onur Köksal, Azərbaycan Dillər Universitetinin German dillərinin tərcümə nəzəriyyəsi və praktikası kafedrasının professoru Qılıncxan Bayramov çıxış edib. ADU-nun beynəlxalq əlaqələr üzrə prorektoru dosent Jalə Qəribova, Səlcuq Universitetinin mütərcim və tərcümanlıq bölməsinin müəllimi Rövşən Ramizoğlu konfransın önəmi ilə bağlı fikirlərini bölüşüblər.

Dünyanın bir sıra universitetlərinin təmsilçiləri konfransda tərcümə və dil sahəsində bilik və bacarıqlarını nümayiş etdiriblər.

***XQ***

# Görkəmli cərrahın şərəfinə elmi məclis



**Səhiyyə Nazirliyində akademik Mustafa Topçubaşovun 130 illik yubileyi münasibətilə elmi-praktik konfrans keçirilib.**

Səhiyyə naziri Teymur Musayev məclisdə giriş sözü ilə çıxış edib. Prezident İlham Əliyevin “Akademik Mustafa Topçubaşovun 130 illiyinin qeyd edilməsi haqqında” sərəncamından irəli gələn vəzifələr çərçivəsində təşkil etdiyini vurğulayan nazir bildirib: “Akademik təkcə öz dövrünün deyil, Azərbaycan səhiyyə və tibb elminin tarixində adı əbədi həkk olunmuş alimdir”.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə akademikin adını daşıyan Elmi Cərrahiyyə Mərkəzinin açılışını xatırladan nazir tibb ocağının bu yüksək etimada layiq fəaliyyət göstərdiyini vurğulayıb: "Akademik Topçubaşovun adının dünya miqyasında tanınması Azərbaycan cərrahiyyə elminin tarixi uğurudur. Cərrahların Lissabonda keçirilmiş XI Beynəlxalq Konqresində akademik Mustafa Topçubaşovun Beynəlxalq Cərrahlar Assosiasiyasının üzvü seçilməsi görkəmli təbibin simasında Azərbaycan cərrahiyyəsinə verilən beynəlxalq dəyər olub".

Elmi məclisdə qeyd edilib ki, akademikin "analgezin" adlı ağrıkəsicinin kəşfi İkinci Dünya müharibəsi illərində insanlığa böyük xidmət sayılıb: “Hətta tanınmış sovet akademiki Pyotr Kupriyanov bu kəşfi "Bakı neftinin müharibədə tanklara verdiyi gücə" bənzətmişdir. Akademik Topçubaşovun həyat yolu gənc nəsil üçün böyük alimlik və insanlıq məktəbidir".

***XQ***

*Hər şəkil bir yadigardır*

# Zamanı əbədiləşdirən sənət

**... "Bir az sağa yönəl, qolların yana sal. Bax, beləcə dur. Tərpənmə, çəkirəm". Bu, adətən hamımızın şəklimizi çəkdirmək üçün müraciət etdiyimiz fotoqrafların bir vaxtlar ən çox işlətdiyi kəlmələr idi.**





Dünyada ilk dəfə foto təsvirini 19 iyul 1822-ci ildə fransız alim Jozef Nyeps alıb. Bu foto saxlanmadığından, fotoqrafiya sahəsində ilk şəkil yenə də onun tərəfindən çəkilmiş "Pəncərədən La-Qrassın mənzərəsi" adlı foto hesab olunur. "Fotoqraf" sözünün mənası isə yunan dilindən tərcümədə "foto" işıq, "grafio" çəkirəm deməkdir.

Paytaxtda vaxtilə birillik fotoqruplar, həmçinin Gənclər Yaradıcılıq mərkəzlərində də fotodərnəklər fəaliyyət göstərsə də, son illər tam ləğvinə qərar verilib. Buna baxmayaraq, ölkəmizdə fotoqrafları bir araya toplayan, böyük layihələr həyata keçirən, beynəlxalq arenada təmsil edən Azərbaycan Fotoqraflar Birliyi 27 ildən artıqdır ki, fəaliyyətdədir.

Müasir texnologiyalar bu peşəyə marağı demək olar ki, azaldıb. Xüsusilə mobil telefonlar fotoqrafların işini lap çətinə salıb. Belə desək, bu sahədə meydan gənclərə qalıb.

Beləliklə, üz tuturuq paytaxtda yerləşən fotostudiyalara. Öncədən qərarlaşdırdığım kimi, müsahiblərimlə Sovet dövrünün fotoqrafiya sənətindən müasir dövrə qədər davam edən proseslərdən qısa da olsa söhbət açacağıq.

Azadlıq prospektində yerləşən fotostudiyadan çıxan ucaboylu, enlikürəkli bir ağsaqqalla qarşılaşırıq. Gözlərini əlində tutduğu şəkildən çəkmədən "əla düşmüşəm"- deyərək, ağır-ağır pilləkənləri qalxır. Ağsaqqalı söhbətə tuturam.

– Yaxın, nəvə-nəticələrin şəkilləridir.

– Yox, oğlum, özümündür. Hər il doğum günümdə şəkil çəkdirir, xüsusi tərtibatlı albomuma əlavə edirəm. Bu mənim hobbimdir. 10 yaşımdan 75 yaşıma kimi şəkillərim albomumu bəzəyir. Nəvə-nəticələrə yadigar qalacaq" – deyə bildirir.

Sonra özünü təqdim edir: Ağami Abbasov, əslən İsmayıllı rayonundanam. Uzun illərdir paytaxtda yaşayıram. Hər fəsildə rayonlara üz tuturam. İsmayıllıya getdimsə, üzü oyana – Qəbələ, Qax, Şəki, Zaqatala və s. rayonlara da getməliyəm. Hər rayonun özünəməxsus əsrarəngiz gözəlliyi var. Şəkil çəkdirib günü, ayı, ili qeyd etməliyəm.

İnanın ki, rayonlara istirahətə getməyimin elə bir səbəbi də budur ki, şəkillərimin sayı çoxalsın.

"İndi otuzdan çox şəkli övlad və nəvələrimə çəkdirib burada çıxartdırmışam. O şəkil hökmən üreyimcə olmalıdır. Saç düzümümdən tutmuş geyimimə qədər. Hər fotoqrafa da etibar etmirəm. Uzun illərdir Füzulini tanıyıram. Gətirdiyim şəkillərə öncədən "rəy" verir. Onun kimi sənətkarlara hər zaman ehtiyac var.

Ömrünün təxminən yarım əsrini bu peşəyə həsr edən Füzuli dayı qeyd edir ki, əvvəllər fotoqraflara böyük ehtiyac duyulurdu. Sayılıb-seçilənlərdən idik. Mötəbər yerlərdən tutmuş bir çox tədbirlərə dəvət olunardıq. Bir məsələni də qeyd edim ki, sovet dövrünün fotoqrafları da əsl sənətkarlar idilər. O vaxt plyonkanı yuyardıq. Yəni foto bu cür ərsəyə gələrdi. Əgər ağ-qara plyonka iki maddədə yuyulurdusa, rəngli plyonka 5 maddədə həllini tapardı. Onun çapı 5 prosesdən keçirdi. Ən azı iki saat sərf edib, sonra şəkilləri təqdim edərdik. Çox ağır iş idi. Hər dövrün öz üsulu var.

İndi sıralarımız demək olar ki, seyrəlib. Bizə ancaq çəkilən şəkillərin çıxarılması üçün müraciət edirlər. Bu peşə də öz dövranını başa vurmaq üzrədir. Hər gün dünyada gedən elmi-texniki yeniliklər bu peşəyə vida etməyə sövq edir. Yaşımızın elə vaxtıdır ki, bu işimizlə günümüzü keçirib, dövranımızı sürürük.

Füzuli dayı ilə qısa söhbətdən sonra şəklini çəkmək üçün icazə istəyirəm. Şəklimi elə çək ki... Görən tamaşa etsin.

Digər həmsöhbətim də uzun illər fotoqraf kimi çalışmış Azər Mustafayevdir. Bildirir ki, elə bir dövrdə bu peşəyə yiyələnmişdim ki, o vaxt iş başımızdan aşırdı. İnanın ki, növbə əlindən tərpənmək olmurdu. Sifariş sifarişin dalınca. Hətta bizdən inciyənlər də olurdu. İndi elə bir dövrə gəlib çatdıq ki, hər kəsin bahalı, müasir telefonları bu sənəti sıxışdırdı. Bir sözlə, təcrübəli fotoqraflar məcburən bu sənətdən üz döndərərək müxtəlif sahələrdə çalışmağa başladılar. Amma yaxşı sənətkarın sənəti heç vaxt "pas" atmır. Sənətə qiymət verən insanların həmişə bu təbəqəyə ehtiyacı duyulur. Bu sənətdən dolanışıq ucbatından uzaqlaşanlar o insanların sayəsində az da olsa gündəmdə qaldılar. Həm özləri yaşadı, həm də sənəti yaşatdılar. Hazırda bu sahədə demək olar ki, yaşlı nəslə az-az rast gəlinir. Heç diqqət yetirmisinizmi şəhərdə fəaliyyət göstərən fotostudiyalara. Demək olar ki, sırf foto kimi çalışan ünvanları barmaqla göstərmək olar. On beş kvadratlıq bir məkanda həm telefon satılır, həm parfümeriya, həm də foto çəkilir. Yəni o foroqraflar bir sözlə, həvəskar kimi fəaliyyət göstərirlər.

Mən çalışdığım illər çoxları bu fikrimi təsdiq edər, ən azı on-on beş dəqiqə müştərinin saç düzümündən tutmuş, qol hərəkətlərinə diqqət edərdik, - Azər söhbətə davam edir. İndi tam əksinədir. Otur, bir saniyə çəkilişlə dur get. Hətta çəkdiyim şəkillər elə vaxt olub ki, müştərinin xoşuna gəlsə də mən bununla razılaşmamışam. Sənətimə hörmət əlaməti olaraq müştərinin günahı ucbatından bu baş versə də yenidən ürəyimcə çəkib təqdim etmişəm. Təsəvvür edin ki, 35-40 il əvvəl çəkilmiş şəkillər keyfiyyətini bu gün də itirməyib. Çünki sənətə elə ürəkdən yanaşırdıq ki... Hərdən şəkilləri təqdim edəndə bir az həyəcan keçirirdik ki, müştəri birdən "bu nə şəkildir çəkmisən "- deyə irad tutar.

Sözsüz ki, hər çəkilən fotoşəkil özündə bir hekayə, bir hiss, bir xatirə daşıyır. Təbiətin gözəlliyi, şəhərin hərəkəti, insanın təbəssümü və ya kədəri–hamısı obyektivdə əbədiləşir.

Yaxşı fotoqraf texniki biliklərlə yanaşı, incə duyğuya, müşahidə qabiliyyətinə və estetik zövqə sahib olmalıdır. Çünki foto yalnız şəkil deyil, həm də sənət əsəridir.

✍ *Müşfiq MİRZƏ*
*XQ*

# Filippin prezidenti cəllad imiş

**Beynəlxalq Cinayət Məhkəməsi (BCM) Filippinin sabiq prezidenti Rodriqo Duterteyə qarşı insanlığa qarşı cinayətlər ittihamı irəli sürüb. Məhkəmənin açıqlamasına görə, ittihamlar ölkədə uzun illər davam etmiş narkotiklərə qarşı kampaniya zamanı baş verən ölümlərlə bağlıdır. İttihamnamədə 2013–2018-ci illərdə ən azı 76 ölüm hadisəsi qeyd olunub. Bu ölümlərin bir hissəsi Duterte Davao şəhərinin meri vəzifəsində çalışarkən, digər qismi isə onun prezidentliyi dövründə qeydə alınıb.**



Sənədlərdə göstərilir ki, 2013–2016-cı illərdə 19, 2016–2017-ci illərdə 14, 2016–2018-ci illərdə isə 43 nəfərin öldürülməsi faktı üzrə məsuliyyət məsələsi qaldırılıb. BCM bu ölümlərin birbaşa göstəriş və təhrik nəticəsində baş verdiyini bildirir. Bununla belə, hüquq-müdafiə təşkilatları gerçək qurban sayının daha çox olduğunu qeyd edirlər. Rəsmi məlumatlara görə, 2016–2022-ci illər ərzində 6 min 229 nəfər, BMT-nin 2020-ci il hesabatına əsasən isə 8 min 663 nəfər həyatını itirib. Bəzi qeyri-hökumət təşkilatları bu rəqəmin 30 min nəfərə qədər ola biləcəyini vurğulayırlar.

Rodriqo Duterte 2016-cı ildə çıxışı zamanı kəskin ifadələr işlətmiş və bu, beynəlxalq müstəvidə geniş müzakirələr doğurmuşdu. BCM 2018-ci ildə onun barəsində ilkin istintaqa başlamış, Duterte isə cavab olaraq ölkəsinin məhkəmədən çıxacağını bəyan etmişdi. Rəsmi olaraq Filippin 2019-cu ildə BCM-dən ayrılıb. Hazırkı hakimiyyət beynəlxalq qurumla üzvlük çərçivəsində deyil, İnterpol vasitəsilə əməkdaşlıq imkanlarını nəzərdən keçirdiyini bildirib.

2025-ci ilin martında Duterte Manila hava limanında saxlanılaraq Haaqaya aparılıb və hazırda Sxeveningen həbsxanasında saxlanılır. Sentyabr ayında məhkəmə qarşısına çıxması planlaşdırılsa da səhhətində yaranan problemlər səbəbindən iclas təxirə salınıb. Onun vəkilinin açıqlamasına görə, Duterte hazırda sağlamlıqla bağlı çətinliklər yaşayır.

BCM-yə qarşı beynəlxalq müstəvidə də müxtəlif mövqelər ifadə olunur. Sentyabr ayında Burkina-Faso, Mali və Niger məhkəmədən çıxacaqlarını elan ediblər. ABŞ isə qurumun fəaliyyəti ilə bağlı uzun müddətdir narazılıq bildirir və hazırda yeni məhdudiyyətlərin tətbiqi məsələsini nəzərdən keçirir. Baş verənlər həm Filippindəki siyasi proseslər, həm də BCM-in gələcək fəaliyyəti ilə bağlı geniş müzakirələrə səbəb olub.

✍ *Səbuhi MƏMMƏDOV*
*XQ*

# Cəbrayılda mina müzakirəsi



**Azərbaycanın işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin nəzdində fəaliyyət göstərən Minalardan və partlamamış hərbi sursatlardan təmizləmə üzrə İşçi qrupun Cəbrayılda keçirilən iclasında humanitar minatəmizləmə fəaliyyətinin gedişatı, qarşıda duran hədəflər və mövcud çağırışlar müzakirə edilib.**

Bildirilib ki, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında 84 min 146.5 hektar olmaqla, ümumilikdə, 228 min 689.9 hektar ərazi mina və müharibənin digər partlayıcı qurğularından təmizlənib. Təmizləmə əməliyyatları nəticəsində 210 min 655 ədəd partlayıcı qurğu aşkar edilərək zərərsizləşdirilib.

İclasda çıxış edən Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Prezidentin xüsusi nümayəndəsi Vahid Hacıyev işğaldan azad edilmiş ərazilərdə dövlət başçısının tapşırığı əsasında aparılan sürətli bərpa-quruculuq işlərinin keçmiş məcburi köçkünlərin burada təhlükəsiz və dayanıqlı məskunlaşmasına xidmət etdiyini bildirib. V.Hacıyev qarşıya qoyulan hədəflərə nail olmaq üçün torpaqların minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsinin ən əsas vəzifələrdən biri olduğunu vurğulayıb.



İşçi qrupun üzvləri əvvəlcə Füzuli rayonunun Horadiz və Cəbrayıl rayonunun Horovlu kəndlərində icra edilən humanitar minatəmizləmə fəaliyyəti ilə tanış olublar. Səfər iştirakçıları həyata keçirilən layihələrin gedişatını, o cümlədən aşkar olunan mina və partlamamış hərbi sursatların partlayış yolu ilə zərərsizləşdirilməsi prosesini müşahidə ediblər.

Daha sonra İşçi qrupun Cəbrayıl rayonunda iclası keçirilib.

ANAMA-nın İdarə Heyətinin sədri, İşçi qrupun rəhbəri Vüqar Süleymanov iclasda çıxış edərək işğaldan azad edilmiş ərazilərin inkişafı istiqamətində icra olunan minatəmizləmə layihələri barədə məlumat verib.

İşçi qrupun digər üzvləri təmsil etdikləri qurumlar tərəfindən ərazilərin minalardan təmizlənməsi istiqamətində görülmüş işlər barədə məlumat veriblər. İclasda təqdim olunan hesabatlar İşçi qrupunun üzvləri tərəfindən müzakirə edilib.

# Laçında Ekoloji qrupun iclası



**Laçın şəhərində Azərbaycanın işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Ekoloji məsələlər üzrə İşçi qrupunun növbəti iclası olub.**

İclasda İşçi qrupunda təmsil olunan müvafiq dövlət qurumlarının nümayəndələri, Laçın, Kəlbəcər, Şuşa, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan, Ağdərə, Xocalı, Xocavənd rayonlarında və Xankəndi şəhərində Azərbaycan Prezidentinin xüsusi nümayəndəliklərinin, eləcə də Bərpa, Tikinti və İdarəetmə xidmətlərinin nümayəndələri iştirak ediblər.

İclasda İşçi qrupunun üzvləri və dəvət olunan digər qurumların nümayəndələri tərəfindən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında infrastruktur layihələri həyata keçirilərkən ekoloji tələblərin icra vəziyyəti, yer təkindən istifadənin tənzimlənməsində qarşıya çıxan çətinliklər və onların həlli yolları, bu ərazilərdə təhlükəsiz bərk tullantıların idarəolunması ilə bağlı həyata keçirilmiş tədbirlər və bu sahədə idarəetmənin təkmilləşdirilməsi, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında biomüxtəlifliyin qorunması məqsədilə yeni xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması və mövcud qorunan ərazilərin fəaliyyətinin bərpası istiqamətində görülən işlər haqqında iclas iştirakçılarına məlumat verilib.

İclasda iştirak edən digər qurumların nümayəndələri tərəfindən infrastruktur layihələri həyata keçirilərkən ekoloji icazələrlə bağlı qaldırılan məsələlər və müvafiq qurumlar arasında kommunikasiyanın gücləndirilməsi, fəaliyyətin əlaqələndirilməsi məqsədilə Əlaqələndirmə Qərargahı tərəfindən verilmiş tapşırıqların icrası ilə bağlı məsələlər müzakirə edilib.

*XQ*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 205 (30899) 25 sentyabr 2025-ci il, cümə axşamı

İDMAN

## Bakıda fiqurlu konkisürmə üzrə Qran-Pri



**Bakıda keçirilən yeniyetmələr arasında fiqurlu konkisürmə üzrə Qran-pri turnirinin açılış mərasimi olub. Heydər Əliyev adına İdman-Konsert Kompleksində təşkil edilən mərasimdə Azərbaycan Qış İdmanı Növləri Federasiyasının prezidenti Fuad Nağıyev çıxış edərək qonaqları salamlayıb, yarış iştirakçılarına uğurlar arzulayıb.**

Daha sonra gənclər və idman naziri Fərid Qayıbov bu cür idman turnirlərinin ölkəmizdə keçirilməsinin əhəmiyyətindən danışıb, son dövrlərdə qış idmanı növlərinə marağın artdığını vurğulayıb.

Daha sonra yarış açıq elan edilib.

Qeyd edək ki, Qran-Pri sentyabrın 26-da başa çatacaq.

## Cüdo məşqçiləri üçün peşəkar inkişaf proqramı



**Bakıda cüdo məşqçiləri üçün peşəkar inkişaf proqramı həyata keçiriləcək.**

Azərbaycan Cüdo Federasiyasından verilən məlumata görə, sentyabrın 29-da start götürəcək və 5 gün davam edəcək proqram çərçivəsində təcrübəli yerli mütəxəssislərin nəzəri və praktiki sessiyaları təşkil olunacaq. İştirak üçün müraciət edən ilk 30 məşqçi peşəkar inkişaf proqramına qəbul ediləcək.

Bu proqram Beynəlxalq Cüdo Federasiyası Akademiyasında təhsil almaq istəyən məşqçilər üçün önəmlidir. Proqramı uğurla başa vuran məşqçilərə sertifikat təqdim olunacaq.

## FİFA-nın hakimlərimizə etimadı



**Azərbaycanın FIFA referisi Kamal Umudlu 17 yaşadək futbolçulardan ibarət komandalar arasında Avropa çempionatının seçmə mərhələsinə təyinat alıb.**

AFFA-dan verilən məlumatda bildirilir ki, o, 5-ci qrupda, oktyabrın 8-də Belçika – Moldova oyununun dördüncü hakimi olacaq. K.Umudlu oktyabrın 11-də Norveç-Moldova, 14-də Moldova-Belarus matçlarını idarə edəcək.

Vüsal Məmmədov isə hər 3 qarşılaşmada köməkçi hakim kimi fəaliyyət göstərəcək.

Qeyd edək ki, qrup mərhələsinin görüşləri Belçikada keçiriləcək.

✍ *Qabil YUSİFOĞLU*
*XQ*



# Gəncənin bağları cənnət misallı

**Gəncə... Adı çəkilən kimi göz önündə təkcə tarixi binalar deyil, yaşıllıqlar içində gizlənmiş bağlar, su arxlarının şırıltısı, meyvə ağaclarının ətri canlanır. Yəni Gəncə tarixi boyu bağçılıq sənətinin beşiyi kimi də tanınıb. Başqa sözlə, Gəncə bağlar içində doğulan bir şəhərdir.**

Tarixi mənbələrdə Gəncə bağçılığına dair çoxsaylı qeydlər var. Fransız səyyah Filip Avrill XVII əsrdə Gəncəni belə təsvir edir: "Bu yer mənzərə baxımından imperiyanın gülüstanıdır. Çiçəklərlə ağırlaşmış ağaclar, axar sular, geniş bağlar və yaşıl örtüklə örtülmüş həyətlər...".

X əsrdə qələmə alınmış məşhur "Hüdud əl-Ələm" əsərində yazılır: "Gəncədə çoxlu üzüm, fındıq və əla növ nar bağları var".

Bu cür qeydlər şəhərin təkcə kənd təsərrüfatı deyil, həm də mədəni və sosial həyatda necə önəmli rol oynadığını göstərir. XII əsrdə Sultan Cəlaləddin Xarəzmşah üsyan zamanı öz düşərgəsini məhz bu bağlar içində salmışdı. Övliya Çələbi isə Gəncənin bağlarını təkcə təsvir etməklə kifayətlənmir, onların bol meyvə və sıx yaşıllıqla zəngin olduğunu da xüsusi vurğulayırdı.



Gəncə bəylərbəyi ailəsinə məxsus olan "Xan Bağı" şəhərin bağçılıq irsinin zirvəsi hesab olunurdu. Burada dünyanın müxtəlif yerlərindən gətirilmiş nadir ağaclar və bitkilər əkilmişdi. Bu bağ yalnız məhsul mənbəyi deyil, həm də estetik düşüncənin və zövqün ifadəsi idi. Xan Bağı, eyni zamanda diplomatik və mədəni görüşlərin məkanı kimi də seçilirdi.

Bu gün "Bağmanlar" kimi tanınan Böyük Bağman və Bala Bağman məhəllələrinin tarixi çox qədimlərə gedib çıxır. XII əsrdə hərbi düşərgə olaraq istifadə edilən bu yerlər zamanla Gəncənin bağçılıqla məşğul olan əsas yaşayış məhəllələrinə çevrildi.

1804-cü ildə Bala Bağmanda cəmi 31 ev olduğu halda, XX əsrin əvvəllərində bu rəqəm artıq yüzlərlə ailəni əhatə edirdi. Burada yaşayan insanlar təkcə torpaqla yox, həm də şəhərin sosial və mədəni həyatında fəal iştirak edirdilər.

Məhəllə sakini Akif Rəfiyev rəfibəylilərin ulu babalarının 500 il bundan əvvəl Cənubi Azərbaycanın Təbriz şəhərindən gəlmələrini və Təbriz üzüm sortunu da onların Gəncəyə gətirdiyini söyləyir. Onun dediyinə görə, ulu babalarının Səfəvilərin hakimiyyətə gəlməsində xidmətləri olub.

Məhəllənin yerli sakinləri çox güman ki, indiki əraziyə qədim Gəncədən gəliblər. Məhəllə sakinləri calaqçılıq, meyvəçilik, tərəvəzçilik və heyvandarlıqla məşğul olublar. El arasında "Bala Bağman" sakinlərinə zarafatla "Calaq oğrusu" da deyirlər.

Tarixi məxəzlərdə Gəncə öz ipəyi ilə məşhur olub. Gəncədə ipəkçiliyin tarixi çox qədimdir. Burada istehsal olunan "Ərəş" ipəyi Yaxın və Orta Şərq dövlətlərində çox məşhur idi. Məhəllədə calaqçı Qədir, İsmayıl kişi kimi məşhur adamlar yaşayıb. Məhəllə sakinlərinin əkin yeri Qızıl qaya və Todanlıda olub.

Təəssüf ki, ötən əsrin 50-ci illərindən başlayaraq sovet dönəminin kolxoz-sovxoz siyasəti, şəhərsalmada sürətli dəyişikliklər Gəncə bağlarının böyük hissəsini sıradan çıxardı. Bağ sahələri ev tikintisinə verildi, bağçılıq mədəniyyəti isə tədricən unudulmağa başladı.

Lakin bu irs sadəcə nostalji deyil. Gəncənin yaşıl yaddaşı, kökləri torpağın dərinliklərinə işləyən bağ təsərrüfatları bu gün də bərpa oluna bilər və olunmalıdır.



Gəncənin bağçılıq irsini yaşatmaq və gələcək nəsillərə ötürmək üçün konkret addımlar atıla bilər. "Gəncə Bağları" Etno-Parkı yaratmaqla qədim bağçılıq üsulları, üzüm sortları, bəkməz hazırlanması və onların nümayiş etdirilməsi mümkündür. İl yarım əvvəl ölkə Prezidenti cənab İlham Əliyevin birbaşa təşəbbüsü, köməyi və iştirakı ilə Gəncədə Ekologiya Park Kompleksi açılmışdır və bu, şəhər əhalisinin böyük razılığına səbəb olmuşdur.

Buna bənzər digər maraqlı təşəbbüslər də fayda verər. Məsələn, Bağçılıq Tarixi Muzeyi açmaq olar. Bağman və Bala Bağman məhəllələrində yerləşdirilə biləcək bu muzeydə qədim suvarma sistemləri, alətlər və sənədlər sərgilənə bilər.

Hər il Meyvə Festivalının təşkil olunması yaddaşlarımızın təzələnməsinə bir təkan olar. Burada yerli məhsulları tanıtmaq və ixrac imkanlarını artırmaq üçün platforma yaratmaq hamının ürəyindən xəbər verər.

Məktəblərdə bağçılıq dərsləri keçirilərək uşaqlarda torpaqla ünsiyyət vərdişləri öyrətmək bu günün aktual məsələlərindən biridir. Gəncə Şəhər Yaşıllaşdırma şöbəsinin müdiri Elmar Əzizov deyir ki, "bəzən əzab-əziyyətlə yetişdirdiyimiz bir gül kolunun və ya körpə ağacın ertəsi gün tapdanmasını görəndə ürəyimiz ağrıyır. Hiss olunur ki, bu sahədə məktəblərdə bir boşluq var".

Gəncə həm bağçılıq, həm də ədəbi irsini yaşada bilər. Yuxarıda qeyd etdiyimiz kimi, Gəncə təkcə qala divarları, bazarları ilə yox, bağlarının ruhu ilə də məşhur bir şəhər olub. Bu ruh torpaqda, suda, meyvədə və zəhmətkeş insanların həyat tərzində yaşamağa davam edir.

Son vaxtlar şəhərdə bu sahədə görülən işlər ürəkaçandır. Əminik ki, bağlar içində doğulan şəhər bundan sonra da bağlarla, yaşıllıqlarla əhatə olunacaq. Gəlin, bu ruhu unutmayaq. Gəlin, Gəncəni yenidən yaşıl mədəniyyətin paytaxtına çevirək. Bu təkcə keçmişə deyil, gələcək nəsillərə də borcumuzdur.

✍ **Hamlet QASIMOV,**
**XQ-nin bölgə müxbiri,**
**Gəncə**


## "Bakı Beynəlxalq Dəniz Limanı" Məhdud Məsuliyyətli Cəmiyyəti

"Bakı Beynəlxalq Dəniz Limanı" MMC-də istismar edilən 22 ədəd hidrotexniki qurğunun (körpünün) təhlükəsizlik bəyannamələrinin hazırlanması və müvafiq ekspert rəyinin alınması üçün

**Açıq Tender Elan Edir**

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Təkliflərin təqdim edilməsi üçün son tarix 8 oktyabr 2025-ci il saat 16:00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan təkliflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu: +994 12 599 00 03 (daxili 1804).
Ünvan: AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.


## Qarabağ Universitetinin rəqəmsal dünyası

**Ali məktəbdə Gənclər Fondunun "Rəqəmsal" mövzulu qrant müsabiqəsi çərçivəsində "SmartYurd – veb-saytının yaradılması" adlı layihə uğurla həyata keçirilib. Bu günlərdə Qarabağ Universiteti tələbələri üçün yataqxana həyatını rəqəmsallaşdıran "SmartYurd" (smartyurd.az) platforması istifadəyə verilib.**

"SmartYurd" Qarabağ Universitetinin tələbələri üçün xüsusi olaraq hazırlanmış müasir rəqəmsal yataqxana idarəetmə sistemidir. Veb-saytın əsas məqsədi yataqxana ilə bağlı prosesləri optimallaşdırmaq, tələbələr üçün daha rahat, şəffaf və səmərəli mühit yaratmaq, idarəetmədə çevikliyin və səmərəliliyin artırılmasına töfhə verməkdir.

Layihənin rəhbəri Qarabağ Universitetinin Keyfiyyətin təminatı və strateji inkişaf şöbəsinin müdiri Heydər Rzayev, layihənin koordinatoru isə Qarabağ Universitetinin Mühəndislik fakültəsinin ikinci kurs tələbəsi Fərid Fətullayevdir.

*XQ*

*Hava*

## Daha bir yağmursuz gün

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Şimal-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək.**

Havanın temperaturu gecə 15-18, gündüz 22-26 dərəcə isti olacaq. Atmosfer təzyiqi 760 millimetr civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 55-65 faiz təşkil edəcək.



Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 12-16, gündüz 23-28, dağlarda gecə 4-7, gündüz 11-16 dərəcə isti təşkil edəcək.

✍ *Q.ƏLİYEV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi maliyyə və uçot şöbəsinin müdiri Taryel Məmmədova qardaşı

**NATİQ MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Pirallahı rayonundan Vasif İmanov Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidova atası

**MİRHEYDƏR SEYİDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Şirvan şəhərindən İlqar Abbasov Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidova atası

**MİRHEYDƏR SEYİDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3556
SİFARİŞ 1942
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mehparə ƏLİYEVA
Çapa imzalanmışdır 00:00